Xalqın qəzeti!

# Xalq qəzeti

№ 203 (30897) 23 sentyabr 2025-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

## Prezident İlham Əliyev BMT Baş Assambleyasının 80-ci sessiyasında iştirak etmək üçün Nyu-Yorka səfərə gəlib

### *"John F.Kennedy" Beynəlxalq Hava Limanında qarşılanma*



**Sentyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının 80-ci sessiyasında iştirak etmək üçün Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərinə işgüzar səfərə gəlib.**

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Nyu-York şəhərinin "John F.Kennedy" Beynəlxalq Hava Limanında rəsmi şəxslər qarşılayıblar.

## Sərnişindaşımada müasir çağırışlar



### *"İctimai nəqliyyat" məqsədli Büdcə Fondu xidməti yüksəltməyi təmin edəcək*

**Prezident İlham Əliyevin sentyabrın 19-da imzaladığı "Avtomobil nəqliyyatı ilə müntəzəm sərnişin daşınması sahəsinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Fərmana əsasən bu sahədə əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin və təhlükəsizliyinin reallaşdırılması, qabaqcıl beynəlxalq tələblər və təcrübə nəzərə alınmaqla ictimai nəqliyyat daşıyıcılarının fəaliyyətinin səmərəli təşkili məqsədilə dövlət büdcəsinin tərkibində "İctimai nəqliyyat" Məqsədli Büdcə Fondunun yaradılması qərara alınıb.**

Sənəddə yaradılan fondun avtomobil benzininin, dizel yanacağının və maye qazın hər litrinə görə nəzərdə tutulan yol vergisi, eləcə də nəqliyyat vasitələrindən paytaxtın ödənişli hərəkət zonalarına daxil olarkən əldə edilən vəsait kimi mədaxil mənbələri hesabına formalaşacağı müəyyənləşdirilib. Fondun vəsaitinin dövlət büdcəsi tərkibində təsdiqlənən xərclər çərçivəsində sərəncamçısının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi olması nəzərdə tutulub.

*(ardı 11-ci səhifədə)*

## Azərbaycanın iqtisadi inkişafının ana xətti "yaşıl" iqtisadiyyatın qurulmasıdır

### *Birinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu işə başlayıb*




**Bakıda keçirilən I Azərbaycan Beynəlxalq İnvestisiya Forumu (AIIF-2025) ölkəmizin iqtisadi strategiyasının yeni mərhələsini nümayiş etdirir. Forum beynəlxalq tərəfdaşlara Azərbaycanın gələcək inkişaf istiqamətlərini təqdim etməklə yanaşı, həm də qlobal çağırışlar fonunda ölkəmizin rolunu aydın şəkildə ortaya qoyur. Beynəlxalq Forumun əsas mövzusu "Parçalanmış qlobal iqtisadiyyatda Şərq-Qərb, Şimal-Cənub əlaqələrinin gücləndirilməsi" olub. Bununla yanaşı, "yaşıl enerji" və iqtisadiyyat ideyasının ön plana çıxması gündəmdə saxlanılıb. Prezident İlham Əliyevin forum iştirakçılarına müraciətində məhz bu istiqamətə xüsusi yer ayırması deyilənlərin təsdiqidir.**

*(ardı 7-ci səhifədə)*

## Prokurorluq orqanları da dövlət suverenliyinin keşikçiləridir



Səhifə ⇨ 10

## Regiondan qlobal aləmə çıxış




Səhifə ⇨ 4

## Azərbaycan təhlükəsizlik düzənində təşəbbüs mərkəzidir



Səhifə ⇨ 6

## Cənubi Qafqazın regional identikliyi və inteqrasiyası



Səhifə ⇨ 8

## Yeni müstəmləkəçilik bumeranqa çevrilib



Səhifə ⇨ 8

## Cənab Kasparov, gedin, şahmatınızı oynayın!



Səhifə ⇨ 5

## Tarixdə silinməz izlər qoymuş Xəzər İmperiyası



Səhifə ⇨ 13

# Prezident İlham Əliyev Nyu-Yorkda "Brookfield Asset Management" şirkətinin baş icraçı direktoru ilə görüşüb

**Sentyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nyu-Yorkda dünyanın alternativ investisiyalar sahəsində ən böyük idarəedici şirkətlərindən biri olan "Brookfield Asset Management" şirkətinin baş icraçı direktoru Brüs Flətt ilə görüşüb.**



Brüs Flətt 2023-cü ildə ölkəmizə səfəri zamanı Azərbaycanda müşahidə etdiyi iqtisadi nailiyyətlərin və inkişaf proseslərinin onda dərin təəssürat hissi yaratdığını bildirib. O, rəhbərlik etdiyi şirkətin Azərbaycan Respublikası Dövlət Neft Fondu ilə uğurlu əməkdaşlığının getdikcə genişləndiyini vurğulayıb.

Brüs Flətt Vaşinqtonda Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması ilə bağlı əldə edilmiş nəticələrə görə təbriklərini çatdırıb və bunun bölgədə iqtisadi əməkdaşlığın dərinləşdirilməsi üçün də yaxşı imkan yaratdığını deyib.

Ölkəmizlə "Brookfield Asset Management" şirkəti arasında qurulmuş əlaqələrin uğurlu inkişafından məmnunluğunu bildirən Prezident İlham Əliyev bunun əməkdaşlığımızın uzunmüddətli strateji inkişafı üçün geniş imkanlar yaratdığını vurğulayıb.

Söhbət zamanı Azərbaycanın bərpaolunan enerji sahəsindəki imkanları və ölkəmizin regional enerji mərkəzinə çevrilməsi perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, 1899-cu ildə əsası qoyulan və baş ofisi Kanadada yerləşən "Brookfield Asset Management" qlobal miqyasda alternativ investisiyaların idarə edilməsi sahəsində aparıcı şirkətlərdən biridir. Şirkət infrastruktur, daşınmaz əmlak, bərpaolunan enerji, özəl kapital və kredit kimi əsas istiqamətlər üzrə investisiya portfellərini idarə edir. Hazırda "Brookfield"in idarəçiliyində olan aktivlərin ümumi dəyəri 1 trilyon ABŞ dollarından çoxdur. Şirkət Nyu-York, London, Sidney, Dubay, San-Paulo, Mumbay və Şanxay da daxil olmaqla, dünyanın əsas maliyyə mərkəzlərində təmsil olunub.

# Prezident İlham Əliyevin "Neuberger Berman" şirkətinin sədri və baş icraçı direktoru ilə görüşü



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 22-də Nyu-Yorkda "Neuberger Berman" şirkətinin sədri və baş icraçı direktoru Corc Volker ilə görüşüb.**

Görüşdə Azərbaycan ilə "Neuberger Berman" şirkəti arasında əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Prezident İlham Əliyev ölkəmizin beynəlxalq maliyyə qurumları və nüfuzlu investisiya şirkətləri ilə əməkdaşlığın genişləndirilməsinə önəm verdiyini vurğulayaraq, bu xüsusda "Neuberger Berman" şirkəti ilə tərəfdaşlığın bundan sonra da uğurla davam edəcəyinə inamını ifadə edib.

Söhbət zamanı Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2016-cı ildən etibarən bu şirkətlə səmərəli tərəfdaşlığının ölkəmizin maliyyə sektorunun inkişafına və beynəlxalq investisiya imkanlarının genişlənməsinə töhfə verdiyi vurğulanıb.

Corc Volker rəhbərlik etdiyi şirkətin qlobal maliyyə və investisiya fəaliyyəti barədə məlumat verərək, Azərbaycanla əməkdaşlıqdan məmnunluğunu ifadə edib. O, regionda baş verən iqtisadi proseslərin şirkət üçün əhəmiyyətini vurğulayıb, yeni layihələr çərçivəsində tərəfdaşlığın genişləndirilməsi üçün mövcud imkanların dəyərləndirildiyini bildirib.

Qeyd edək ki, 1939-cu ildə Nyu-Yorkda təsis olunmuş "Neuberger Berman" qlobal investisiya idarəetmə şirkətidir. Hazırda şirkət beynəlxalq institutlar, məsləhətçilər və fərdi investorlar üçün yarım trilyondan çox ABŞ dolları məbləğində aktivləri idarə edir.

# "Blackstone" şirkətinin Azərbaycanla əməkdaşlığın genişləndirilməsində maraqlı olduğu qeyd edilib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 22-də Nyu-Yorkda "Blackstone" şirkətinin prezidenti və baş əməliyyat direktoru Conatan Qrey ilə görüşüb.**

Conatan Qrey Azərbaycanda həyata keçirilən iqtisadi islahatların və inkişaf proseslərinin beynəlxalq investorlar üçün cəlbedici imkanlar yaratdığını vurğulayıb. O, rəhbərlik etdiyi şirkətin Azərbaycanla, xüsusilə də Azərbaycan Respublikası Dövlət Neft Fondu ilə uğurlu əməkdaşlığının genişləndirilməsində maraqlı olduğunu qeyd edib və ölkəmizdə formalaşmış iqtisadi sabitlik, şəffaflıq və investisiya mühitini yüksək qiymətləndirib.

Prezident İlham Əliyev Azərbaycanın dünya miqyasında aparıcı maliyyə institutları ilə əməkdaşlığa böyük önəm verdiyini deyərək, ölkəmizdə formalaşmış və davamlı inkişaf prinsipləri əsasında formalaşmış iqtisadi mühitin yeni tərəfdaşlıqlar üçün əlverişli zəmin yaratdığını vurğulayıb.

Qeyd edək ki, alternativ investisiyaların idarə edilməsi üzrə dünyanın ən böyük şirkətlərindən biri olan "Blackstone" 1985-ci ildə Nyu-Yorkda təsis olunub. Şirkət özəl kapital, daşınmaz əmlak, kredit, infrastruktur, data mərkəzləri, bərpaolunan enerji və hedc fondları üzrə investisiya portfellərini idarə edir. Hazırda "Blackstone"un idarəçiliyində olan aktivlərin ümumi dəyəri 1 trilyon ABŞ dollarından artıqdır. Baş ofisi Nyu-Yorkda yerləşən şirkət London, Honkonq, Dubay, Sinqapur və Tokio da daxil olmaqla dünyanın 27 şəhərində fəaliyyət göstərir.

*AZƏRTAC*

# IDEA-nın təsisçisi və rəhbəri Leyla Əliyeva və Arzu Əliyeva Nyu-Yorkda

## *"Anadolunun qapıları arxasındakı xəzinələr" adlı sərgidə iştirak ediblər*



**Sentyabrın 22-də ABŞ-ın Nyu-York şəhərində yerləşən Türk Evində Türkiyənin birinci xanımı Əminə Ərdoğanın təşəbbüsü ilə "Anadolunun qapıları arxasındakı xəzinələr" adlı sərgi keçirilib.**





IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Arzu Əliyeva sərgidə iştirak ediblər.

Qədim sivilizasiyalara aid sənət nümunələrinin və əl işlərinin nümayiş olunduğu sərginin məqsədi Anadolu mədəniyyətinin təbliği və mədəniyyətlərarası dialoqun təşviqidir.

Türkiyənin birinci xanımı Əminə Ərdoğan bildirib ki, bu tədbir təkcə kökü qədim tarixə söykənən Anadolu mədəniyyətinin incəliklərini ortaya qoymur, eyni zamanda, müasir həyatda da Anadolu insanının minillik təcrübəsi və bacarıqlarının öyrənilməsinin zəruriliyini sübut edir.

Əminə Ərdoğan ətraf mühitin mühafizəsi məqsədilə "Sıfır Tullantı" prinsipinin nəinki müasir dövrdə, qədim zamanlarda belə Anadolu coğrafiyasında prioritet istiqamət olduğunu deyib.

Sərgi Anadolunun zəngin məhsul müxtəlifliyinə həsr olunmuş "Torpağın münbitliyi", "Mətbəxin toplanması" və "Əllərin ustalığı" adlı üç əsas mövzunu əhatə edib.

## Malta Respublikasının Prezidenti Zati-aliləri xanım Miriam Spiteri Debonoya

**Hörmətli xanım Prezident!**

Malta Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

İnanıram ki, bu il diplomatik əlaqələrin qurulmasının 30 illiyini qeyd edən Azərbaycan ilə Malta arasında dostluq münasibətlərinin inkişafı, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın genişləndirilməsi istiqamətində bundan sonra da birgə səylər göstərəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza daim əmin-amanlıq və rifah arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 sentyabr 2025-ci il**

## "Suverenliyin keşiyində: Konstitusiyada Prokurorluğun statusu" mövzusunda beynəlxalq konfransın iştirakçılarına

**Hörmətli tədbir iştirakçıları!**

Sizi "Suverenliyin keşiyində: Konstitusiyada Prokurorluğun statusu" mövzusunda keçirilən beynəlxalq konfransda səmimi-qəlbdən salamlayıram.

2025-ci il ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilmişdir. Bu, heç də təsadüfi deyildir. Belə ki, bu il biz Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsinin 30 illiyini və tarixi Zəfərimizin 5 illiyini qeyd edirik.

Ölkəmiz öz müstəqilliyini 1991-ci ildə bərpa etsə də, o dövrdə hökm sürən ictimai-siyasi vəziyyət, həmçinin Ermənistan Respublikasının hərbi təcavüzü səbəbindən milli Konstitusiyamızın qəbulu yalnız 1995-ci ildə mümkün olmuşdur. Müstəqilliyimizi qazanandan sonra 30 ilə yaxın bir dövrdə torpaqlarımızın əhəmiyyətli hissəsi Ermənistanın işğalı altında olmuşdur. Azərbaycan xalqının əzmkarlığı, silahlı qüvvələrimizin rəşadəti sayəsində 2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımız işğaldan azad edilmiş, 2023-cü ildə həyata keçirilmiş antiterror əməliyyatı nəticəsində Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam bərpa olunmuşdur. Bununla da Konstitusiyamızın hüquqi qüvvəsi ölkənin bütün ərazisinə şamil edilmişdir.

Tarixi zəfərimizdən dərhal sonra Qarabağ və Şərqi Zəngəzur bölgəsində geniş bərpa və quruculuq işlərinə başlanmış, minlərlə insan öz doğma yurdlarına qayıtmışdır. Baş vermiş bütün faciələrə baxmayaraq, Azərbaycan hər zaman sülh gündəliyinin tərəfdarı olmuş, bu istiqamətdəki səylərimiz cari ilin 8 avqust tarixində Vaşinqtonda sülh sazişinin paraflanması ilə nəticələnmişdir.

Hörmətli konfrans iştirakçıları,

Dost ölkələrin milli prokurorluq xidmətlərinin rəhbər şəxslərinin də daxil olduğu nümayəndə heyətlərinin bu tədbirə qatılması dövlətlərarası əməkdaşlığın inkişaf etdirilməsinə verdikləri önəmin təzahürüdür. Milli prokurorluq orqanları cinayətkarlığın bütün təzahürlərinə, o cümlədən dövlətin konstitusiya quruluşunun əsaslarına qəsd edən cinayətlərə qarşı mübarizənin ön sırasında dayanırlar. Bununla da onlar təkcə qanunçuluğun təmin edilməsi vəzifəsini yerinə yetirmir, eyni zamanda konstitusion nizamın və suverenliyin qorunmasına xidmət edirlər. Bu baxımdan prokurorluq orqanları da dövlət suverenliyinin keşikçiləri hesab olunurlar. Sizə bu şərəfli missiyada uğurlar arzu edirəm.

Əminəm ki, hazırkı tədbir prokurorluq fəaliyyəti ilə bağlı qabaqcıl təcrübələrin mübadiləsi, ümumi çağırışların müəyyən edilməsi və onların birgə həlli yollarının müzakirəsi, qarşılıqlı əməkdaşlığın gücləndirilməsi məqsədlərinə töhfə verəcəkdir.

Sizi Azərbaycanda bir daha salamlayır, konfransın işinə müvəffəqiyyətlər diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 sentyabr 2025-ci il**

# III Bakı Təhlükəsizlik Forumu keçirilib





**Sentyabrın 21-də Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) təşkilatçılığı və 90-a yaxın ölkənin xüsusi xidmət orqanlarının rəhbərlərinin və yüksəksəviyyəli nümayəndələrinin iştirakı ilə "Terror aktları və silahlı münaqişələr zamanı humanitar böhranların və qlobal texnogen fəlakətlərin qarşısının alınmasında təhlükəsizlik orqanlarının birgə fəaliyyəti" mövzusunda III Bakı Təhlükəsizlik Forumu təşkil olunub.**

DTX-nin mətbuat xidmətindən verilən məlumata görə, tədbir açıq elan edildikdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin forumun iştirakçılarına müraciəti oxunub, ardınca konfransın mövzusu ilə bağlı videomaterial nümayiş etdirilib.

Açılış nitqi ilə çıxış edən DTX-nin rəisi general-polkovnik Əli Nağıyev Prezident İlham Əliyevin təşəbbüsü ilə əsası qoyulan və ənənəvi olaraq hər il təşkil edilən forumun iştirakçılarını növbəti dəfə Bakı şəhərində salamlamaqdan məmnun olduğunu bildirib, dünyanın müxtəlif bölgələrindən olan ölkələrin təhlükəsizlik orqanlarını dəyirmi masa ətrafında birləşdirən və iştirakçı dövlətlərin sayının ildən-ilə artması ilə müşayiət olunan bu tədbirin beynəlxalq təhlükəsizlik məsələlərinin müzakirəsi, məlumat və qarşılıqlı fikir mübadilələrinin aparılması, qlobal təhlükəsizliyə yönələn müasir çağırışlarla mübarizədə səylərin birləşdirilməsi baxımından önəmli platformaya çevrildiyini vurğulayıb, forumun keçirilməsində göstərdiyi hərtərəfli dəstəyə görə Prezident İlham Əliyevə dərin təşəkkürünü ifadə edib.

Xidmət rəisi beynəlxalq təhlükəsizlik sisteminə təhdidlər sırasında yer alan terror hücumlarının, silahlı münaqişələrin, texnogen qəzaların və ekoloji fəlakətlərin qarşısının alınmasında xüsusi xidmət orqanlarının vacib rol oynadığını, sadalanan mənfi təzahürlərin nəticəsində yaranan humanitar böhranlar zamanı kompleks yanaşmanın sərgilənməsinin, ölkələrin təhlükəsizlik qurumlarının və aidiyyəti təsisatlarının koordinasiyalı fəaliyyət göstərməsinin zəruriliyini diqqətə çatdırıb.

Daha sonra tədbir müvafiq ölkələrin xüsusi xidmət orqanlarının nümayəndələrinin çıxışları ilə davam edib, budəfəki Bakı Təhlükəsizlik Forumunun da beynəlxalq və regional təhlükəsizliyin təminatı üçün birgə səylərin səfərbər olunmasına, xüsusi xidmət orqanları arasında əməliyyat diplomatiyasının, qarşılıqlı fəaliyyətin, ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişafına mühüm töhfələr verəcəyinə əminlik ifadə olunub.

Tədbir nümayəndə heyətlərinin rəhbərləri tərəfindən Bakı Təhlükəsizlik Forumunun Bəyannaməsi və Əsasnaməsinin qəbul edilməsi ilə başa çatıb.

***XQ***

## "Terrorçu hücumlar və silahlı münaqişələr zamanı humanitar böhranların və qlobal xarakterli texnogen fəlakətlərin qarşısının alınmasında təhlükəsizlik orqanlarının qarşılıqlı fəaliyyəti" mövzusunda beynəlxalq konfransın iştirakçılarına

**Hörmətli konfrans iştirakçıları!**

Sizi Bakı Təhlükəsizlik Forumunun üçüncü iclasının açılışı münasibətilə təbrik edir və hər birinizi səmimi-qəlbdən salamlayıram.

Qlobal arenada kəskinləşən geosiyasi ziddiyyətlər fonunda beynəlxalq təhlükəsizlik sisteminin qorunub saxlanılmasında vacib rolu olan təhlükəsizlik və kəşfiyyat qurumlarını bir araya gətirən Bakı Təhlükəsizlik Forumunun davam etdirilməsi mühüm əhəmiyyət kəsb edir.

Bakı Təhlükəsizlik Forumu qlobal və regional təhdid və risklərin müəyyənləşdirilməsi, onların neytrallaşdırılması yollarının araşdırılması baxımından unikal formata malik beynəlxalq tədbirdir. Dünyanın bütün qitələrindən müxtəlif ölkələri təmsil edən çoxsaylı xüsusi xidmət orqanı rəhbərlərinin və təhlükəsizlik məsələləri üzrə ekspertlərin ümumi təhdidlərlə mübarizə məqsədilə hər il Bakıda toplaşması Forumun qarşılıqlı etimad və əməkdaşlıq məkanı olmasının bariz nümunəsidir. Foruma olan marağın ildən-ilə artması müzakirəyə çıxarılan mövzuların vacibliyini əyani şəkildə əks etdirir.

Dünya sürətlə dəyişir və hər gün yeni çağırışlar, yeni təhdidlər özünü büruzə verir. Müxtəlif bölgələrdə silahlı toqquşmaların baş verməsi humanitar böhranlara, texnogen qəzalara, ekoloji fəlakətlərə zəmin yaradır. Eyni zamanda, beynəlxalq müstəvidə münaqişələrin alovlanması, terrorçu təşkilatların yenidən fəallaşması, eləcə də kibertəhdidlərin artması müşahidə olunur. Bütün bunlar dövlətləri qlobal xarakter daşıyan təhdidlərlə üz-üzə qoyur. Bu kontekstdə dini ekstremizm, separatçılıq, transmilli mütəşəkkil cinayətkarlıq, narkotik vasitələrin qanunsuz dövriyyəsi, qeyri-qanuni miqrasiya və silah qaçaqmalçılığı kimi hüquqazidd əməllərin beynəlxalq təhlükəsizlik sistemini sarsıtması ciddi narahatlıq doğurur. Şübhəsiz, müasir dövrün bu cür problemlərinin həlli yeni yanaşmaların, yeni vasitələrin tətbiqini, ən əsası isə ölkələrin birgə səylərini və sıx əməkdaşlığını tələb edir. Bu baxımdan Bakı Təhlükəsizlik Forumunun qlobal və regional təhlükəsizliyin ən aktual məsələləri barədə açıq və konstruktiv fikir mübadiləsinin aparılması üçün faydalı platformaya çevrilməsini görməkdən məmnunluq duyuruq.

Azərbaycan Respublikası müstəqillik qazandığı ilk gündən etibarən bütün sahələrdə beynəlxalq əməkdaşlığın gücləndirilməsini daim dəstəkləyib. Biz inanırıq ki, sabitliyə və firavanlığa yalnız dialoq və tərəfdaşlıq yolu ilə nail olmaq mümkündür. Azərbaycan yerləşdiyi bölgədə – Cənubi Qafqazda sülh və sabitliyin təmin edilməsi üçün konstruktiv addımlar atır. Qarşıya qoyduğumuz əsas hədəflərdən biri regionda qarşılıqlı inama, təhlükəsizliyə və praqmatizmə əsaslanan yeni əməkdaşlıq formatının qurulmasıdır. Hesab edirik ki, bu istiqamətdə yürüdülən məqsədyönlü fəaliyyət gələcəkdə qonşu ölkələr arasında tərəfdaşlığın daha da möhkəmlənməsinə təkan verəcəkdir.

Bildiyiniz kimi, 2025-ci ilin avqust ayının 8-də Vaşinqtonda ABŞ-ın şahidliyi ilə Azərbaycan ilə Ermənistan arasında Birgə Bəyannamə imzalanmışdır. Beləliklə, ölkələrimiz arasında uzun müddət davam edən münaqişəyə son qoyulması və sülh sazişinin imzalanması istiqamətində mühüm tarixi addım atılmışdır. Cənubi Qafqazda əmin-amanlığın tam təmin olunması təkcə bizim region üçün deyil, eləcə də Mərkəzi Asiya, Yaxın Şərq və Avropa üçün yeni əməkdaşlıq imkanları yaradacaqdır.

Beynəlxalq təhlükəsizlik problemlərinin qarşısının alınmasında və həllində xüsusi xidmət orqanlarının birgə fəaliyyət göstərməsi həlledici rola malikdir. Əminəm ki, bugünkü müzakirələr səmərəli olacaq və konfransda səsləndiriləcək təhlillər və tövsiyələr daha təhlükəsiz bir gələcəyin formalaşmasına əhəmiyyətli töhfələr verəcəkdir.

Keçən il Bakı Təhlükəsizlik Forumunun ənənəvi olaraq hər il təşkil edilməsi və davamlı fəaliyyət göstərməsi ilə bağlı Azərbaycan tərəfindən irəli sürülmüş təklif iştirakçı ölkələr tərəfindən fəal şəkildə dəstəklənmişdir. Bununla əlaqədar olaraq ötən müddət ərzində Bakı Təhlükəsizlik Forumunun Təşkilat Komitəsinin və onun Katibliyinin təsis edilməsi üçün müvafiq tədbirlər görülmüşdür. Hazırkı iclasda əldə olunmuş ümumi razılıq əsasında Bakı Təhlükəsizlik Forumunun Bəyannaməsinin və ondan irəli gələn təşəbbüslərin qəbul olunması nəzərdə tutulur. Bütün bunlar Forumun təsisatlanması istiqamətində atılmış mühüm addımlardır. Azərbaycan Təşkilat Komitəsinin işinin koordinasiyası funksiyasını öz üzərinə götürərək Bakı Təhlükəsizlik Forumuna öz dəstəyini verməyə davam edəcəkdir.

Hər birinizi bir daha ürəkdən salamlayır və konfransın işinə uğurlar arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 21 sentyabr 2025-ci il**

## Birinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumunun iştirakçılarına

**Hörmətli Forum iştirakçıları!**

Sizi Birinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumunda səmimi-qəlbdən salamlayıram.

Azərbaycanda ilk dəfə keçirilən bu Forumun qarşılıqlı faydalı əməkdaşlığın dərinləşdirilməsi, yeni tərəfdaşlıq əlaqələrinin qurulması, qabaqcıl ideyaların və layihələrin müzakirəsi, ölkəyə yeni investisiyaların cəlb olunması üçün mühüm platforma olacağına inamımı ifadə edirəm.

Müstəqilliyi qazandıqdan etibarən Azərbaycan xarici investorlarla əməkdaşlığa xüsusi önəm vermiş, dünyanın aparıcı şirkətləri ilə birlikdə həm ölkəmiz, həm də region üçün mühüm əhəmiyyət kəsb edən layihələrə imza atmışdır.

Azərbaycanda həyata keçirilmiş sosial-iqtisadi islahatlar və qlobal iqtisadiyyata inteqrasiya aparıcı beynəlxalq şirkətlər üçün ölkəmizdə geniş və əlverişli imkanlar yaratmışdır. Məhz bu səbəbdən 2004-2024-cü illər ərzində iqtisadiyyatımıza 344,4 milyard ABŞ dolları həcmində sərmayə qoyulmuş, bunun əhəmiyyətli hissəsi və ya 213,2 milyard ABŞ dolları qeyri-neft sektorunun inkişafına yönəlmişdir. Bu, xarici investorların Azərbaycana olan etimadı, ölkəmizdə hökm sürən təhlükəsizlik və sabitlik mühitinin bariz göstəricisidir.

Hazırda Azərbaycanda minlərlə xarici kapitallı şirkət fəaliyyət göstərir. Bu, ölkəmizdə müasir korporativ idarəetməyə əsaslanan, rəqabətli və dayanıqlı iqtisadiyyatın formalaşmasına mühüm töhfədir. Əldə etdiyimiz etimad sayəsində əksər xarici şirkətlər bu gün də mənfəətlərini ölkə iqtisadiyyatına təkrar investisiya etməyi seçirlər.

Azərbaycan iqtisadiyyatı güclü və fundamental baza üzərində qurulmuşdur. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə imzalanmış "Əsrin Müqaviləsi" qlobal miqyasda nümunəvi əməkdaşlıq modeli kimi tarixə düşmüş, sonrakı illərdə Asiyadan Avropaya qədər uzanan iri transmilli layihələr və logistika şəbəkələrinin inkişafı üçün möhkəm zəmin yaratmışdır.

Ölkəmizin ərazi bütövlüyü təmin olunandan sonra Azərbaycanın səyləri ilə regionda uzunmüddətli sülh, sabitlik və dayanıqlı inkişafın əsası qoyuldu. Hazırda Azərbaycan xarici siyasətində artıq iqtisadi diplomatiyaya üstünlük verərək diqqətini yeni əməkdaşlıq əlaqələrinin qurulmasına, qeyri-neft sahələrinin, xüsusilə də ölkənin turizm potensialının daha da güclənməsinə istiqamətləndirir.

Bu gün Azərbaycanda iqtisadi artım uzunmüddətli sabit trendə çevrilmişdir. 2021-2024-cü illərdə qeyri-neft sektoru hər il orta hesabla 6,7% artmış və onun ümumi iqtisadiyyatda payı 68%-ə yüksəlmişdir. Qeyri-neft ixracı son altı ildə demək olar ki, iki dəfə artmışdır. Bu da ölkəmizin rəqabət qabiliyyətinin yüksəlməsinin əyani göstəricisidir.

Bütün bu nailiyyətlər ölkədə müasir istehsal infrastrukturunun qurulması ilə dəstəklənmişdir: hazırda bizdə 9 sənaye parkı və 4 sənaye məhəlləsi fəaliyyət göstərir. Burada 171 müəssisə qeydiyyata alınmış, onların 98-i artıq istehsal fəaliyyətinə başlamışdır. Sənaye zonalarına 6,9 milyard manatdan çox investisiya yatırılmış, burada 11 minə yaxın daimi iş yeri yaradılmışdır.

Qabaqcıl ideyaların tətbiqi, dövlət-özəl tərəfdaşlıq mexanizmləri və həyata keçirilən islahatlar nəticəsində özəl sektorun iqtisadiyyatda payı 81,4% səviyyəsində qorunmuşdur. İqtisadiyyatın davamlı inkişafı əhalinin rifahını yüksəltmiş və ölkənin maliyyə gücünü artırmışdır. 2025-ci ildə 2017-ci ilə nəzərən dövlət büdcəsinin gəlirləri 2,4 dəfə, strateji valyuta ehtiyatları 1,9 dəfə artmış, dövlətin xarici borcunun ümumi daxili məhsula nisbəti isə 6,5%-ə düşərək dünya üzrə ən aşağı göstəricilərdən birinə çevrilmişdir.

Azərbaycanın əlverişli coğrafi mövqeyi ölkəmizi regional iqtisadi siyasətin strateji mərkəzinə çevirir. Orta Dəhliz üzrə tranzit yük daşımalarının həcmi ildən-ilə artır. Gələcək illərdə, xüsusilə də Zəngəzur koridorunun işə düşməsi ilə bu göstəricinin daha da artması gözlənilir. Ölkədə yaradılmış müasir infrastruktur, o cümlədən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Ələt Azad İqtisadi Zonası və müasir dəmir yolu infrastrukturu sərmayədarlara qlobal bazarlara birbaşa çıxış və yüksək tranzit səmərəliliyi təklif edir. Eyni zamanda xüsusi iqtisadi zonalar, müasir nəqliyyat və rəqəmsal infrastruktur istehsal, logistika, bərpaolunan enerji, rəqəmsal xidmətlər və yüksək dəyərli kənd təsərrüfatı üçün hazır platformalar təqdim edir.

Enerji siyasətimiz Azərbaycanın beynəlxalq iqtisadi mövqeyinin güclənməsində mühüm rol oynayır. Azərbaycan hazırda bir sıra dövlətlərin həm ənənəvi, həm də bərpaolunan enerji sahəsində strateji tərəfdaşıdır. Təbii qazla yanaşı, günəş və külək enerjisi layihələri, Qarabağ və Şərqi Zəngəzurun yaşıl enerji zonası, eləcə də "ağıllı infrastruktur" konsepsiyalarının tətbiqi ölkəmizi qlobal enerji keçidinin aparıcı iştirakçılarından birinə çevirir. Beləliklə, Azərbaycan həm bu günün enerji təhlükəsizliyini möhkəmləndirir, həm də sabahın yaşıl iqtisadiyyatını qurur.

Ölkədə qanunun aliliyinin təminatı, hökm sürən siyasi sabitlik və sərmayələrin qorunması iqtisadi siyasətimiz üçün fundamental amil rolunu oynayır və investorlar üçün uzunmüddətli etimad mühiti yaradır. Yaradılmış infrastruktur və hüquqi təminatlar əsasında Azərbaycan biznes layihələrini dəstəkləməyə, texnologiya, investisiya və təcrübə gətirən tərəfdaşlıqları irəli aparmağa tam hazırdır. Eyni zamanda dövlət-özəl tərəfdaşlıq mexanizmləri sərmayədarlara dayanıqlı layihələrə qoşulmaq imkanı verir.

Ənənəvi enerji sahəsindəki uğurlarımız bu gün rəqəmsal iqtisadiyyat və texnoloji transformasiya ilə tamamlanır. Bulud texnologiyalarının genişləndirilməsi, rəqəmsal məlumat infrastrukturunun inkişafı və innovativ həllərin iqtisadiyyatın əsas sahələrinə inteqrasiyası Azərbaycanın gələcəkdə yüksək texnologiyalar və süni intellekt sahəsində strateji mərkəz rolunu oynamaq üçün mövqelərini daha da möhkəmləndirir.

Azərbaycan yaradıcı təşəbbüsləri, iş adamlarına daha mənfəətli fəaliyyət imkanları təqdim edən layihələri daim dəstəkləyir. Hesab edirəm ki, Azərbaycanın təqdim etdiyi üstünlüklərdən faydalanmaqla tərəfdaşlarımız ölkəmizin dayanıqlı inkişafına, texnoloji tərəqqisinə və bütövlükdə regionun firavanlığına mühüm töhfələr verə bilər.

Bu gün keçirilən Birinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu əməkdaşlıq və sərmayə cəlbinin yeni mərhələsi üçün başlanğıcdır. Bizim əsas məqsədimiz innovativ biznes ideyalarının reallaşdırılması və əlverişli işgüzar imkanların genişləndirilməsidir. Mən hamınızı kapital, texnologiya və ideyalarınızı Azərbaycana gətirməyə dəvət edirəm.

Əminəm ki, sizin ideya və təşəbbüslərinizin Azərbaycanda real layihələrdə əksini tapması uğurlu əməkdaşlığa və ümumi rifaha möhkəm zəmin yaradacaqdır.

Forumun işinə uğurlar, bütün iştirakçılara isə yeni səmərəli tərəfdaşlıqlar arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 sentyabr 2025-ci il**

# Bakı Təhlükəsizlik Forumu: Qlobal sabitliyə töhfəmiz




**Müasir dövrdə beynəlxalq təhlükəsizlik mühitində yaranan təhdidlər və çağırışlar getdikcə daha mürəkkəb xarakter alır. Dünyanın müxtəlif bölgələrində baş verən silahlı münaqişələr, terror hücumları, eləcə də texnogen fəlakətlər təkcə bir ölkəni deyil, bütövlükdə regionları təhdid edir, hətta qlobal miqyasda sabitliyin pozulmasına səbəb olur. Belə şəraitdə dövlətlərin və beynəlxalq təşkilatların qarşılıqlı əməkdaşlığı xüsusi əhəmiyyət kəsb edir. Bu əməkdaşlıq həm humanitar böhranların dərinləşməsinin qarşısının alınması, həm də insanların təhlükəsiz həyat şəraitinin təmin olunması baxımından zərurətə çevrilib.**

Qlobal miqyasda baş verən hadisələr göstərir ki, ayrı-ayrı ölkələrin təkbaşına atdığı addımlar çox vaxt yetərli olmur, ona görə də birgə koordinasiya, təcrübə mübadiləsi və qurumlararası əməkdaşlıq mütləqdir. Bu baxımdan Bakıda keçirilən "Terrorçu hücumlar və silahlı münaqişələr zamanı humanitar böhranların və qlobal xarakterli texnogen fəlakətlərin qarşısının alınmasında təhlükəsizlik orqanlarının qarşılıqlı fəaliyyəti" mövzusunda beynəlxalq konfrans da aktual mövzuların müzakirəsinə, yeni yanaşmaların formalaşdırılmasına və gələcək əməkdaşlıq imkanlarının genişləndirilməsinə xidmət edir.

Prezident İlham Əliyev beynəlxalq konfrans iştirakçılarına müraciətində bildirib ki, Bakı Təhlükəsizlik Forumu qlobal və regional təhdid və risklərin müəyyənləşdirilməsi, onların neytrallaşdırılması yollarının araşdırılması baxımından unikal formata malik beynəlxalq tədbirdir. Dövlətimizin başçısı qeyd edib ki, dünyanın bütün qitələrindən müxtəlif ölkələri təmsil edən çoxsaylı xüsusi xidmət orqanı rəhbərlərinin və təhlükəsizlik məsələləri üzrə ekspertlərin ümumi təhdidlərlə mübarizə məqsədilə hər il Bakıda toplaşması forumun qarşılıqlı etimad və əməkdaşlıq məkanı olmasının bariz nümunəsidir. Foruma olan marağın ildən-ilə artması müzakirəyə çıxarılan mövzuların vacibliyini əyani şəkildə əks etdirir.

Əlbəttə, Prezident İlham Əliyevin səsləndirdiyi fikirlər müasir dövrdə təhlükəsizlik sahəsində əməkdaşlığın nə qədər zəruri olduğunu bir daha ortaya qoyur. Bakı Təhlükəsizlik Forumu artıq regional sərhədləri aşaraq, qlobal miqyasda müzakirələrin aparıldığı mühüm platformaya çevrilib. Dövlətimizin başçısının vurğuladığı kimi, dünyanın bütün qitələrindən xüsusi xidmət orqanlarının rəhbərlərinin və ekspertlərin hər il Bakıda bir araya gəlməsi təsadüfi deyil. Bu, Azərbaycanın artan beynəlxalq nüfuzunun və paytaxt Bakının mühüm təhlükəsizlik dialoqunun mərkəzinə çevrilməsinin təzahürüdür.

Forumun unikal formatı ilk növbədə onun praktiki yönümlü olması ilə bağlıdır. Burada mücərrəd nəzəri müzakirələrdən daha çox konkret təhdidlərin mahiyyəti, onların aradan qaldırılması yolları və gələcək əməkdaşlıq istiqamətləri ətrafında fikir mübadiləsi aparılır. Məsələn, terrorçuluq, transmilli cinayətkarlıq, kiberhücumlar, silahlı münaqişələrin yaratdığı humanitar böhranlar kimi mövzular dünyanın istənilən ölkəsinə təsir göstərə biləcək çağırışlardır. Belə mürəkkəb problemlərin həlli isə təkcə milli səviyyədə deyil, həm də beynəlxalq miqyasda koordinasiya tələb edir. Bakı Təhlükəsizlik Forumu məhz bu məqsədin reallaşmasına xidmət edir.

Prezident İlham Əliyevin müraciətində diqqət çəkən əsas məqam etimad və əməkdaşlıq mühitinin formalaşdırılmasıdır. Müxtəlif maraqlara malik ölkələrin xüsusi xidmət orqanlarının eyni masa arxasında toplaşaraq ortaq hədəfləri müzakirə etməsi, şübhəsiz ki, çox çətin prosesdir. Lakin Azərbaycanın təşəbbüsü ilə keçirilən bu Forum həmin çətinliyi aradan qaldıran, müxtəlif mövqeləri birləşdirən mühüm platforma rolunu oynayır. Təsadüfi deyil ki, tədbirə maraq ildən-ilə artır. Bu artım təkcə forumun təşkilati uğurları ilə deyil, həm də gündəmə gətirilən məsələlərin aktuallığı ilə izah olunur.

Qeyd etmək lazımdır ki, bu gün təhlükəsizlik anlayışı yalnız sərhədlərin qorunması ilə məhdudlaşmır. İnformasiya müharibəsi, enerji təhlükəsizliyi, iqlim dəyişikliyinin yaratdığı fəsadlar, kütləvi miqrasiya dalğaları kimi faktorlar da qlobal sabitliyi ciddi şəkildə təhdid edir. Bakı Təhlükəsizlik Forumunun digər oxşar beynəlxalq platformalardan fərqi ondan ibarətdir ki, burada məsələlər yalnız bir regionun çərçivəsində deyil, ümumbəşəri kontekstdə müzakirə olunur. Prezidentin müraciətində əksini tapan "unikal format" ifadəsi də məhz bu yanaşmanı ifadə edir.

Azərbaycanın bu prosesdə rolu ayrıca diqqətə layiqdir. Ölkəmizin yerləşdiyi geosiyasi məkan həm Şərq–Qərb, həm də Şimal–Cənub istiqamətlərində mühüm strateji mövqeyə malikdir. Bu mövqedə yerləşən dövlətin təhlükəsizliklə bağlı təşəbbüslər irəli sürməsi və onları beynəlxalq əməkdaşlıq platformasına çevirməsi təbii qarşılanır. Lakin məsələ yalnız coğrafi mövqe ilə məhdudlaşmır. Azərbaycanın son illər həyata keçirdiyi müstəqil siyasət, müharibədən sonrakı reallıqların formalaşdırılmasında oynadığı rol, həmçinin beynəlxalq münasibətlərdə etibarlı tərəfdaş imici Bakının belə bir forumun ev sahibi olmasını əsaslandırır. Forum həm də bir mesaj daşıyır. Bu da ondan ibarətdir ki, qlobal çağırışların öhdəsindən gəlmək üçün müttəfiqlik və əməkdaşlıqdan başqa yol yoxdur. Hər bir dövlət özünəməxsus təcrübəsini, mövqeyini və imkanlarını ortaya qoyur, lakin yalnız birgə səylər nəticəsində real nəticə əldə etmək mümkündür. Forumun davamlı xarakter alması və artıq beynəlxalq ictimaiyyətin gündəmində möhkəm yer tutması da bu həqiqəti sübut edir.

Mövzu ilə bağlı XQ-yə şərh verən **politoloq İlyas Hüseynov** bildirdi ki, Azərbaycan özünün ərazi bütövlüyünü və suverenliyini tam təmin etdikdən sonra daha çox sayda beynəlxalq miqyaslı müxtəlif konfranslara, forum və görüşlərə, həmçinin zirvə toplantılarına evsahibliyi edir. Sanki bu istiqamətdə yeni bir mərhələ başlayıb. Onun sözlərinə görə, ayrı-ayrı mövzuları əhatə edən platformalar təşkil olunur: "O cümlədən təhlükəsizlik sahəsində haqqında danışılan Bakı Təhlükəsizlik Forumuna çoxsaylı qonaqlar qatılır. Şübhəsiz ki, bizim yerləşdiyimiz coğrafiyanın həssas olması, geostrateji bölgədə yerləşməyimiz



bu sahədə bir sıra mühüm müzakirələri formalaşdırır. Məlumdur ki, regional və qlobal təhdidlər bizim ölkəmizə qarşı da yönəlib. Azərbaycan 30 ilə yaxın davam edən işğal dövründə, postmüharibə reallıqlarında, Zəfər tariximizin 5 ilində bir sıra ciddi maneələri, böyük əngəlləri aşmış və bu təhdidlər həm siyasi-diplomatik sahədə, həm də informativ-hibrid sahədə özünü göstərib".

Politoloq qeyd etdi ki, bu gün xüsusi xidmət orqanları qarşısında dayanan əsas vəzifə dövlətin və xalqın təhlükəsizliyinin etibarlı təmin olunması ilə yanaşı, yeni yaranan müxtəlif çağırışlara, təhdidlərə tutarlı cavab verməkdən ibarətdir: "Məlumdur ki, müxtəlif təhlükələr mövcuddur. Texnologiyanın, süni intellektin inkişafı ilə bu təhlükələr yeni formada təzahür edir. Məhz Bakıda bu sahədə tanınmış ekspertlərin və təhlilçilərin, eyni zamanda, dövlət və hökumət nümayəndələrinin iştirakı ilə müzakirələrin keçirilməsi çox mühüm nəticələrlə yadda qalacaq. Çünki bu gün dünyada ən çox defisit olan müzakirə və dialoqdur. Dialoqun çatışmazlığı hər zaman gərginliyə, qarşıdurmaya, son nəticədə isə eskalasiya və müharibəyə gətirib çıxarır. Hesab edirəm ki, Azərbaycanın uzun illərdən bəri "yumşaq güc" sahəsində əldə etdiyi uğurlardan biri də məhz beynəlxalq forum və konfransların keçirilməsi sahəsində qazandığı nailiyyətdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə "yumşaq güc" sahəsi inamla inkişaf etdirilir. Çox yaxşı haldır ki, artıq xüsusi xidmət orqanları və güc strukturları, eləcə də məhz dövlətin təhlükəsizliyinin keşiyində dayanan orqanların bilavasitə iştirakı ilə ölkəmiz bu cür mühüm toplantılara ev sahibliyi edir. Düşünürəm ki, bunun yaxşı nəticələri olacaq. Azərbaycan müxtəlif sahələr üzrə dialoq və müzakirə platforması kimi təhlükəsizlik sahəsi üzrə də qabaqcıl, prioritet məkan formalaşdıracaq".

*Səxavət HƏMİD*
*XQ*

---

**2020-ci il İkinci Qarabağ müharibəsində əldə olunmuş qələbədən sonra imzalanmış üçtərəfli Bəyanat regionun siyasi xəritəsində yeni səhifə açdı və uzun müddət qapalı qalmış kommunikasiya arteriyalarının bərpasını strateji zərurətə çevirdi. Bu tarixi transformasiyanın mərkəzi sütunu Azərbaycanı Naxçıvanla birləşdirən, milli təhlükəsizlik arxitekturasını möhkəmləndirən, geoiqtisadi oyun qaydalarını yenidən yazan və Bakı–Ankara tandemini Avrasiyada əsas tranzit gücə çevirən strateji layihə – Zəngəzur dəhlizi (TRIPP) oldu. Türkiyənin "Daily Sabah" nəşri TRIPP-in regiona gətirəcəyi imkanları təhlil edib.**

# Regiondan qlobal aləmə çıxış

## *Cənubi Qafqazda yeni təhlükəsizlik arxitekturası Zəngəzur dəhlizindən keçir*

Nəşr qeyd edir ki, 2025-ci il Zəngəzur dəhlizi layihəsi üçün dönüş nöqtəsi kimi tarixə düşdü. Avqustun 8-də ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə imzalanmış "Beynəlxalq Sülh və Rifah üçün Tramp Marşrutu" (TRIPP) sazişi regionun geosiyasi gündəliyində prioritet statusu qazanan strateji platformaya çevrildi. Sənəd Bakı və İrəvan arasında illərlə donmuş dialoqu canlandıraraq sülh prosesinə konkret və ölçülə bilən dinamika gətirdi, tərəflər arasında qarşılıqlı etimadın formalaşmasına zəmin yaratdı. ABŞ-ın layihədə iştirakı təkcə vasitəçilik funksiyası ilə məhdudlaşmayıb, Cənubi Qafqazda yeni təhlükəsizlik arxitekturasının əsas sütunlarından birinə çevrilmiş Qərbin və Türk dünyasının geosiyasi və iqtisadi maraqlarını effektiv şəkildə uzlaşdıran strateji mexanizm rolunu oynayıb. TRIPP layihəsi nəticəsində dəhliz regional sülh, enerji təhlükəsizliyi və tranzit əməkdaşlığının inteqrasiya mərkəzi kimi beynəlxalq nüfuzunu möhkəmləndirdi.

Ankara üçün Zəngəzur dəhlizi (TRIPP) "Bir millət, iki dövlət" konsepsiyasının geosiyasi və strateji reallaşmasıdır. Türkiyə bu dəhliz vasitəsilə Orta dəhliz boyunca Avrasiyada logistika və tranzit infrastrukturunda mərkəzi rolunu möhkəmləndirməyi, Çin ilə Avropa bazarlarını birləşdirən əsas iqtisadi arteriyaya çevrilməyi hədəfləyir. Zəngəzur dəhlizi (TRIPP) bu vizyonun aparıcı sütunu, Ankara–Bakı tandeminin strateji müttəfiqliyini dərinləşdirən və Türk dünyasının inteqrasiyasını region səviyyəsində konkret həyata keçirən vasitədir. Prezident İlham Əliyev də bu amili dəfələrlə vurğulayıb: "Zəngilan Şərqi Zəngəzur bölgəsində yerləşir və buradan keçən Zəngəzur dəhlizi bütün Türk dünyasını birləşdirəcək. Həm Azərbaycan, həm Türkiyə Zəngəzur dəhlizinin gerçəkləşməsi üçün əməli addımlar atır. Əminəm ki, bu addımlar yaxın gələcəkdə öz bəhrəsini verəcəkdir".

Layihə həm də Türkiyənin Avrasiyada enerji və nəqliyyat mərkəzi kimi nüfuzunu gücləndirir, ölkənin regional liderlik ambisiyalarını real və ölçülə bilən siyasi və iqtisadi üstünlüklərlə tamamlayır. Türkiyə Nəqliyyat Nazirliyi proqnozlaşdırır ki, TRIPP-in istifadəyə verilməsi ölkəyə 30 ildə 3,57 milyard ABŞ dolları həcmində gəlir gətirəcək, illik yük dövriyyəsi isə 15 milyon tona yüksələcək. Bu göstəricilər təkcə həm də regionun qlobal logistika xəritəsində çəkisini artırır.

Azərbaycan Horadiz–Ağbənd dəmir yolu və avtomobil yolu layihələri ilə marşrutun texniki əsasını artıq qurub. Türkiyə Qars–İğdır–Aralıq–Dilucu dəmir yolunun tikintisini sürətləndirir. Bu infrastruktur sayəsində Naxçıvanın iqtisadi blokadası tamamilə aradan qalxacaq, Sünik bölgəsi və Ermənistan beynəlxalq ticarət şəbəkəsinə qoşulmaq imkanı əldə edəcək. Qazaxıstan və Gürcüstanda logistika qovşaqlarının yaradılması isə yükdaşımaların daha səmərəli idarə olunmasına imkan verəcək.




Zəngəzur dəhlizi (TRIPP) Ermənistan üçün də tarixi imkan yaradır. Bu məsələ "Daily Sabah" nəşrində öz əksini taıb. Nəşrə görə, ölkə illərlə kənarda qaldığı beynəlxalq ticarət şəbəkələrinə qoşula bilər. Lakin daxildəki siyasi qeyri-sabitlik və İranın etirazları layihənin reallaşmasına risk yaradır. Tehran dəhlizin Ermənistan–İran sərhədinə təsirindən narahat olsa da, bəzi yerli ekspertlər onun iqtisadi faydalarının İrana da sirayət edə biləcəyini qəbul edirlər. Ankara və Bakı dialoq vasitəsilə bu maneələri yumşaltmağa çalışır. Baxmayaraq ki, İran Prezidenti Məsud Pezeşkian "Tramp yolu" ilə bağlı açıqlamasında bildirib ki, Zəngəzur dəhlizi məsələsində İran İslam Respublikasının tələbləri nəzərə alınıb, məsələ xəbərlərdə şişirdildiyi qədər böyük deyil. Pezeşkian vurğulayıb ki, layihə ərazi bütövlüyü prinsipi, əlaqələrin qurulması, Avropa və Şimala gedən yolun açıq qalması və dövlətin mövqeyinə uyğun şəkildə formalaşdırılıb. Lakin ötən günlərdə Ermənistandakı səfir vəzifəsini başa vuran Mehdi Sobhani və onunla eyni qəbildən düşünənlər bu dəhlizin Tehrana ziyan vuracağını düşünür. İstənilən halda Azərbaycan avqustun 8-də razıaşdırılmış TRIPP-i reallaşdıracaq.

Zəngəzur dəhlizi (TRIPP) yalnız iqtisadi və nəqliyyat layihəsi kimi dəyərləndirilə bilməz. O, həm də regionda sülh və etimad təşəbbüsünün konkret simvoluna çevrilib. Layihə Bakı və İrəvan arasında illərlə donmuş münasibətləri yumşaldaraq qarşılıqlı etimadın formalaşmasına şərait yaradır və işğaldan azad edilmiş ərazilərdə – xüsusilə Zəngilan və Cəbrayılda – sosial-iqtisadi canlanmanı sürətləndirir, yerli infrastrukturun və investisiya imkanlarının açılmasına yol açır. ABŞ-ın vasitəçiliyi və Türkiyənin strateji dəstəyi sayəsində Zəngəzur dəhlizi (TRIPP) Cənubi Qafqazda yeni təhlükəsizlik arxitekturasının aparıcı sütununa çevrilir, həm regional stabilliyi təmin edir, həm də Azərbaycan-Türkiyə tandeminin liderliyini möhkəmləndirir.

Nəticə etibarilə, Zəngəzur dəhlizi (TRIPP) XXI əsrin ən strateji layihələrindən biridir. O, Azərbaycanın müstəqil xarici siyasət kursunun məntiqi nəticəsi, Türkiyənin Avrasiyada mərkəzi oyunçu olmaq vizyonunun mühüm aləti və ABŞ-ın Cənubi Qafqazda sabitlik təşəbbüslərinin əsas elementi kimi formalaşır. Layihə həm iqtisadi, həm siyasi, həm də humanitar baxımdan regionun gələcəyini müəyyənləşdirən əsas faktora çevrilir.

*Tacir SADIQOV*
*XQ*

### Ekspert rəyi



**Fərhad MƏMMƏDOV,**
**Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin direktoru**

TRIPP layihəsi prinsip etibarilə Azərbaycan və Ermənistan rəhbərliyi tərəfindən razılaşdırılmış yeganə təşəbbüsdür. Son dörd il ərzində nəqliyyat sahəsində hər iki hökumətin ortaq şəkildə razılıq verdiyi yeganə layihə olması onun xüsusi əhəmiyyət kəsb etdiyini göstərir. Bu fakt onu da təsdiqləyir ki, son illər iki ölkə arasında hər hansı mövzuda razılıq əldə olunursa, həmin istiqamətdə real irəliləyişlər müşahidə edilir.

Layihə üzərində işlər sürətlə aparılır. Sərhəd məsələləri ilə məşğul olan hökumətlərarası komissiyanın son iclasını məhz Arazboyu ərazilərdə keçirməsi də göstərir ki, həm nəqliyyat, həm də sərhədlərin müəyyənləşdirilməsi mövzuları paralel şəkildə ciddi müzakirə edilir. Nəqliyyat infrastrukturunun yaradılması isə böyük maliyyə resursları tələb edir. Bu baxımdan ABŞ nümayəndə heyətlərinin həm Azərbaycana, həm də Ermənistana səfərləri diqqət çəkir. ABŞ Dövlət Departamentinin rəsmisi Ermənistan ərazisində TRIPP layihəsinin icrası üçün 130 milyon dollardan artıq yardımın ayrılacağını bəyan edib.

Beləliklə, layihənin həyata keçirilməsi üçün yalnız siyasi razılaşmalar deyil, həm də maliyyə dəstəyi təmin olunur. Bu isə təşəbbüsün regionda nəqliyyat əlaqələrinin bərpası və iqtisadi əməkdaşlığın dərinləşməsi baxımından mühüm perspektivlər açdığını göstərir.

# Cənab Kasparov, gedin, şahmatınızı oynayın!

## *Bakı gecikmiş göz yaşlarına inanmır*

**Ötən həftə şahmat üzrə Dünya çempionu, tanınmış ictimai-siyasi xadim Harri Kasparov ukraynalı jurnalist Dmitri Qordona müsahibə verdi. Bakıda doğulmuş erməni mənşəli Kasparov bir çox məsələlərdən danışdı. Onun üzərində dayandığı başlıca məsələ isə Azərbaycan və Ermənistan arasında paraflanmış sülh sazişi, ümumən, barış mühitinin yaradılması ilə bağlı oldu.**

1963-cü il təvəllüdlü Harri Kimoviç Kasparov 1985-ci ildə 22 yaşında şahmat tarixində ən gənc Dünya çempionu titulunu qazanmış və Mixail Botvinnikin rekordunu qırmışdı. 2005-ci ildə peşəkar şahmatdan ayrılan Harri Kimoviç Rusiyada müxalif siyasi hərəkatlarda fəal iştirak etmiş, ölkənin hazırkı Prezidenti Vladimir Putinin siyasətinin qatı tənqidçisi kimi ad çıxarmış, "Birləşmiş Vətəndaş Cəbhəsi" təşkilatının liderlərindən birinə çevrilmiş, habelə ölkədə demokratik dəyərlərin, azad seçkilərin və insan haqlarının müdafiəsinin təbliğatçısı olmuşdu. Şahmat nəzəriyyəsi, strategiyası, həmçinin, siyasət və demokratiya ilə bağlı çoxsaylı kitabların müəllifi kimi də tanınmış Kasparov hazırda ABŞ-da yaşayır və ictimai-siyasi fəaliyyətini davam etdirir.

***

Əlqərəz, Kasparov Qordona müsahibəsində bildirib ki, Qafqazda qanlı münaqişənin sona çatmasına çox şaddır və Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşmasına ümid bəsləyir. Şahmatçının fikrincə, Bakı ilə İrəvanın əldə etdiyi razılaşmanın ən mühüm cəhətlərindən biri odur ki, bölgədəki qanlı savaşın əsas səbəbkarı Rusiya Cənubi Qafqazdan çıxarılır: "Allaha şükür ki, Rusiyanı oradan çıxardılar. Bütün bu hadisələrin başlıca təxribatçısı olan Rusiya imperiyası artıq orada olmayacaq. Ümumilikdə bu, irəliyə atılan böyük addımdır. Biz indi çiçəklənən iqtisadi zona əldə etmiş olacağıq. Orda işləmək, qazanmaq üçün şərait, azərbaycanlıların da, ermənilərin də öz imkan və bacarıqları var. Yəqin ki, bütün bunları qurub yaratmaq mümkün olacaq".

H.Kasparov müsahibəsində xalqımızın Ümummilli lideri, Prezident Heydər Əliyevlə bağlı da söz açıb, dahi şəxsiyyətin onun taleyində çox böyük rol oynadığını vurğulayıb: "Heydər Əliyevə minnətdaram və bu barədə həmişə yazmışam. Onun dəstəyi olmasaydı, irəliləyə bilməzdim. Yalnız Əliyev və onun hər şeyə qadir gücü Karpovu (o zaman dünya çempionluğu uğrunda Kasparovun əsas rəqibi olan Anatoli Karpov - red) yerində saxlamağa çalışan böyük partiya-DTK maşınının qarşısını ala bilirdi. 1983-cü ildə, yarışın birinci mərhələsində onlar məni kənarlaşdırmağa çalışanda məhz Heydər Əliyev buna imkan vermədi. Mənə qarşı prosesi Kommunist Partiyasının ideologiya şöbəsinin rəhbəri Boris Stukalin idarə edirdi. O vaxt 20 yaşım vardı. İdman naziri və DTK-nin 5-ci idarəsinin başçısı dedilər ki, "cavansan, 3 il də gözləyə bilərsən". Mən Heydər Əliyevə müraciət etdim. Bildiyimə görə, bundan sonra Stukalini görən Heydər Əliyev ona deyib ki, "mənim yerlimi incitmə". Bundan sonra təkər başqa istiqamətdə fırlanmağa başladı. O vaxt SSRİ rəhbəri Andropovun yaxın adamlarından biri olan Heydər Əliyevlə mübahisə etməmək daha yaxşı idi…"

Qordon Kasparovdan Bakıya səfərinin mümkünlüyü barədə soruşanda isə ikinci emossional duyğulara köklənib və deyib ki, əvvəllər buna imkan yox idi, indi vəziyyət yaxşı istiqamətdə dəyişir: "Əgər erməni nümayəndə heyətlərinin Bakıya səfərləri başlasa ora getmək arzum əlbəttə ki, var. Xüsusən həyat yoldaşıma və uşaqlarıma Bakını göstərmək istərdim. Mən o yaşdayam ki, artıq nostalgiya ürəyimi göynədir".

***

Göründüyü kimi, Azərbaycan amili Harri Kasparovun həyatında son dərəcə böyük rol oynayıb və özü də həmişə bu barədə söz açdığını vurğulayır. Hesab edək ki, Kasparovdan qədirbilənlik hissi var. Amma bu, nə dərəcədə yetərlidir? Əsla, yetərli deyil. O, indi asan yol tutur, Rusiyanı qınayır, rus imperializmini xalqlar arasında ədavətdə günahlandırır. Bunu sıravi azərbaycanlı və ya erməni deyə bilər. Görəsən, Kasparovun, loru dildə desək, öz başı harada idi? Düşünə bilmirdimi? Adam illərlə Bakıya bağlı ziyalı deyil, faktiki olaraq, erməni millətçisi kimi davranıb. Halbuki, belə olmamalı idi. Ona görə də ona yazımızın sonunda sözümüz olacaq.

Hələlik isə deyək ki, H.Kasparov Qarabağ münaqişəsinin kökləri ilə bağlı danışanda, bir qayda olaraq, məsələni 1988-ci ilin Sumqayıt hadisələri ilə əlaqələndirib. Yanaşma qətiyyən yolverilməzdir və daha çox Rusiya siyasi təqdimat tərzinin məhsuludur. Yada salaq ki, Kasparovun bəyənmədiyi Putin İkinci Qarabağ müharibəsindən sonra tərəflər arasında vasitəçilik edirmiş kimi davrananda xalqlar arasındakı münaqişənin dərinliklərindən



söz açmış, Sumqayıt olaylarını ön plana çəkmiş, bir növ, səbəb-nəticə əlaqələri axtarmağa çalışmışdı. Təxminən belə: Azərbaycanlılar Bakıda, Sumqayıtda və Gəncədə ermənilərə qarşı qırğınlar törətdikləri üçün Qarabağ erməniləri hərəkətə keçdilər.

Amma məlumdur ki, Sumqayıt hadisələrindən əvvəl Topxana olayı olmuşdu və bu, aşkar təxribat erməni millətçiləri tərəfindən planlaşdırılmışdı. Kasparovu təzyiqlərdən qoruyan Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi vaxtlarda da Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək cəhdləri olmuş və Ümummilli lider şahmatçıya qarşı haqsızlığın qarşısını aldığı kimi, həmin cəhdləri də beşiyindəcə boğmuşdu. Üstəlik, Kasparov bilməlidir ki, Sumqayıt hadisələrinin sovet "KQB"si və onun erməni əlaltıları tərəfindən törədildiyi faktdır. Deməli, o, Qarabağ münaqişəsi ilə bağlı Sumqayıt etimalogiyası uydurmamalı, nəzərə almalıdır ki, bu yolla bəyənmədiyi keçmiş imperiyanın tezislərinə söykənir.

Doğrudur, Kasparov müxtəlif vaxtlarda beynəlmiləlçi zəngulələr də vurub, Azərbaycan və erməni xalqları arasında sülhdən danışıb. Məsələ ondadır ki, Ermənistanın ikinci və üçüncü prezidentləri olmuş Robert Koçaryan və Serj Sarkisyan kimi cəlladlar da təxminən eyni fikirləri dilə gətirib, özlərini barış tərəfdarları qismində göstəriblər. Əməldə isə başqa cür davranıblar. Kasparov, prinsip etibarilə, onlardan heç nə ilə fərqlənməyib. Çünki ədalətin tərəfində dayanmayıb, erməni avantürizmi naminə müxtəlif interpreativ gedişlər edib. Məsələn, o, Qarabağdan söz açanda xalqların öz müqəddəratlarını təyinetmə hüququnu qabardıb. Bəli, Kasparov deyib ki, bölgənin statusu ilə əlaqədar hüquqi və tarixi aspektlər nəzərə alınmalı, sovet vaxtının muxtar respublika quruluşu əsas götürülməlidir. O zaman, tutalım, Qarabağın muxtariyyəti əsas idi, bəs Zəngilan, Qubadlı, Füzuli, Ağdam, Kəlbəcər, Şuşa, Laçın niyə işğal olundu? Görəsən, Harri Kimoviç nə üçün buna etiraz etmirdi? Sualımız ritorikdir.

Digər tərəfdən, Kasparov Sovetlər Birliyi zamanında Qarabağda muxtar vilayətin nəyə görə yarandığını bilməmiş deyil. Axı bu quruluş sanki Azərbaycanın içinə qoyulmuş saat mexanimzli bomba idi. Bomba 1987-ci ildə Ulu öndər Heydər Əliyev SSRİ-dəki hakimiyyət olimpindən uzaqlaşdırıldıqdan dərhal sonra işə düşdü. Kasparovun söykəndiyi Sumqayıt hadisələri isə böyük "ssenarinin" tərkib hissəsinə çevrildi. Görəsən, adam bunları bilmirdimi?

O da məlumdur ki, Kasparov Ermənistandakı xunta rejiminə, başqa sözlə desək, Koçaryan-Sarkisyan tandeminə qarşı da müxalifətdə dayanırdı. Çünki bu tandem direktivlərini Rusiyadan alırdı. Kasparovun, yumşaq desək, daha bir yanlışı onda idi ki, Qarabağ münaqişəsinin həllini "Azərbaycanda və Ermənistanda demokratik qüvvələrin hakimiyyətə gəlməsindən sonraya saxlayırdı". Mövcud məntiqdə isə qatı anti-Rusiya təmayülü var.

Yəni, Rusiya hər şeyin başıdır, bu, öz yerində. Amma şahmatçı dedikləri ilə münaqişəni Moskvaya fokuslanmış iki dövlətin siyasi sistemləri ilə əlaqələndirmək yönümlü manipulyativ gediş edirdi. Sanki Azərbaycan və Ermənistan Rusiyadan üz döndərib Qərbə sığınsalar, hər şey həllini tapacaq. Görəsən, Azərbaycanı işğalla barışmağa çağıran həmin Qərb deyildimi?

Qarabağla bağlı böyük reallıq var və həmin reallıqda Azərbaycanı və ya Ermənistanı kimin, yaxud kimlərin idarə etməsinin heç bir önəmi olmamalıdır. Reallıq isə budur ki, nəinki Qarabağ, eyni zamanda, müasir Ermənistanın qərarlaşdığı ərazi tarixi türk torpağıdır. Kasparov təkcə özünün deyil, çoxlu sayda ermənininin türk torpağı olan Bakıda əminamanlıq şəraitində yaşadığını "unutdu", hətta elə görüntü yaratdı ki, Azərbaycanın şəhərlərində ermənilərin dərilərinə sapan təpirlərmiş.

Bəli, Kasparov əsl həqiqəti söyləməli olan ziyalı ampluasını yaddan çıxarmışdı. O, İkinci Qarabağ müharibəsi zamanı da eyni cür davrandı. Savaş müddətində müsahibə verərək, yenə gedib Sumqayıt hadisələrinə çıxdı, eyni zamanda, elə rəy formalaşdırdı ki, guya, keçmiş SSRİ və bolşevizmin liderləri ermənilərin mənafelərini nəzərə almayıb, azərbaycanlıların xeyrinə qərarlar veriblərmiş. Yalan olar, ta bu qədəri yox!

***

Sonda Kasparovun Bakıya gəlmək sentimentallığının üzərində dayanaq. Məlum olduğu kimi, o, əvvəllər də oxşar fikirlər səsləndirib. Hətta, vaxtilə "paytaxtımızda və başqa şəhərlərdə ermənilərə qarşı törədilən qırğınları" nəzərə alaraq şərt də qoyub. Təxminən belə: Bakıya yalnız o halda yenidən səfər edər ki, burada doğulmuş bütün erməni millətindən olan şəxslər üçün səfərlər maneəsiz olsun, xüsusi nələrsə tələb edilməsin. Bu şərtin isə bir adı var – həyasızlıq.

Amma yazımızı, müəyyən mənada, pozitiv notlarla tamamlamaq məqsədi ilə onu da deyək ki, Azərbaycan və Ermənistan arasında sülh olacaq, yaralar qaysaq bağlayacaq, hər iki xalqın nümayəndələri əvvəllərdəki kimi, bir-birinə gediş-gəlişi bərpa edəcəklər. Axı əbədi düşmənçilik yoxdur və müasir Avropanın, ümumilikdə dünyanın tarixinə nəzər salaraq da bunu söyləmək mümkündür.

Amma Kasparov kimilər tarixdə miskin zavallılar kimi qalacaqlar. Çünki lazımi anda lazım olan sözü demədilər, əksinə, cəfəngiyyat uydurdular, reallığı təhrif etdilər. Ola bilər, qorxdular, axına qarşı üzməkdən çəkindilər. Hər bir halda, üzləşdikləri durum bələlərinin məsuliyyətini arxa plana keçirmir.

Ona görə yaxşı olar ki, beynəlmiləlçilik libası geymiş Harri Kimoviç diqqətə çatdırdığımız bütün məqamları nəzərə alsın və Bakıya gəlmək arzusunu özü ilə məzara aparsın. Ən doğrusu budur. Əlbəttə, qəddar deyilik, həmyerlimizə ölüm arzulamır və yazımızı bu çağırışla tamamlayırıq: Cənab Kasparov, gedin, şahmatınızı oynayın! Bakı göz yaşlarınıza inanmır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Regional sabitliyin hərbi-siyasi dayaqları

## *Zəmanə "Türk NATO-su"nun yaranmasını da gündəmə gətirib*

**XX əsrdə NATO kimi böyük hərbi bloklar qlobal siyasətdə əsas rol oynayırdısa, XXI əsrdə regional və ikitərəfli əməkdaşlıq ön plana çıxır. Bu tendensiyanın bariz nümunələrindən biri Pakistan və Səudiyyə Ərəbistanı arasında bugünlərdə imzalanmış qarşılıqlı müdafiə paktını göstərmək olar. Sazişin mahiyyəti NATO-nun məşhur 5-ci maddəsini xatırladır. Bu müqaviləyə əsasən, ölkələrdən birinə hər hansı bir hücum hər ikisinə qarşı hücum sayılacaq.**




Pakistanın müdafiə naziri Xavaca Asif açıqlamasında qeyd edib ki, gələcəkdə müqavilənin digər ərəb dövlətləri üçün də açıq qalması ehtimalı var. Bu isə Körfəz regionunda tamamilə yeni hərbi-siyasi konfiqurasiyanın formalaşmasına zəmin yaradır. "Hesab edirəm ki, buradakı ölkələrin və xalqların, xüsusən də müsəlman əhalinin öz bölgəsini, ölkələrini və millətlərini birgə müdafiə etmək təbii hüququdur", – deyə nazir bildirib.

İslamabad və Ər-Riyad razılaşmasını təhlil edərkən Azərbaycan və Türkiyə arasında imzalanmış Şuşa Bəyannaməsini xatırlamamaq qeyri-mümkündür. 15 iyun 2021-ci ildə imzalanan bu sənəd hər iki ölkənin tarixində dönüş nöqtəsi oldu. Bəyannamə siyasi və hərbi əməkdaşlıq baxımından strateji mahiyyət daşıyır. Sənəddə açıq şəkildə qeyd olunur ki, tərəflərdən birinə hücum digərinə qarşı təcavüz kimi qiymətləndiriləcək və birgə cavab tədbirləri həyata keçiriləcək. Artıq Azərbaycan və Türkiyə strateji tərəfdaş olmaqla yanaşı, həm də müttəfiq dövlətlərdir.

Qeyd edək ki, ənənəvi təhlükəsizlik qurumları çox zaman müasir çağırışlara operativ reaksiya verə bilmir. Bu isə yeni modellərin yaranmasını stimullaşdırır. Bu kontekstdə ABŞ, Böyük Britaniya və Avstraliya arasında imzalanmış AUKUS sazişini nümunə kimi misal göstərmək olar. Yəni, artıq dünyanın müxtəlif regionlarında özünəməxsus müdafiə alyanslarının yaranmasının şahidi oluruq.

Belə olan təqdirdə, Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində təhlükəsizliklə bağlı əməkdaşlığın dərinləşdirilməsi xüsusi aktuallıq qazanır. Son illər təşkilat daxilində hərbi və xüsusi xidmət orqanları arasında məlumat mübadiləsinin gücləndirilməsi, informasiya təhlükəsizliyi üzrə ortaq platformanın yaradılması istiqamətində addımlar atılıb. Ekspertlər hesab edirlər ki, gələcəkdə TDT çərçivəsində vahid hərbi-siyasi blokun təşkili qaçılmaz olacaq. Azərbaycan Prezidenti İlham Əliyev TDT-nin Astana Sammitindəki çıxışında vurğulamışdı ki, müharibələrin, münaqişələrin alovlandığı bir dövrdə ölkələrin müdafiə potensialı onların əsas təhlükəsizlik zəmanətinə çevrilir. Dövlət başçısı açıq şəkildə bəyan etmişdi ki, üzv ölkələr arasında təhlükəsizlik, müdafiə və müdafiə sənayesi sahələrində əməkdaşlıq artırılmalıdır.

* * *

Türkdilli dövlətlərin ayrıca hərbi birliyinin, "Türk NATO-su"nun yaradılması ideyası vaxtaşırı gündəmə gətirilir. Əslində, Azərbaycan və Türkiyənin imzaladığı Şuşa Bəyannaməsi isə gələcəkdə yaradılacaq belə bir alyansın əsasını qoyub. Türk dövlətləri arasında ikitərəfli müqavilələrin, bəyannamələrin imzalanması təkcə ikitərəfli müttəfiqliyi gücləndirmir, həmçinin Türk Dövlətləri Təşkilatının güclənməsinə təkan verir. Gələcəkdə TDT-nin vahid ordusunun yaranmasına ikitərəfli sazişlərin imzalanması öz təsirini göstərəcək. TDT təkcə ortaq tarixi və mədəni kökləri deyil, həm də gələcəyə yönəlmiş güclü əməkdaşlıq iradəsini özündə birləşdirir. Bu qurum özündə türk dünyasının birliyini, həmrəyliyini və qarşılıqlı dəstəyini təcəssüm etdirir. Həm siyasi, həm iqtisadi, həm də hərbi sahədə artan imkanları ilə TDT regionda sabitliyin və inkişafın aparıcı qüvvəsinə çevrilməkdədir.

Türk Dövlətləri Təşkilatının qlobal miqyasda güclü qüvvəyə çevrilməkdə olduğu artıq danılmaz faktdır. Bu gücü təmin edən resurslar isə kifayət qədərdir. İlk olaraq, təşkilatın 4,8 milyon kvadrat kilometr ərazisi və əlverişli coğrafi mövqeyi xüsusi qeyd olunmalıdır. Bununla yanaşı, üzv dövlətlərin ümumi daxili məhsulu 4 trilyon dollara yaxınlaşır ki, bu da böyük iqtisadi potensial deməkdir. Ümumi əhalisi 200 milyona çatan təşkilat həm də böyük insan resurslarına sahibdir. Türk dövlətlərinin hərbi gücü də nəzərəçarpacaq səviyyədədir. Bütün bu göstəricilər birlikdə təşkilatın istənilən məqsədə nail ola biləcək gücə malik olduğunu sübut edir. TDT-nin perspektivləri daha geniş, iqtisadi və hərbi güc mərkəzi kimi beynəlxalq aləmdə söz sahibi olmaq imkanları realdır.

Türk dövlətləri bu günə qədər bir sıra ortaq hərbi təlimlər reallaşdırıblar. Azərbaycan və Türkiyə arasında əməkdaşlıq xüsusilə dinamik inkişaf edir. Yalnız 2023-cü ildə iki ölkə 10-dan çox birgə hərbi təlim keçirib. Regional əməkdaşlığın genişlənməsinin göstəricisi olaraq, ötən il "Birləşdik-2024" təlimlərinə Azərbaycanla yanaşı, Qazaxıstan, Qırğızıstan və Özbəkistan da qoşulub. Həmçinin bu günlərdə keçirilən "Sonsuz qardaşlıq – IV" çoxmillətli birgə xüsusi təyinatlıların iştirakı ilə keçirilən hərbi təlimlər müsəlman–Türk dünyası üçün mühüm hadisə kimi dəyərləndirilir. Təlimlərdə Azərbaycan, Qazaxıstan, Qətər, Özbəkistan, Pakistan və Türkiyənin xüsusi təyinatlı bölmələrinin iştirakı regional həmrəyliyin və strateji əməkdaşlığın bariz nümunəsidir.

***Musa BAĞIRLI***
***XQ***

### Ekspert rəyi



**Cəlil XƏLİOV,**
**Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri**

Bu gün dünyada baş verən proseslər hər bir ölkədən təhlükəsizliyinə daha çox diqqət yetirməyi tələb edir. Təbii ki, bizi sevindirən məqamlardan biri də odur ki, Azərbaycan Ordusu dünya orduları sırasında önəmli yerlərdən birini tutur. Onun mənəvi-psixoloji durumu və hərbi hazırlıq səviyyəsi çox yüksəkdir. Bu da bizə ümid verir ki, sabah hər hansı təcavüz və ya təxribat cəhdinin qarşısını almaq üçün kifayət qədər imkan və bacarığa malikik. Bundan başqa, Azərbaycan Ordusu NATO ölkələrinin bəziləri və türk dövlətləri ilə hərbi əməkdaşlıq edir, təlimlər keçirir.

Azərbaycan TDT-yə üzv bir çox türk dövlətləri ilə hərbi əməkdaşlıq edir. Burada Türkiyə ilə sıx əməkdaşlığı xüsusi qeyd eyməliyik. Türkiyə Silahlı Qüvvələri dünyanın ən böyük və ən güclü ordularından biridir. Azərbaycan Ordusu isə bu təcrübədən faydalanaraq, təlimlərdə iştirak etməklə xidmət, taktiki və strateji metodları öyrənməyə çalışır.

Türk dövlətlərinin təhlükələrdən birgə müdafiəsi üçün yeni əməkdaşlıq modelləri, hətta xüsusi qurum yaradıla bilər. Görünür, əməkdaşlığın əsas hədəfərindən biri də budur. Gələcəkdə bu əməkdaşlıq genişmiqyaslı xarakter ala bilər. Bu ölkələrin orduları ilə bağlı, əməkdaşlıq sahəsində və istifadə olunan texnikalar barədə günbəgün geniş məlumatlar toplanır, təlimlərdə həmin texnikalardan istifadə olunur. Təlimlərdə, həmçinin əlaqələrin necə qurulması, təhlükələrin qarşısının hansı şəraitdə necə qarşısının alınması məsələləri müzakirə olunur və yeni sistemlərlə bu yanaşmalar mümkündür. Gələcəkdə belə bir qurumun yaradılması, təhlükəsizlik strukturlarının möhkəmləndirilməsi də mümkündür. Birgə hərbi bloka yaranarsa, Azərbaycanın və ya digər türk dövlətlərinin maraqlarına təhlükə olduqda, onlar birgə və vahid mövqedən çıxış edə bilərlər.

Azərbaycan yalnız ordu ilə deyil, eyni zamanda təhlükəsizlik orqanları, sərhəd qoşunları və digər qurumlar arasında da türk dövlətləri ilə əməkdaşlıq aparır.

# Azərbaycan təhlükəsizlik düzənində təşəbbüs mərkəzidir

## *Bakı Forumunda qlobal təhdid və risklərin neytrallaşdırılması yolları axtarılır*

**Bu gün Azərbaycan paytaxtı dünyanın yenidən qurulmaqda olan təhlükəsizlik arxitekturasının əsas koordinatorlarından birinə, aparıcı dövlətlərin çarpaz maraqlarının kəsişmə nöqtəsinə çevrilib – desək, mübaliğəyə yol vermiş olmarıq. Bakıda formalaşan yeni təhlükəsizlik platforması həm regional, həm də beynəlxalq güclərin diqqət mərkəzindədir. Küləklər şəhəri, bir növ, strateji dialoqların, yeni əməkdaşlıq mexanizmlərinin və təhlükəsizlik konsepsiyalarının müzakirə edildiyi tribuna, qlobal laboratoriya funksiyasını öz üzərinə götürüb.**

Məhz Azərbaycan Prezidenti İlham Əliyevin bir il əvvəl irəli sürdüyü təşəbbüslə daimi əsaslarla keçirilən Bakı Təhlükəsizlik Forumu müxtəlif qitələrdən gələn dövlət və xüsusi xidmət qurumlarının rəhbərlərini, təhlükəsizlik ekspertlərini və siyasətçiləri bir araya gətirən beynəlxalq platforma statusu qazanıb. Forum, eyni zamanda, ölkəmizin təşəbbüskar mövqeyinin, qloballaşan dünyada risklərin idarə olunması və qarşısının alınması sahəsində qazandığı təcrübənin, ilk növbədə, regional sabitliyə verdiyi dəyərli töhfənin nümayişinin fürsət meydanı oldu.

Elə tədbirin adı çox şeydən xəbər verir. Bunun fonunda dövlət başçımızın III Bakı Təhlükəsizlik Forumunun iştirakçılarına müraciətində səsləndirdiyi tezisləri xüsusi prizmadan qəbul etmək lazımdır. Onun ayrı-ayrı təfərrüatlarına nəzər salmazdan əvvəl qeyd etmək yerinə düşər ki, hazırkı forumun müzakirə etdiyi məsələlər, əslində, Azərbaycan paytaxtında daha əvvəl keçirilmiş beynəlxalq konfransların gündəliyini tamamlamış sayılır.

Prezident İlham Əliyevin konfrans iştirakçılarına müraciətində qeyd etdiyi kimi, dünya sürətlə dəyişir və hər gün yeni çağırışlar, yeni təhdidlər özünü büruzə verir: "Müxtəlif bölgələrdə silahlı toqquşmaların baş verməsi humanitar böhranlara, texnogen qəzalara, ekoloji fəlakətlərə zəmin yaradır. Eyni zamanda beynəlxalq müstəvidə münaqişələrin alovlanması, terrorçu təşkilatların yenidən fəallaşması, eləcə də kibertəhdidlərin artması müşahidə olunur. Bütün bunlar dövlətləri qlobal xarakter daşıyan təhdidlərlə üz-üzə qoyur. Bu kontekstdə dini ekstremizm, separatçılıq, transmilli mütəşəkkil cinayətkarlıq, narkotik vasitələrin qanunsuz dövriyyəsi, qeyri-qanuni miqrasiya və silah qaçaqmalçılığı kimi hüquqazidd əməllərin beynəlxalq təhlükəsizlik sistemini sarsıtması ciddi narahatlıq doğurur".

Dövlət başçımız müasir dövrdə qlobal təhdidlərə sipər çəkmək, problemləri həll etmək üçün yeni yanaşmaların, yeni vasitələrin tətbiqini, ən əsası isə ölkələrin birgə səylərini və sıx əməkdaşlığını zəruri saydığını nəzərə çatdırdı: "Bu baxımdan Bakı Təhlükəsizlik Forumunun qlobal və regional təhlükəsizliyin ən aktual məsələləri barədə açıq və konstruktiv fikir mübadiləsinin aparılması üçün faydalı platformaya çevrilməsini görməkdən məmnunluq duyuruq".

Həqiqətən də Bakı Forumu qlobal və regional təhdid və risklərin müəyyənləşdirilməsi və onların neytrallaşdırılması yollarının axtarılması və tapılması baxımından nadir formata malik beynəlxalq platformadır.

* * *

Danılmaz həqiqətdir ki, Azərbaycan müstəqillik qazandığı gündən etibarən bütün sahələrdə beynəlxalq əməkdaşlığın gücləndirilməsini daim dəstəkləyib. Əlbəttə ki, həm bölgədə, həm də dünyada sabitliyə və tərəqqiyə yalnız dialoq və tərəfdaşlıq yolu ilə nail olmaq mümkündür. Ölkəmiz yerləşdiyi strateji bölgədə – Cənubi Qafqazda sülhün bərqərar olması, sabitliyin təmin edilməsi üçün həmişə konstruktiv addımlar atılmasının tərəfdarı olub. Bu zaman əsas hədəflərdən biri, Ermənistan daxil olamqla, region ölkələri ilə qarşılıqlı etimada, təhlükəsizliyə və reallığa əsaslanan yeni münasibətlər sisteminin qurulmasıdır. Rəsmi Bakının məhz bu istiqamətdə həyata keçirdiyi məqsədyönlü tədbirlər gələcəkdə qonşu ölkələr arasında tərəfdaşlığın daha da möhkəmlənməsinə xidmət edir. Yeri gəlmişkən, avqustun 8-də Vaşinqtonda imzalanmış Birgə Bəyannamə regionda yeni təhlükəsizlik mühiti formalaşdırdı. Azərbaycan və Ermənistan arasında qarşılıqlı etimad üzərində əldə olunan bu sənəd Cənubi Qafqazda davamlı sülh və sabitliyin bünövrəsini qoymuş oldu. Bakı bu prosesin yönverici tərəfi olaraq region ölkələri arasında əməkdaşlıq formatlarını təşviq edir, iqtisadi və nəqliyyat layihələrinin təhlükəsizliyini təmin edən tədbirləri gücləndirir. Eləcə də Mərkəzi Asiya, Yaxın Şərq və Avropa üçün yeni əməkdaşlıq imkanlarının yaradılmasına əvəzsiz töhfələrini verir.

Əslində, Bakı konfransı Azərbaycanın beynəlxalq təhlükəsizlik gündəliyinin formalaşmasında mərkəzi oyunçuya çevrildiyini göstərir. Bu məqam dövlətimizin başçısının forum iştirakçılarına ünvanladığı müraciətində aşkar duyulur. Müraciətdə yer alan mesajlar milli maraqların qorunmasına fokuslanmaqla yanaşı, qlobal təhdidlərə qarşı mübarizədə regional və beynəlxalq əməkdaşlığın daha da dərinləşməsinə yönəlib. Etiraf edək ki, bu, Azərbaycanın Cənubi Qafqazda lider rolunu daha da möhkəmləndirən bir yanaşmadır. Bakı Təhlükəsizlik Forumu həm də Azərbaycanın beynəlxalq diplomatik platforma kimi artan nüfuzunu və gücünü ortaya qoydu. Burada səslənən fikirlər yalnız lokal deyil, beynəlxalq təhlükəsizlik müstəvisində rezonans doğurdu. Bakı bu konfransla Qlobal Cənub, Avropa və Asiya gücləri arasında körpü rolunu oynadığını bir daha təsdiqlədi. Təhlükəsizlik məsələlərinin gündəmə gətirilməsi Azərbaycanın sülh və sabitlik təşəbbüslərinin davamlı olduğunun göstəricisidir. Prezidentin çıxışlarında dəfələrlə vurğuladığı kimi, sülh yalnız güc və prinsipial mövqe əsasında təmin oluna bilər. Bu baxımdan konfrans Azərbaycanın xarici siyasətində həm realist, həm də proqnozlaşdırıla bilən xəttə sadiq olduğunu ortaya qoydu.

* * *

Konfransla bağlı xüsusi qeyd edilməli məqamlardan biri də Ermənistan Milli Təhlükəsizlik Xidmətinin direktoru Andranik Simonyanın başçılığı ilə nümayəndə heyətinin Bakı Təhlükəsizlik Forumunda iştirak etməsidir. Bu məqamı avqustun 8-də Vaşinqtonda Birgə Bəyannamənin imzalanmasından sonra iki ölkə arasında yaranan əməkdaşlıq və etimad mühitinin formalaşmağa başlamasının təzahürü kimi qəbul etmək lazımdır.

III Bakı Təhlükəsizlik Forumu sübut etdi ki, Azərbaycan yalnız öz sərhədlərini qoruyan dövlət deyil, həm də dünyanın təhlükəsizlik arxitekturasına önəmli töhfə verən gücdür. Bu mənada forum Azərbaycanın beynəlxalq arenadakı müsbət imicinə əlavə çalar qazandırmış oldu. Bu tədbir ölkəmizi, sadəcə, regional deyil, qlobal təhlükəsizlik debatlarının ayrılmaz hissəsinə çevirdi. Dövlət başçımızın müraciətində vurğuladığı mesajlar bu uğurun daha da möhkəmləndiyindən xəbər verir.

Bakıda keçirilən növbəti konfransın iştirakçıları – bütün qitələrdən təşrif buyurmuş, müxtəlif ölkələri təmsil edən kəşfiyyat orqanlarının rəhbərləri və sahə ekspertləri bu platformanın müasir təhlükəsizlik tendensiyalarının formalaşdırılması üçün önəmli diskussiya meydanına çevrildiyinə əyani şəkildə əmin oldular.

Sonda onu da qeyd edək ki, III Bakı Təhlükəsizlik Forumu Azərbaycanın qlobal çağırışlarla üzləşmiş dünyanın yeni geosiyasi reallığında artan gücünü, mövqeyini və strateji əhəmiyyətini bir daha təsdiqləyən hadisə kimi çağdaş tariximizin salnaməsinə yazıldı.

***İmran BƏDİRXANLI***
***XQ***

**Ekspert rəyi**



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı,**
**politoloq**

Cənubi Qafqaz "böyük güclər"in maraqlarının toqquşduğu məkandır. Bölgəni iki tərəfdən Rusiya və İran kimi dünyada öz rollarının artırılmasını tələb edən ölkələrin əhatə etdiyini nəzərə alsaq, bu amil təbii olaraq, regionda balansı qoruyub saxlamaq, təhlükəsizliyi təmin etmək olduqca mürəkkəb bir məsələyə çevrilir. Bu məsələ məhz Azərbaycana söykənərək öz həllini tapmaqdadır. Çünki bizim ölkəmiz bölgədə həm hərbi, həm iqtisadi, həm də əhalisinin sayına görə aparıcı dövlətdir. Regionun təhlükəsizliyinə uzun müddət təhdid yaradan Ermənistan–Azərbaycan münaqişəsini məhz Bakı bu qarşıdurmanı beynəlxalq hüquq çərçivəsində həll edərək, özünün ərazi bütövlüyünü və suverenliyini tam təmin etməklə Ermənistana sülhə sövq etməyə nail oldu. Buna görə Azərbaycan Cənubi Qafqazda təhlükəsizliyin təminatçısı kimi çıxış edir.

Düşünürəm ki, gələcəkdə də bölgənin təhlükəsizliyi Azərbaycanın maraqları nəzərə alınmaqla təmin oluna bilər. Qarşıda böyük planlar var. Orta Dəhlizin formalaşması ilə bağlı məsələ Avropa İttifaqının, Çinin və ABŞ-ın da bu bölgəyə maraqlarını birə-beş artırır. Aydın məsələdir ki, təhlükəsizliyə təminatın olmadığı yerdə heç bir böyük layihə reallaşa bilməz. Onu da nəzərə almaq lazımdır ki, Azərbaycan həm bu layihənin gerçəkləşməsində, həm də onun təhlükəsizliyinin təmin edilməsində aparıcı rola malikdir və bunu uğurla həyata keçirir.

# Bakı çoxtərəfli əməkdaşlığa açıqdır

**Prezident İlham Əliyevin "Terrorçu hücumlar və silahlı münaqişələr zamanı humanitar böhranların və qlobal xarakterli texnogen fəlakətlərin qarşısının alınmasında təhlükəsizlik orqanlarının qarşılıqlı fəaliyyəti" mövzusunda beynəlxalq konfrans iştirakçılarına müraciəti Azərbaycanın regional və qlobal miqyasda təhlükəsizlik yanaşmalarını və əməkdaşlıq konsepsiyasını yenidən diqqət mərkəzinə gətirdi.**

Bakı Təhlükəsizlik Forumunun iştirakçılarına ünvanlanan müraciətin əsas tezisi ondan ibarətdir ki, Azərbaycan beynəlxalq əməkdaşlığa bütün sahələrdə açıqdır və yalnız çoxtərəfli dialoq vasitəsilə sabitliyin və firavanlığın təmin oluna biləcəyinə inanır. Rəsmi Bakının bu mövqeyi ölkənin müstəqillikdən sonrakı 30 illik diplomatik kursu ilə səsləşir: balanslaşdırılmış siyasət, regional əməkdaşlıq təşəbbüsləri və qlobal təhlükəsizlik gündəliyində aktiv mövqeyin nümayişi.

Cənubi Qafqazda yaranmış yeni siyasi reallıqlar Azərbaycanın regional siyasətində həm çağırış, həm də fürsət elementlərini özündə birləşdirir. Prezident İlham Əliyevin müraciətində vurğulandığı kimi, əsas prioritet sabitlik və qarşılıqlı inam mühitinin bərpasıdır. Azərbaycanın regional əməkdaşlığı möhkəmləndirmək istiqamətində irəli sürdüyü ən mühüm vasitələrdən biri nəqliyyat və logistika infrastrukturunun genişləndirilməsidir. Burada Zəngəzur dəhlizi konsepsiyası diqqət mərkəzindədir. Layihə təkcə iqtisadi mənfəət və tranzit imkanları ilə deyil, həm də təhlükəsizlik müstəvisində inteqrativ təsir göstərmə potensialı ilə ön plana çıxır. Əgər tərəflər bu mexanizmi qəbul etsələr, region daxilində qarşılıqlı asılılıq dərinləşəcək və bu da münaqişə risklərini azaltmaqla sülhə real zəmin yarada bilər.

Bununla yanaşı, enerji diplomatiyası Azərbaycanın əlində olan ən güclü alətlərdən biridir. Xəzər dənizindən Avropaya uzanan marşrutlar artıq yalnız enerji ixracı vasitəsi kimi deyil, həm də region ölkələrinin maraqlarını ortaq platformada birləşdirən siyasi mexanizm kimi çıxış edir. Azərbaycan qazının Avropaya çatdırılması, həm Qərbin enerji təhlükəsizliyinə, həm də Cənubi Qafqazda əməkdaşlıq mühitinin güclənməsinə xidmət edir. Məhz bu mənada enerji layihələri Bakını təkcə iqtisadi tərəfdaş deyil, həm də regional sabitliyin təminatçısı kimi təqdim edir.



Post-münaqişə mərhələsində Azərbaycanın mövqeyi daha da möhkəmlənib. Qarabağ müharibəsindən sonra yaranmış yeni reallıqlar regionda siyasi xəritəni dəyişib və Azərbaycanı həm təhlükəsizlik, həm də əməkdaşlıq təşəbbüslərinin mərkəzinə gətirib. İndi əsas məsələ bu üstün mövqedən regional sabitliyin uzunmüddətli qurulması üçün istifadə etməkdir. Vəziyyət isə mühüm sual doğurur: əgər qonşu ölkələr Azərbaycanın irəli sürdüyü əməkdaşlıq modelini qəbul etməzlərsə, bölgədə parçalanma və yeni risklərin yaranması qaçılmaz ola bilərmi? Cavab isə birmənalıdır – alternativlər mövcud olsa da, heç biri Azərbaycanın təklif etdiyi əməkdaşlıq platforması qədər dayanıqlı və praqmatik görünmür.

* * *

Qlobal kontekstdə Prezident İlham Əliyevin müraciətində ən çox diqqət çəkən məqamlardan biri müasir beynəlxalq təhlükəsizlik mühitinin mürəkkəbliyidir. Terror aktları, silahlı münaqişələr və texnogen fəlakətlər beynəlxalq sistemin dayanıqlığına təhdid kimi qiymətləndirilir. Belə bir şəraitdə Azərbaycanın mövqeyi regional məhdudiyyətləri aşaraq daha geniş miqyasda dəyərləndirilir. Bakı özünü qlobal təhlükəsizlik arxitekturasında məsul tərəfdaş kimi təqdim etməklə göstərir ki, yalnız geosiyasi mövqeyi ilə deyil, həm də beynəlxalq təşəbbüslərə töhfə vermək iradəsi ilə seçilir.

Azərbaycanın qlobal proseslərdə oynaya biləcəyi praktiki rol bir neçə əsas istiqamətdə nəzərə çarpır. İlk növbədə, Bakı beynəlxalq konfransların keçirilməsi ilə artıq təhlükəsizlik dialoqlarının mühüm mərkəzinə çevrilib. Azərbaycanın bu statusu real siyasi təsir imkanlarını artıran strateji alətdir.

Digər mühüm istiqamət sülhməramlı və humanitar fəaliyyətlərdir. Azərbaycan müxtəlif beynəlxalq təşkilatlarla əməkdaşlıq edərək humanitar böhranların aradan qaldırılmasına dəstək göstərir. Burada maraqlı sual yaranır: Azərbaycan nisbətən kiçik dövlət olduğu halda qlobal humanitar böhranlarda necə təsirli tərəfdaş ola bilir? Cavab məhz onun balanslaşdırılmış siyasətindədir. Bakı beynəlxalq təşkilatlarla əməkdaşlıq mexanizmlərini gücləndirərək qlobal miqyasda humanitar məsuliyyətin bölüşdürülməsində fəal iştirak edir və bu yolla öz nüfuzunu artırır.

Üçüncü və getdikcə daha çox önə çıxan sahə enerji və ərzaq təhlükəsizliyidir. Qlobal böhranlar fonunda Azərbaycanın etibarlı enerji təminatçısı kimi rolu, xüsusilə də Avropanın enerji asılılığını diversifikasiya etmək baxımından, əhəmiyyətli dərəcədə güclənib. Bununla yanaşı, nəqliyyat və logistika imkanları da Azərbaycanın qlobal təchizat zəncirində strateji oyunçuya çevrilməsinə şərait yaradır. Əgər bu imkanlar düzgün istiqamətləndirilərsə, Bakı qlobal ərzaq təhlükəsizliyi və tranzit sabitliyinin təminatçısı kimi çıxış edə bilər. Beləliklə, Azərbaycan müasir qlobal təhlükəsizlik sistemində passiv müşahidəçi deyil, aktiv və məsul tərəfdaş mövqeyini nümayiş etdirir. Mövcud yanaşma həm dövlətin beynəlxalq imicini möhkəmləndirir, həm də onun regional siyasətini qlobal kontekstdə daha əhatəli və strateji bir çərçivəyə yerləşdirir.

* * *

Müraciətin analitik proqnozunu nəzərdən keçirərkən diqqət çəkən əsas məqam odur ki, Azərbaycan özünü əməkdaşlıq təşəbbüsləri irəli sürən, dialoqa açıq tərəf kimi təqdim edir. Cənubi Qafqaz kontekstində Bakı artıq münaqişədən sonrakı yeni düzənin qurulmasında əsas söz sahibinə çevrilib. Azərbaycanın təşəbbüskarlığı ona regional liderlik imici qazandırır, bu mövqe siyasi iradəyə, diplomatik çevikliyə və iqtisadi resursların düzgün yönləndirilməsinə əsaslanır. Liderlik təsadüfi deyil, çünki bölgədə sülh və inteqrasiya təşəbbüslərinin mərkəzində məhz Azərbaycan dayanır.

Qlobal miqyasda isə ölkənin siyasəti balanslı tərəfdaşlıq imkanlarını gücləndirir. Bakı Qərblə enerji və təhlükəsizlik əməkdaşlığı qurarkən, eyni zamanda Rusiya, Türkiyə və Çin kimi güclərlə də münasibətlərini praqmatik əsasda inkişaf etdirir. Çoxşaxəli yanaşma Azərbaycanın beynəlxalq diplomatiyada mühüm körpü rolunu oynamasına şərait yaradır. Əslində, Azərbaycan bir tərəfə tam meyl etmədən, müxtəlif güclər arasında sabit əlaqələr saxlayaraq öz təhlükəsizliyini və siyasi çəkisini artırır.

Uzunmüddətli perspektivdə isə bu siyasət dayanıqlı təhlükəsizlik arxitekturasının qurulmasına yönəlir. Qarşılıqlı etimad, praqmatizm və əməkdaşlıq formatına əsaslanan yanaşma yalnız Azərbaycanın deyil, bütövlükdə regionun gələcək sabitliyi üçün zəmin yaradır. Bəs bu model davamlı ola bilərmi, yoxsa beynəlxalq güclərin maraqlarının toqquşması onu zədələyə bilər? Mövcud tendensiyalar göstərir ki, Azərbaycanın çevik diplomatiyası və iqtisadi resurslardan istifadədə səmərəli yanaşması bu təhlükələri minimuma endirir. Deməli, Azərbaycanın təklif etdiyi əməkdaşlıq modeli həm regional, həm də qlobal müstəvidə sülh və sabitliyin təmin olunması üçün ən real çıxış yoludur.



Prezident İlham Əliyevin müraciətindən çıxarılan ümumi nəticə ondan ibarətdir ki, Azərbaycan artıq beynəlxalq təhlükəsizlik sisteminin formalaşmasında fəal iştirak edən məsul aktor kimi çıxış edir. Bakı bütün sahələrdə əməkdaşlığa açıq olmaqla həm Cənubi Qafqazda uzunmüddətli sabitliyin qurulmasına, həm də qlobal təhlükəsizlik arxitekturasının möhkəmlənməsinə real töhfə verir.

Bəs əgər region ölkələri Azərbaycanın təklif etdiyi əməkdaşlıq modelini qəbul etməsələr, hansı nəticələrlə üzləşə bilərlər? Cavab açıqdır – bu halda Cənubi Qafqaz yeni parçalanmaların və qeyri-sabitlik mənbələrinin meydana çıxdığı məkan ola bilər. Belə bir ssenari həm lokal, həm də qlobal güclərin daha sərt rəqabətinə yol açacaq, nəticədə region yenidən münaqişə və qarşıdurmaların meydanına çevrilə bilər. Azərbaycan isə məhz bu risklərin qarşısını almaq üçün praqmatik, qarşılıqlı etimad və əməkdaşlıq əsaslı model təklif edir.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Azərbaycanın iqtisadi inkişafının ana xətti "yaşıl" iqtisadiyyatın qurulmasıdır






(əvvəli 1-ci səhifədə)

Forumun açılış mərasimində Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov, "The European House – Ambrosetti" beyin mərkəzinin idarəedici partnyoru Valerio De Molli, İqtisadiyyat naziri Mikayıl Cabbarov, "Sea Breeze" turizm zonasının təsisçisi və rəhbəri Emin Ağalarov və digər rəsmi beynəlxalq qurumların təmsilçiləri iştirak ediblər. Ümumilikdə foruma mindən çox nümayəndə — dövlət rəsmiləri, beynəlxalq və yerli şirkətlərin rəhbərləri, maliyyə institutları, investorlar və beyin mərkəzlərinin təmsilçiləri qatılıblar.

Prezident İlham Əliyevin müraciəti forumun strateji istiqamətini müəyyənləşdirən əsas xətt olub. Dövlət başçısı bildirib ki, Azərbaycan ənənəvi enerji resurslarından əldə etdiyi üstünlükləri qorumaqla yanaşı, "yaşıl" iqtisadiyyatı inkişaf etdirməyi prioritet hesab edir. Onun sözlərinə görə, neft-qaz ölkəsi kimi zəngin təbii sərvətlərə malik Azərbaycan artıq alternativ enerji sahəsində də ciddi addımlar atır və qarşıdakı illərdə yaşıl iqtisadiyyata keçidi sürətləndirmək niyyətindədir. Azərbaycan hazırda bir sıra dövlətlərin həm ənənəvi, həm də bərpaolunan enerji sahəsində strateji tərəfdaşıdır. Təbii qazla yanaşı, günəş və külək enerjisi layihələri, Qarabağ və Şərqi Zəngəzurun "yaşıl" enerji zonası, eləcə də "ağıllı infrastruktur" konsepsiyalarının tətbiqi ölkəmizi qlobal enerji keçidinin aparıcı iştirakçılarından birinə çevirir. Beləliklə, Azərbaycan həm bu günün enerji təhlükəsizliyini möhkəmləndirir, həm də sabahın "yaşıl" iqtisadiyyatını qurur.

Müraciətdə vurğulanan rəqəmlər göstərdi ki, bu strategiya real baza üzərində qurulub. 2004–2024-cü illər ərzində ölkəyə ümumilikdə 344,4 milyard ABŞ dolları investisiya cəlb olunub. Bunun 213,2 milyard ABŞ dolları qeyri-neft sektorunun payına düşüb. 2021–2024-cü illərdə isə qeyri-neft sektorunun illik orta artımı 6,7 faiz təşkil edib. Bu göstəricilər Azərbaycanın yeni iqtisadi kursunu — "yaşıl" enerji və davamlı inkişafı maliyyələşdirmək imkanına malik olduğunu sübut edir.

Prezidentin müraciətində Azərbaycanın investisiya mühitinin əlverişliliyinə də xüsusi diqqət çəkildi. Dövlət-özəl tərəfdaşlığı, hüquqi zəminin gücləndirilməsi, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Ələt Azad İqtisadi Zonasının fəaliyyəti, yeni sənaye parklarının yaradılması investorların marağını artıran əsas amillərdəndir. Bu layihələr "yaşıl" iqtisadiyyatın qurulmasında lokomotiv rolunu oynayır.

"Yaşıl" iqtisadiyyat yalnız enerji layihələrindən ibarət deyil. Forumda su resurslarının qorunması məsələsi də ön plana çəkilib. Azərbaycanın içməli su ilə bağlı riskli ölkələr sırasında yer alması hökuməti yeni tədbirlər görməyə vadar edir. Bu məqsədlə yağış sularının toplanması, kollektorların qurulması və Xəzər dənizində duzsuzlaşdırma zavodlarının inşası nəzərdə tutulur. Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti ilə əməkdaşlıq çərçivəsində müvafiq layihələrin reallaşdırılması gündəmdədir.

Qeyd edək ki, Bakıda keçirilən I Azərbaycan Beynəlxalq İnvestisiya Forumu (AIIF-2025) çərçivəsində dəyəri 5,5 milyard ABŞ dollarından çox olan sazişlər imzalanıb. İqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib ki, həmin sənədlər investisiya layihələrini əhatə edəcək. Avqustun 8-də Prezident İlham Əliyevin, ABŞ Prezidenti Donald Trampın və Ermənistanın Baş naziri Nikol Paşinyanın imzaladığı sənədin məntiqi nəticəsi kimi Cənubi Qafqazda iqtisadi fəallığın artırılması üçün imkanlar genişlənməkdədir".

AIIF-2025 göstərdi ki, Azərbaycanın iqtisadi inkişafının ana xətti "yaşıl" iqtisadiyyatın qurulmasıdır. Ölkə yalnız ənənəvi enerji resurslarına güvənmir, həm də alternativ enerji və davamlı inkişaf sahəsində yeni prioritetlər müəyyənləşdirir. Bu siyasət Azərbaycanın beynəlxalq nüfuzunu artıracaq, ixrac imkanlarını genişləndirəcək və ölkəmizi regionda "yaşıl" iqtisadiyyatın liderlərindən birinə çevirəcək.

***Nurlan ABDALOV***
***XQ***

### Ekspert rəyi



**Elman SADIQOV,**
**iqtisadçı- ekspert**

Azərbaycan son illərdə "yaşıl" enerji və "yaşıl" iqtisadiyyat strategiyası formalaşdırır. Bu, hazırda bütün dünyada, xüsusilə də inkişaf etmiş ölkələrdə geniş yayılmaqda olan bir tendensiyadır. Azərbaycan isə neft-qaz ölkəsi kimi böyük enerji resurslarına malik olmaqla yanaşı, gələcəkdə bu strategiyaya "yaşıl" enerji istiqamətini də əlavə etməyi qarşısına məqsəd qoyub və bu sahədə artıq konkret addımlar atılır. Ölkəmizin "yaşıl" enerji potensialı olduqca genişdir. Azərbaycan həm külək, həm də günəş enerjisi baxımından əlverişli imkanlara sahib olan dövlətlərdən biridir.

Xəzər dənizində külək enerjisi potensialı təxminən 150 qiqavat həcmində qiymətləndirilir. Bundan əlavə, quruda külək və günəş enerjisindən təxminən 27 qiqavat elektrik enerjisi hasil etmək mümkündür. Yalnız Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında 6–10 qiqavat "yaşıl" enerji istehsalı nəzərdə tutulur. İstehsal ediləcək elektrik enerjisinin isə təqribən 80 faizdən çoxunun ixraca yönəldilməsi planlaşdırılır. Əgər Azərbaycan bu göstəricilərin yalnız yarısını, yaxud üçdəbirini reallaşdırsa, bu, İsveç kimi bir ölkənin bir illik elektrik enerjisi tələbatını ödəmək deməkdir.

Yəni Azərbaycan "yaşıl" enerji potensialının üçdəbirini reallaşdırıb ixraca yönəltsə, nəticə etibarilə Avropanın böyük dövlətlərindən birinin illik enerji ehtiyacını ödəyə biləcək. Bu isə ölkəmizin nə qədər böyük potensiala sahib olduğunu sübut edir. Avropa İttifaqı gələcəkdə enerji təhlükəsizliyi məsələsini əsas hədəflərdən biri kimi müəyyənləşdirib. Çünki artıq alternativ enerji mənbələri ənənəvi yanacaq resurslarını əvəzləməyə başlayır. Növbəti onilliklərdə enerji təhlükəsizliyi elektrik enerjisi ilə ölçüləcək. Elektrik enerjisinə tələbat isə hər il sürətlə artır.

Bu artımın başlıca səbəbləri elektromobillərin çoxalması, sənayenin robotlaşdırılması, avtomatlaşdırma proseslərinin güclənməsi, rəqəmsallaşmanın sürətlənməsi və kriptovalyuta sektorunun inkişafı ilə bağlıdır. Bu amillərin hamısı böyük həcmdə elektrik enerjisinə ehtiyac yaradır. Deməli, gələcək tamamilə elektrik üzərində qurulacaq. Hər bir ölkənin inkişaf səviyyəsi də onun elektrik enerjisi ilə təminat imkanlarından asılı olacaq. Bu isə çox mühüm strateji faktordur.

### Ekspert rəyi



**Vüqar BAYRAMOV,**
**Milli Məclisin deputatı**

AIIF 2025 çərçivəsində "yaşıl" iqtisadiyyat məsələsinin gündəmdə olması olduqca təbiidir. Məlumdur ki, Azərbaycan enerji sektorunda innovativ sahələrin inkişafı dəstəklənir. Nəzərə alsaq ki, Azərbaycan regionda "yaşıl" enerjiyə ən çox investisiya cəlb edən ölkələrdən biridir, bu istiqamətdə atılan addımlar mühüm əhəmiyyət kəsb edir. Son illərdə ölkəmiz "yaşıl" enerji sahəsinə 1 milyard dollardan artıq xarici sərmayə cəlb edib.

Eyni zamanda digər aidiyyəti dövlət qurumları "yaşıl" enerji layihələrinin inkişafını yaxından dəstəkləyir. Ölkə başçısının müraciət mətnində qeyd olunduğu kimi, bu istiqamətdə vəsaitlər ayrılır, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının "yaşıl" enerji zonasına çevrilməsi üçün intensiv işlər davam etdirilir.

Bildiyiniz kimi, Azərbaycan "yaşıl" enerji ilə bağlı konkret hədəflərini açıqlayıb. Belə ki, 2030-cu ilədək ölkədə elektrik enerjisində yaşıl mənbələrin payının 35 faizə çatdırılması nəzərdə tutulur. Bununla yanaşı, karbon emissiyalarının 40 faizə qədər azaldılması planlaşdırılır.

Azərbaycan "yaşıl" enerji siyasətini genişləndirməklə yalnız ənənəvi məhsulların deyil, həm də innovativ texnologiyaların ixracını təmin etməyi hədəfləyir. Bu, ölkəmizin Avropa bazarlarında strateji tərəfdaş kimi rolunu daha da gücləndirəcək.

**Azərbaycanın "yaşıl" enerji sahəsində əsas tərəfdaşlarından biri olan Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti dəniz suyunun duzsuzlaşdırılması layihəsi üzrə də ölkəmizlə fəal əməkdaşlıq edəcək. Bu məqsədlə Bakıda keçirilən I Azərbaycan Beynəlxalq İnvestisiya Forumu (AIIF) çərçivəsində Azərbaycan hökuməti ilə Səudiyyə Ərəbistanı şirkəti arasında "Xəzər dənizində Suyun Duzsuzlaşdırılması Zavodunun layihələndirilməsi, tikintisi, istismarı və texniki xidməti üzrə saziş" imzalanıb.**

# "ACWA Power"in ölkəmizə "yaşıl" yatırımları artır




Sənədi Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov və "ACWA Power"in baş icraçı direktoru Marko Arselli imzalayıb. Saziş dizayn, tikinti, maliyyələşdirmə, istismar və texniki xidmət mərhələlərini əhatə edir. Layihə regionda su ehtiyatlarının səmərəli idarə olunmasına və içməli su təminatının artırılmasına yönəlib.

Bundan əlavə, forumda "Emal olunmuş suyun alınmasına dair saziş"də imzalanıb. Bu sənədə isə Zaur Mikayılov, İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidmətinin İdarə Heyətinin sədri Tahir Xəlilov və Marko Arselli imza atıblar. Forum çərçivəsində, həmçinin Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin Meliorasiya Elmi-Tədqiqat İnstitutu və Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti arasında su və torpaq sahəsində bilik və təcrübə mübadiləsi üzrə Anlaşma Memorandumu imzalanıb. Sənədi institutun İdarə Heyətinin sədri Mir Mövsüm Dadaşov və "ACWA Power"in Azərbaycan və Türkiyə üzrə Baş Meneceri Selim Güven imzalayıb. Saziş institutun fəaliyyət sahəsində elmi-texniki əməkdaşlığın gücləndirilməsinə yönəlib.

Yeri gəlmişkən, su ehtiyatlarından səmərəli istifadənin təkmilləşdirilməsi, içməli su təchizatının yaxşılaşdırılması və bu sahəyə yeni texnologiyaların cəlb olunması sosial-iqtisadi inkişafda mühüm əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkənin su təhlükəsizliyi, əhalinin içməli su ilə təminatının artırılması və bu sahəyə yeni texnologiyaların cəlb edilməsi məqsədilə 2023-cü il aprelin 12-də "Dəniz suyunun duzsuzlaşdırılması yolu ilə içməli su istehsalı sahəsində pilot layihənin həyata keçirilməsi tədbirləri haqqında" sərəncam imzalayıb.

Sənəddə Bakı şəhərinin və ətraf ərazilərin su təchizatının yaxşılaşdırılması üçün dəniz suyunun duzsuzlaşdırılması yolu ilə içməli su istehsalı sahəsində pilot layihənin həyata keçirilməsi nəzərdə tutulur. Həmin il aprelin 19-da isə Nazirlər Kabineti Prezident sərəncamının icrasının təmin edilməsi barədə müvafiq sənəd imzalayıb.

Ötən dövrdə qeyd edilən layihəyə dair tədbirlərin koordinasiyalı icrasının təmin edilməsi üçün aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə işçi qrup yaradılıb, layihənin icrası ilə bağlı məsələlər müzakirə olunub. Eyni zamanda, layihə üzrə müvafiq sənədlərin hazırlanması istiqamətində lazımi işlər aparılıb, investorların cəlb olunması üçün müsabiqənin keçirilməsi qərara alınıb. Bu məqsədlə İqtisadiyyat Nazirliyi tərəfindən dövlət-özəl tərəfdaşlığı çərçivəsində dəniz suyunun duzsuzlaşdırılması ilə içməli su istehsalı zavodu layihəsinin reallaşdırılması üçün 2024-cü il fevralın 8-də müsabiqə elan olunub.

Müsabiqəyə təqdim olunmuş təkliflərin texniki və maliyyə qiymətləndirilməsinin nəticələrinə görə, Səudiyyə Ərəbistanının "ACWA Power" şirkətinin rəhbərlik etdiyi konsorsiumun təklifi müsabiqədə 1-ci yeri tutub. Yeri gəlmişkən, "ACWA Power" şirkətinin rəhbərlik etdiyi konsorsiumun digər üzvü Türkiyənin "IC İÇTAŞ İNŞAAT SANAYİ VE TİCARET A.Ş." şirkətidir. Müsabiqədə 2-ci və 3-cü sıralarda isə müvafiq olaraq İsrailin "IDE Water Assets Ltd" və Birləşmiş Ərəb Əmirliklərinin "Metito Utilities Limited" şirkətləri yer alıb.

Qeyd edək ki, dəniz suyunun duzsuzlaşdırılması layihəsi İqtisadiyyat Nazirliyi tərəfindən dövlət-özəl tərəfdaşlığı çərçivəsində ölkədə icrası nəzərdə tutulan ilk pilot layihədir. Layihə çərçivəsində Sumqayıt Sənaye Parkında tikiləcək zavodda dəniz suyunun duzsuzlaşdırılması ilə içməli su istehsalı həyata keçiriləcək. Gündəlik 300 min kubmetr məhsuldarlığa malik layihənin dəyəri 407 milyon ABŞ dolları təşkil edir. Müqaviləyə əsasən zavodun layihələndirilməsi, tikintisi və 25 il müddətində istismarı "ACWA Power" tərəfindən həyata keçiriləcək.

Layihə Abşeron yarımadasının içməli suya artan tələbatını təmin etmək, şirin su mənbələrini şaxələndirmək məqsədilə həyata keçirilir. Hədəf dövlətin içməli su təchizatında yükünü azaltmaq, bu sahədə beynəlxalq təcrübəni və texnologiya transferini stimullaşdırmaq, iqtisadiyyata xarici sərmayələri cəlb etmək məqsədlərimiz sırasındadır.

Eyni zamanda, iqtisadiyyat naziri Mikayıl Cabbarov, nazirlik yanında İqtisadi Zonaların İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Seymur Adıgözəlov və M.Arselli "Torpaq icarəsi haqqında saziş"ə, maliyyə naziri Sahil Babayev və M.Arcelli "Dövlət zəmanəti haqqında saziş"ə imza atıblar.

Yeri gəlmişkən, "ACWA Power" şirkətinin Baş direktoru Marko Arçelli Bakıda keçirilən 1-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu çərçivəsində deyib ki, müqavilənin imzalanması təkcə dəniz suyunun duzsuzlaşdırılması zavodunu əhatə etmir. Burada söhbət həm də texnologiyanın, ideyaların gətirilməsindən və gələcəkdə fasiləsiz əməliyyat və texnoloji təkmilləşdirmələrdən gedir. "Artıq biz bərpaolunan enerjiyə də sərmayə qoyuruq. İlin sonuna qədər istifadəyə veriləcək 240 meqavatlıq "Xızı–Abşeron" Külək Elektrik Stansiyasını tikirik. Ümumilikdə, ölkəyə 750 milyon dollarlıq investisiya yatırılması reallaşacaq ki, bu da iqtisadiyyatı daha rəqabətqabiliyyətli, daha dayanıqlı etməyə və onu neft-qaz asılılığından şaxələndirməyə, turizmdən sənayeyə və digər xidmət sahələrinə qədər dünyanın müxtəlif yerlərindən yeni sahələri cəlb etməyə kömək edəcək".

Yeri gəlmişkən, 2004-cü ildə Səudiyyə Ərəbistanının Ər-Riyad şəhərində təsis edilmiş "ACWA Power" şirkəti suyun duzsuzlaşdırılması və "yaşıl" hidrogen sahələrində qabaqcıl özəl şirkətlərdən biridir. Şirkət Yaxın Şərq, Afrika, Mərkəzi Asiya və Cənub-Şərqi Asiya da daxil olmaqla 13 ölkədə fəaliyyət göstərir. 4 mindən çox işçi olan şirkətin portfeli istismarda olan, inkişaf etdirilən və tikilməkdə olan 94 layihədən ibarətdir. Həmin layihələrin sərmayə dəyəri 97 milyard ABŞ dolları təşkil edir. "ACWA Power" şirkəti 69 qiqavat enerji istehsalı və gündəlik 8 milyon kubmetr duzsuzlaşdırılmış su istehsal edir.

Xatırladaq ki, 2024-cü ilin sonlarında enerji keçidi sahəsində lider və dəniz suyunun duzsuzlaşdırılması üzrə dünyanın ən böyük özəl şirkəti olan "ACWA Power" Azərbaycanın İqtisadiyyat Nazirliyi ilə Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin birgə təşkil etdiyi "Dayaq" mükafatı tədbirində ilin "Fəal xarici şirkəti" adına layiq görülüb.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Cənubi Qafqazın regional identikliyi və inteqrasiyası

**II MƏQALƏ**



### Regional təşkilatlanmanın final mərhələsi

I məqalənin sonuncu tezisinə görə, Cənubi Qafqazda geosiyasi mənzərə 2020-ci il II Qarabağ müharibəsi və 2023-cü il antiterror tədbirləri sayəsində son bir neçə yüzildə ciddi surətdə dəyişməyə başladı. Azərbaycan regional geosiyasətdə əsrlərdir davam edən qeyri-konstruktiv regional geosiyasi quruluşu və onun pozucu funksiyasını dəyişdi. Cənubi Qafqaz tarixində ilk dəfə real regiona çevrilmək şansı əldə etdi. Bu, üç faktora sahib olmaq demək idi.

Birincisi, Cənubi Qafqaz beynəlxalq münasibətlərin aktiv iştirakçısına çevrilməyə başladı. Yəni region fəal geosiyasi aktor olmaq istiqamətində real irəliləyiş əldə etməkdədir.

İkincisi, Cənubi Qafqaz özünəməxsus regional identiklik istiqamətində mühüm irəliləyiş əldə etdi.

Üçüncüsü, regional miqyasda həyata keçən və bu anlamda beynəlxalq səviyyədə yoxlanıla bilən, qəbul edilən qərarlar qəbul etmək imkanı meydana gəldi.

Bu faktorların hər biri üzərində ayrıca dayanmaq lazım gəlir.

### Fəal regional aktor

Bu, son 3 əsrdə Cənubi Qafqazın qarşısına çıxan ilk geosiyasi fürsətdir. Zahirən sadə görünə bilən beynəlxalq münasibətlərin aktiv iştirakçısı olmaq, reallıqda ağır funksional vəzifə yerinə yetirmək deməkdir. Burada başlıca əlamət regionun vahid sistem kimi beynəlxalq münasibətlərin subyekti olmaqla bağlıdır. Ayrıca dövlət kimi bu statusa nail olmağın təcrübəsi mövcuddur. Lakin bütöv region olaraq müasir mürəkkəb situasiyada beynəlxalq münasibətlərin subyekti olmaq olduqca çətin məsələdir. Çünki bu prosesə ilk növbədə dünyanın böyük geosiyasi gücləri ciddi müqavimət göstərirlər.

Cənubi Qafqaz indi də həmin təzyiq və manelərdən kənarda deyildir. ABŞ, Aİ, Rusiya, İran və başqa güclü aktorlar müxtəlif üsullarla Cənubi Qafqazın bütöv region kimi dünya siyasətində yer almasına əngəllər törədirlər. Onlar son illər (2020-ci ildən sonra) əsasən Ermənistan və Gürcüstana təsirlər vasitəsi ilə bunu etməyə çalışırlar. Burada geosiyasi aspektdə təsir vektorunun və qüvvəsinin dəyişməsi diqqəti çəkir.

Çünki öncəki dövrlərdə daim Azərbaycana təzyiq və təsirlər olurdu. Onları birləşdirən ümumi cəhət Azərbaycanı daim günahkar çıxarmaq cəhdi idi. Son 300 ildə, hətta 2025-ci ilin əvvəllərinə qədər Azərbaycana tutulan iradların fonunda digər iki yerli dövlətin maraqlarının birtərəfli qaydada nəzərə alınmadığı halı olmamışdı, Həmişə Azərbaycan ya Ermənistan, ya da Gürcüstanla müqayisədə "günahkar" kimi göstərilirdi. Nümunələr gətirə bilərik.

XVII əsrin ikinci yarısından Azərbaycan öz ərazisində erməni dövləti yaratmağa və kənardan onları gətirib özünün tarixi ərazilərində yerləşdirməyə "borclu" kimi göstərilirdi. Buna etiraz olanda Azərbaycan (Səfəvinin timsalında) antisivil, günahkar, insan haqlarını pozan dövlət kimi təqdim olunurdu. Həmin süni iddia "hüquqi, siyasi, ideoloji və geosiyasi əsaslandırılır" və bütün metodlardan istifadə edərək Azərbaycana təcavüz edilir, insanları yurdlarından didərgin salır, onları kütləvi məhv edir və yerlərinə erməniləri gətirirdilər.

Çar Rusiyası dövründə bu proses daha da intensivləşdi və özünün hiyləgər, amansız formasına SSRİ vaxtında keçid etdi. Nəticədə indiki hesablamalara görə 6 milyon qərbi azərbaycanlı deportasiyaya uğradı, Azərbaycanın 29 min kvadratkilometrlik tarixi ərazisində qondarma Ermənistan yaradıldı və faktiki olaraq Cənubi Qafqazın təbii tarixi, coğrafi, siyasi, mədəni və geosiyasi özəlliyi dəyişdi. Artıq hər kəs bu regionda üç dövlətdən danışır. Bu xüsusiyyət Cənubi Qafqazın Hettne mənasında regional özünütəşkilatlanmasına açıq və ya gizli surətdə çox ciddi süni əngəllər yaratmaqdadır. Lakin artıq bu ümumi coğrafi və siyasi mənzərəni dəyişmək imkansızdır – Ermənistan olmadan regional bütövlükdən danışmaq mümkün deyildir.

Dərinlərdə həm də məhz bu səbəbdəndir ki, II Qarabağ müharibəsi və ondan üç il sonra antiterror tədbirləri ermənilərin və onların havadarlarının təhrif olunmuş siyasi və geosiyasi psixologiyalarını sındırdı. Onlar hələ də tam olaraq qəbul edə bilmirlər ki, birincisi, erməni dövləti burada süni yaradılmışdır və buna görə də tarixi faktlara çox baş vurmasınlar, ikincisi, Azərbaycan böyük humanizm nümayiş etdirərək beynəlxalq hüququn normalarına ciddi əməl edir və müasir beynəlxalq hüququn şərtlərini öz tarixi haqqını tələbə proyeksiya etmir. Bu dövləti baxımdan çox incə məsələdir və burada üzərində çox dayanmağa ehtiyac yoxdur.

Cənubi Qafqazın geosiyasi aktor kimi bütövləşməsində və gerçək oyunçuya çevrilməsi üçün yeganə manеə erməni məsələsi deyildir. Bu məsələ əsrlərlə başqa bir faktorla çulğalaşmışdır. Həmin faktor regionda və ona yaxın geosiyasi məkanda yerləşən güclü dövlətlərin öz maraqları çərçivəsində daim buralara ciddi təsirlər göstərməsi ilə bağlıdır.

Təcrübə göstərir ki, Türkiyəni çıxmaq şərti ilə onların başlıca geosiyasi məqsədi Ermənistan və Gürcüstanı Cənubi Qafqazda əsas qüvvəyə çevirmək və Azərbaycanı hər ikisindən asılı vəziyyətə salmaqdan ibarət olmuşdur. Bu, çar Rusiyasında bir formada, sovet dönəmində isə başqa formada olmuşdur.

Belə bir yanaşma Cənubi Qafqazın təbii coğrafi, siyasi, geosiyasi, mədəni və dövlətçilik xüsusiyyətlərinə tamamilə zidd olduğuna görə heç zaman özünü doğrultmamış və regionu bütövləşdirməmişdir. Bu prosesin süniliyi özünü müstəqillik mərhələsində çox aydın göstərmişdir. Azərbaycan ciddi böhrandan çıxaraq regionun siyasi, təhlükəsizlik, əməkdaşlıq və geosiyasi ritmini idarə etməyə başlamış və çox ciddi uğurlar əldə etmişdir. İndi Gürcüstan Azərbaycanın strateji tərəfdaşı və enerji sferasında ən yaxın partnyorlarından biridir.

Gürcüstanın enerji və milli təhlükəsizliyi Azərbaycandan çox ciddi surətdə asılıdır. Ermənistanın regional təhlükəsizlik və əməkdaşlıq müstəvisinə Azərbaycan tərəfdən gətirilməsi isə ayrıca siyasi, geosiyasi və təhlükəsizlik fenomenidir. Bu, olduqca çətin vəzifənin öhdəsindən Bakının gəlməsi xüsusi tədqiq edilməlidir. Cənubi Qafqazın geosiyasi aktor kimi formalaşmasında ciddi əhəmiyyəti olan bu məsələ üzərində geniş dayanaq.

### Regional inteqrasiya və ermənilərin havadarları

1988-ci ildən azərbaycanlıların Qərbi Azərbaycandan (indi "Ermənistan" adlanır) kütləvi deportasiyasına nə sovetlərin, nə də Qərbin siyasi dairələrinin mənfi reaksiya verməməsi ermənilərdə siyasi və hüquqi özünə əminlik hissini daha da gücləndirdi. Havadarlarının ciddi dəstəyi ilə Qarabağın bir hissəsini işğal etməklə Ermənistan özünü dövlət saydı və o səviyyədə də Azərbaycanın haqlarını heç tanımaq istəmədi. Buna beynəlxalq miqyasda ona havadarlıq edənlərin alçaq siyasi-diplomatik oyunları ayrıca təkan verdi.

Bununla çox qısa müddətdə həm Ermənistanda, həm də ona havadarlıq edənlərin şüurunda təhrif olunmuş bir obraz formalaşdı – Qarabağ da daxil olmaqla Azərbaycanın bütün ərazisi ermənilərə məxsusdur və ona sahiblənmək üçün hərbi təcavüzü davam etdirmək kifayətdir. Həmin ağılla ermənilər və onlara dəstək verənlər Azərbaycanı günahkar hesab edən sənədlər hazırladılar (məsələn, indi tarixin arxivinə atılan "907-ci düzəliş" o qəbildən idi), elə beynəlxalq qrup yaratdılar ki, reallıqda erməni təcavüzünə haqq qazandırmağa başladı (ATƏT-in bədnam Minsk qrupu və onun sədrləri).

Bu mexanizmlər fonunda ermənilər Azərbaycana müxtəlif aspektlərdə təcavüzlərini davam etdirirdilər. Əlbəttə, belə bir şəraitdə Cənubi Qafqazın region kimi bütövlüyündən danışmaq absurd bir məşğuliyyət idi. Üstəlik, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü saxlamaqla edilən hər bir təklifə rədd cavabı verirdi. Aydın görünürdü ki, son yüzillərdə davam edən regionu parçalamaq prosesini daha da genişləndirmək və Cənubi Qafqaza tamamilə qondarma siyasi geosiyasi və ərazi formatı sırımaq prosesi gedir. Əgər ona nail olsalar idi, bu region heç zaman Hettne mənasında final mərhələyə çata bilməyəcəkdi.

### "Dəmir yumruq"

Regionun xilası baxımından bu, çox gözəl termindir. Azərbaycanın "dəmir yumruğu" olmasa idi, indi də dağıdıcı qüvvələr bu regionda "at oynadırdılar". II Qarabağ müharibəsi region üçün əsrlərdir hökm sürən geosiyasi köləlikdən xilas olmaq uğrunda aparılan müqəddəs savaş idi. Azərbaycanın "dəmir yumruğu" Ermənistan və onun havadarlarının başına elə ciddi hərbi zərbə vurdu ki, 300 illik xülyaları cəmi 44 günə yox oldu! Bu tarixi faydalı hadisənin geniş və dərin təhlili hələ irəlidədir, lakin indidən onun siyasi, geosiyasi, demoqrafik və mədəni təsirlərini dünya hiss edir. Qarabağ sürətlə yenidən qurulur, insanlar öz yurdlarına qayıdırlar, dünyanın müxtəlif şirkətləri ora sərmayələr qoyurlar. Bu möhtəşəm quruculuq prosesinin fonunda Azərbaycan Prezidenti Cənubi Qafqazı birləşdirən, onun kollektiv müdafiə sistemini yaradan səmərəli addımlar atır. İndi "dəmir yumruq" regional təhlükəsizliyin kollektiv surətdə təmini mənasında yeni anlam almaqdadır. Onun üç əlamətini göstərə bilərik.

Birincisi, işğaldan azad edilmiş ərazidə geniş və sürətli quruculuq işləri aparılır. Bununla Qarabağın, bütövlükdə Azərbaycana reinteqrasiyası sürətlə davam edir.

İkincisi, Laçında Azərbaycan-Türkiyə-Pakistan strateji əməkdaşlıq formatı reallaşdı və dünyaya bəyan edildi. Bu da ümumilikdə regional təhlükəsizliyə ciddi bir töhfədir.

Üçüncüsü, Qarabağda mötəbər beynəlxalq tədbirlər keçirilir və dünyanın siyasi liderləri, iş adamları, media təmsilçiləri onlarda iştirak edirlər. Həmin tədbirlərdə bütövlükdə Cənubi Qafqazı əhatə edən mühüm qərarlar qəbul edilir.

Beləliklə, Azərbaycanın hərb meydanında tətbiq etdiyi "dəmir yumruq" postmüharibə mərhələsində sülhyaratma prosesində əhəmiyyətli təsiredici faktor kimi özünü təsdiq etməkdədir. Buradan Cənubi Qafqazın regionlaşması baxımından çox əhəmiyyətli olan bir məqama keçməliyik. Biz, postmüharibə mərhələsində Cənubi Qafqazda inteqrasiya və təhlükəsizliyin təminində Azərbaycanın aparıcı rolunun təhlilini nəzərdə tuturuq.

### İkinci mərhələ

Hərb meydanında ağır məğlubiyyətə uğramış Ermənistan və onun havadarları Cənubi Qafqazda geosiyasi dinamika və mənzərənin dəyişməsinə mane olmaq üçün başqa üsullara əl atmağa başladılar. Onlar müxtəlif yollarla yenə də Azərbaycanı günahkar çıxarmağa cəhdlər edirlər. Bu işdə əvvəllər daha çox ABŞ, Avropa və İran canfəşanlıq edirdi. Sonra onlara Hindistan da qoşuldu. Onlar Ermənistana silah verir, onu yeni təxribatlara təhrik edir və regional sabitliyi pozmağa çalışırdılar. Bunun üçün sərhədə "mülki qrup" göndərdirlər, Azərbaycanın daxilində müxtəlif bəhanələrlə qeyri-sabitlik yaratmağa cəhdlər etdilər.

Buna paralel olaraq Ermənistan siyasi-diplomatik sferada pozucu addımlar atdı. Məsələn, "3+3"-ə alternativ olaraq "kəsişən dünyalar" kimi absurd ideya ortaya atdı. Konstitusiyada dəyişiklik etməyi uzatdı, sözdə sülhdən bəhs etdi, əməldə isə tamam əksinə davrandı. Bu proses qismən indi də davam edir. Belə görünür ki, rəsmi İrəvan Vaşinqtonda əldə edilən razılaşmalara tam əməl etmək fikrində deyil.

Regional inteqrasiya və identifikasiya uğrunda bu ikinci mərhələdə Azərbaycanın mücadiləsi olduqca əhəmiyyətlidir. Onun üzərində ayrıca dayanmaq gərəkdir.

*(ardı var)*

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

---

**Qlobal siyasətdə Fransa artıq nüfuzunu itirir. Bir çox hallarda Makron hökumətinin neoimperialist siyasətinin uğursuzluğu açıq şəkildə özünü göstərir. İşin maraqlı tərəfi odur ki, Fransa hələ də müstəmləkələr üzərində nəzarəti qorumağa çalışır. Bunun üçün istifadə etdiyi diplomatik və zorakı vasitələr etirazlara səbəb olur, insan haqlarını məhdudlaşdıran addımlar müstəmləkələrdə kütləvi narazılığı gücləndirir. Makron administrasiyası etirazları idarə etməkdə çətinlik çəkir, Fransa ənənəvi müstəmləkələrində təsir imkanlarını sürətlə itirir. Uzun illər Parisin nəzarəti altında olan ölkələr suverenlik uğrunda mübarizələrini gücləndirirlər. Onlar Fransa ilə əlaqələri azaldır, hərbi kontingenti ərazilərindən çıxarırlar.**

# Yeni müstəmləkəçilik bumeranqa çevrilib

## *Bu siyasət Fransaya baha başa gəlir*

Müstəmləkələrdən qovulma Fransa iqtisadiyyatına birbaşa təsir göstərir, xammal defisiti yaradır. Paris uzun illər müstəmləkələrindən əldə etdiyi xammal üzərində iqtisadi üstünlük qurmuşdu. Neoimperialist siyasətin iflası Fransanı Afrika və digər xarici ölkələrdən tədarük olunan urandan da məhrum edib. Bu, ölkənin nüvə enerjisi istehsalını risk altında qoymaqla yanaşı, enerji sektorunda defisit yaradıb. Çünki nüvə enerjisi elektrik istehsalının 70 faizindən çoxunu təşkil edir və uran tədarükündə yaranan hər hansı məhdudiyyət enerji təhlükəsizliyinə birbaşa təsir göstərir. Ümumilikdə müşahidə olunan xammal qıtlığı sosial siyasətə də təzyiq göstərir. İstehsalın azalması, idxal-ixrac balansının pozulması, strateji resursların çatışmazlığı hökuməti yeni iqtisadi və diplomatik addımlar atmağa məcbur edir.



Tarix təkrarlanır. 1950–60-cı illərdə də müstəmləkələrindən məhrum olması Fransanın xammal təminatına birbaşa təsir göstərmişdi. Əlcəzairin 1962-ci ildə müstəqillik qazanması ilə rəsmi Parisin uran və neft tədarükündə ciddi defisit yaranmışdı. Həmin dövrdə Niger və Mali kimi Afrika ölkələrindən gələn qızıl, dəmir resursları da Fransa sənayesi üçün əhəmiyyət daşıyırdı. Xammal itkisi Fransanın sənaye və enerji sektorunu risk altına qoymuş, iqtisadi fəaliyyətin səmərəliliyini azaldaraq daxildə gərginliyi artırmışdı. Qabon, Kamerun, Mavritaniya, ÇAD-ın Fransa neokolonializmindən qurtulması neft, qızıl, mis və digər metal resurslarının tədarükündə fasilələr yaratmışdı. Fransanın Avropa İttifaqı daxilindəki mövqeyi də zəifləyir. Almaniya və İtaliya xammal bazarında üstünlük əldə edir və Parisin Avropadakı liderlik imkanlarını məhdudlaşdırır. Fransanın daxili siyasətində və iqtisadi strukturunda baş verən dəyişikliklər cəmiyyətə də dərhal təsir göstərməyə başlayıb. Makron hakimiyyəti büdcə xərclərini ciddi şəkildə ixtisar edərək sosial və humanitar sahələr üçün ayrılan vəsaiti məhdudlaşdırıb. Belə bir şəraitdə Fransa iqtisadiyyatının çöküş mərhələsində olması həm sosial təminat, həm də əhalinin rifahının ciddi şəkildə azalmasına gətirib çıxarıb. Cəmiyyətin müxtəlif təbəqələri hökumətin iqtisadi siyasətindən narazıdır və bu narazılıq xüsusilə az gəlirli və orta təbəqələrdə daha kəskin görünür. Artan sosial xərclər, hökumət dəstəyinin məhdudlaşdırılması və hərbi büdcəyə yönələn prioritetlər vətəndaşların gündəlik həyatını çətinləşdirib. Son günlər ölkədaxili vəziyyət xüsusilə gərginləşib. Fransada "sarı jiletlilər"in qiyamı dövründə müşahidə olunan etiraz hərəkatları yenidən təkrarlanır. Ölkəni genişmiqyaslı tətil dalğası bürüyüb və Makron hakimiyyətinə qarşı sosial narazılıq kütləvi aksiyalara çevrilib. Küçələrə axışan vətəndaşlar həm hökumətin iqtisadi siyasətini, həm də sosial təminatın azaldılmasını tənqid edir, dərhal siyasi qərarlarda dəyişiklik tələb edirlər. Hazırda kütləvi etirazlar Fransanın 250-dən çox şəhərində müxtəlif səviyyədə davam edir və həyatı iflic vəziyyətinə salıb. Son aksiyalara bir milyondan artıq vətəndaş qoşulub. Bu, Fransada siyasi iştirakçılığın genişləndiyini və hökumətə qarşı ictimai reaksiyanın kəskinləşdiyini göstərir. Kütləvi etirazlar sosial-iqtisadi narazılıqla yanaşı, siyasi təzyiq vasitəsinə çevrilib. Vətəndaşlar Makron hökumətinin istefa və qərarların dərhal dəyişdirilməsini tələb edirlər. Rəsmi Paris həm daxili, həm də xarici siyasətdə koordinasiyanı təmin etməkdə çətinlik çəkir. Bu, Makronun strategiyasının həm sosial, həm də iqtisadi səviyyədə uğursuzluğunun əyani sübutudur.

Baş verən hadisələrin qarşısında Makron çaşbaş qalıb. Daxildəki etirazların qarşısını almaq üçün yüz minə yaxın polis və jandarm qüvvəsi səfərbər edilib. Kütləvi etiraz aksiyalarına qatılan vətəndaşlara qarşı zorakı tədbirlər görülür, çoxsaylı həbs hallarının baş verməsi narazılığı daha da artırır. Polis qüvvələrinin genişləndirilməsinə baxmayaraq, rəsmi Paris etirazlara nəzarəti saxlamaqda çətinlik çəkir. Bu isə Fransanın bir çox şəhərində aksiyaların artıq kütləvi iğtişaşlara çevrilməsi ilə nəticələnir. Paytaxt Paris xüsusi olaraq gərgin vəziyyətlə üzləşib. Şəhərdə həyat iflic olub, etirazçılar həm dövlət, həm də özəl obyektlərə basqınlar edərək böyük dağıntılar törədirlər. Bu, hökumətin daxili siyasət strategiyasının səmərəsizliyini göstərir və sosial-siyasi böhranın dərinləşdiyini ortaya qoyur. Makron hakimiyyətinin qərarları və iqtisadi siyasət addımları cəmiyyət tərəfindən qeyri-humanist və ədalətsizlik kimi qəbul edilir.

Sonda demək olar ki, Fransanın müstəmləkələrdə uzun illər davam etdirdiyi zorakı müdaxilə siyasəti indi "bumeranq" effekti kimi hökumətə geri dönür. Makron hökuməti bu gün neokolonializm siyasətinin karmasını yaşayır.

***Nəzrin ELDARQIZI***
***XQ***

---

### Ekspert rəyi



**Yeganə HACIYEVA,**
**politoloq**

Müstəmləkəçilik Fransa dövlətçiliyinin əsas sütunlarından biridir. Tarixin bütün mərhələlərində ideologiya dəyişsə də, onun mahiyyəti dəyişməyib. Bu gün Fransa hələ də müxtəlif xalqları müstəmləkəçilik siyasəti əsasında istismar edir, əsarət altında saxlayır. Son illər Emmanuel Makronun uğursuz və səriştəsiz fəaliyyəti nəticəsində Fransa həm daxili, həm də xarici siyasətdə ciddi parçalanmalarla üzləşib. Daxildə Fransa cəmiyyətini birləşdirən ümumimilli dəyərlər sıradan çıxarılıb. Nəticədə daxili parçalanmalar Fransanın xarici siyasətinə də sirayət edib. Çünki daxili böhranlar nəzərə alınmadan yürüdülən xarici siyasət iqtisadi geriləməyə gətirib çıxarır. Büdcə kəsirləri, sosial ehtiyacların artması və kütləvi etirazlar məhz bu səbəbdən yaranıb. Fransa defisitə nəzarət mexanizmi tətbiq etmədiyi üçün təhlükə ilə üzləşib. Ölkənin xarici borcu ÜDM-in 110 faizinə yaxındır və dövlət borcuna xidmət baha başa gəlir. Bunun səbəblərindən biri Emmanuel Makronun Fransa tarixinin ən zəif və ən səriştəsiz prezidenti olmasıdır. Tarixən bütün qüsurlarına baxmayaraq, Fransanın beynəlxalq imici vardı – insan haqları və demokratiya kimi dəyərlər üzərində qurulmuş saxta bir "fasad". Makron idarəçiliyi dövründə bu fasad tamamilə uçub. Fransanın "demokratik imici"nin, əslində, yalnız xarici təqdimat üçün uydurulmuş görüntü olduğu bir daha üzə çıxdı. Bugünkü etirazların əsas səbəbi məhz Makronun şəxsi səriştəsizliyidir. Sosial ziddiyyətlər və fikir ayrılıqları getdikcə daha da dərinləşir və bu qarşıdurma Fransanı daxili parçalanmaya aparır. Əslində, rəsmi Paris artıq parçalanma prosesinə qədəm qoyub. Müstəmləkələrindən biri bu il müstəqilliyini qismən elan etdi. Prosesin davamında digər bölgələr müstəqillik tələb edəcək. Bu isə Fransanı qarşıda daha da çətin sınaqların gözlədiyini göstərir.

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında 2025-ci ilin oktyabr ayında vətəndaşların qəbulu

# CƏDVƏLİ

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| Baş nazirin birinci müavini<br>Eyyubov Yaqub Abdulla oğlu | 1 |
| Baş nazirin müavini<br>Mustafayev Şahin Abdulla oğlu | 2 |
| Baş nazirin müavini<br>Şərifov Samir Rauf oğlu | 3 |
| Aparatın rəhbəri<br>Məmmədov Rüfət Tofiq oğlu | 6 |
| İqtisadiyyat şöbəsinin müdiri<br>Həsənova Sevinc Telman qızı | 7 |
| Xarici iqtisadi əlaqələr şöbəsinin müdiri<br>Rüstəmli Ruslan Rüstəm oğlu | 30 |
| Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri<br>Paşayev Zakir İlqar oğlu | 9,23 |
| Hüquq və qanunvericilik şöbəsinin müdiri<br>Qasımlı Xalid Akif oğlu | 10,24 |
| Sosial məsələlər şöbəsinin müdiri<br>Rəhimov Niyazi Süleyman oğlu | 13,27 |
| Humanitar məsələlər şöbəsinin müdiri<br>Həbibbəyli Ərəstü İsa oğlu | 14 |
| Sənaye və energetika şöbəsinin müdiri<br>Hacızadə Elşən Mahmud oğlu | 15,28 |
| Aqrar və ekologiya şöbəsinin müdiri<br>Qasımov Lətif Cəfər oğlu | 16,29 |
| Regionların inkişafı şöbəsinin müdiri<br>Məcidov İlkin Sabir oğlu | 17 |
| Tikinti, şəhərsalma və kommunal təsərrüfat şöbəsinin müdiri<br>Mustafayev Feyruz Rəvayət oğlu | 20,31 |
| Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinin müdiri<br>Pənahov Musa Sədi oğlu | 21 |
| Təhlükəsizlik, müdafiə və səfərbərlik şöbəsinin müdiri<br>Məmmədov Anar Rəhim oğlu | 8,22 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Qəbul otağında qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Səbail rayonu, Lermontov küçəsi, 68.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: (012)492-19-23, (012)492-88-96.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 271** **Bakı şəhəri, 18 sentyabr 2025-ci il**

**"Minatəmizləmə fəaliyyətinə dair Tələblər"in təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Minatəmizləmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2024-cü il 13 dekabr tarixli 90-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 3 fevral tarixli 316 nömrəli Fərmanının 2.4.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

"Minatəmizləmə fəaliyyətinə dair Tələblər" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 274** **Bakı şəhəri, 18 sentyabr 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 28 sentyabr tarixli 178 nömrəli Qərarı ilə təsdiq edilmiş "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli 646 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 30 sentyabr tarixli 1050 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 fevral tarixli 343 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 28 sentyabr tarixli 178 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 9, maddə 869 (Cild I); 2024, № 1, maddə 80, № 3, maddə 307, № 4, maddə 450, № 5 (II kitab), maddə 585, № 7, maddə 902, № 9, maddələr 1048, 1063; 2025, № 2, maddə 187) ilə təsdiq edilmiş "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nın 43-cü hissəsi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 275** **Bakı şəhəri, 22 sentyabr 2025-ci il**

**Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddətinin uzadılması haqqında**

"Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları"na əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2026-cı il 1 yanvar saat 06:00-dək uzadılsın.

**2.** "Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 9, maddə 1209 (Cild I); 2024, № 3, maddə 308, № 6 (II kitab), maddə 732, № 9, maddə 1103, № 12 (II kitab), maddə 1450; 2025, № 3, maddə 295, № 4, maddə 600) 1.1-ci bəndində "2025-ci il 1 oktyabr" sözləri "2026-cı il 1 yanvar" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.az saytlarında tanış ola bilərsiniz.***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 272** **Bakı şəhəri, 18 sentyabr 2025-ci il**

**Bir sıra müəssisələrin Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyinə verilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 19 dekabr tarixli 549 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nda və 2023-cü il 20 iyun tarixli 200 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət əmlakının idarə edilməsinin təkmilləşdirilməsi üzrə Dövlət Proqramı"nın 7.11-ci bəndinə və "Azərbaycan Respublikasında balıqçılığın və akvakulturanın inkişafı ilə bağlı əlavə tədbirlər və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 dekabr tarixli 253 nömrəli Fərmanının 4.1.3-cü yarımbəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində olan Azərbaycan Təcrübəvi Dəniz Balıqartırma Zavodu, Çaykənd Qızılbalıqartırma Zavodu, Kiçik Qızılağac Balıqartırma Təsərrüfatı, Tovuz Balıqartırma Təsərrüfatı və "Xıllı balıq" Məhdud Məsuliyyətli Cəmiyyəti ştat vahidləri və onlara məxsus əmlakla birlikdə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyinə verilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 19 dekabr tarixli 549 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (II kitab), maddə 2745 (Cild I); 2025, № 2, maddə 195) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.10.4-cü yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və həmin bölməyə aşağıdakı məzmunda 1.11-ci bənd əlavə edilsin:

"1.11. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Balıqçılıq və Akvakultura Mərkəzi"nin tabeliyindəki qurumlar:

1.11.1. Azərbaycan Təcrübəvi Dəniz Balıqartırma Zavodu;
1.11.2. Çaykənd Qızılbalıqartırma Zavodu;
1.11.3. Kiçik Qızılağac Balıqartırma Təsərrüfatı;
1.11.4. Tovuz Balıqartırma Təsərrüfatı;
1.11.5. "Xıllı balıq" Məhdud Məsuliyyətli Cəmiyyəti.";

2.2. 3.3.1-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 3.4-cü bənd əlavə edilsin:

"3.4. "Balıqçılıq və Akvakultura Mərkəzi" publik hüquqi şəxs.".

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 iyun tarixli 200 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 6, maddə 862 (Cild I); 2024, № 9, maddə 1091) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı"nın 1.1.19-cu, 1.1.21-ci, 1.1.23-cü, 1.1.24-cü və 1.1.25-ci yarımbəndləri ləğv edilsin.

**4.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi bu Qərardan irəli gələn məsələləri qanunvericilikdə nəzərdə tutulmuş qaydada həll etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Daxili İşlər Nazirliyində müşavirə





**Sentyabrın 22-də Daxili İşlər Nazirliyində ölkəmizdə keçiriləcək III MDB Oyunları müddətində ictimai asayişin mühafizəsinin təşkili və qarşıda duran vəzifələrə həsr olunmuş videokonfrans formatında nazir-yanı əməliyyat müşavirəsi keçirilib.**

Müşavirəni giriş sözü ilə açan nazir general-polkovnik Vilayət Eyvazov Azərbaycanın son illər bir çox nüfuzlu idman yarışlarına ev sahibliyi etdiyini, daxili işlər orqanlarının belə tədbirlərdə ictimai təhlükəsizliyin və ictimai asayişin təmini sahəsində böyük təcrübə qazandığını diqqətə çatdırıb.

"2025-ci ildə Müstəqil Dövlətlər Birliyinin idman paytaxtı" elan edilən Gəncə şəhərində və ölkəmizin digər 6 şəhərində sentyabrın 28-dən oktyabrın 8-dək müddətdə keçiriləcək III MDB Oyunları müddətində gücləndirilmiş iş rejimində xidmət aparacaq polis əməkdaşlarının və Daxili Qoşunların hərbi qulluqçularının qarşıya qoyulan vəzifələri yüksək səviyyədə yerinə yetirmələrinin vacibliyi qeyd olunub.

V.Eyvazov ölkəmizin ev sahibliyi edəcək bu əhəmiyyətli idman tədbiri ərəfəsində və günləri zamanı da iştirakçıların, azarkeşlərin, ölkəyə gələn qonaqların və xarici media nümayəndələrinin təhlükəsizliyinin təmin edilməsi, oyunların keçirildiyi və ətraf ərazilərdə ictimai qaydanın qorunması, buraxılış məntəqələrində təhlükəsizliyin gücləndirilməsi, eləcə də insanların rahat, maneəsiz hərəkət etmələri üçün əlverişli şəraitin təmin edilməsi barədə tələb və tövsiyələrini verib.

***XQ***

# "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" üzrə namizədlərin seçimi başa çatıb




**Azərbaycan Prezidentinin 2023-cü il 8 iyul tarixli sərəncamına uyğun olaraq, Xarici İşlər Nazirliyi və Elm və Təhsil Nazirliyinin birgə icra etdiyi "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" proqramının 2025-2026-cı tədris ili üzrə namizədlərin seçimi başa çatıb.**

Proqrama müraciət etmiş 64 ölkədən yüzlərlə namizəd sırasından 51 ölkə üzrə 100 nəfər təhsil qrantına layiq görülüb.

Seçilmiş namizədlər, əsasən ADA Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı Dövlət Universiteti, Bakı Ali Neft Məktəbi, Bakı Mühəndislik Universiteti, Naxçıvan Dövlət Universiteti, Milli Aviasiya Akademiyası və Xəzər Universiteti olmaqla, Azərbaycanın 9 ali təhsil müəssisəsində müxtəlif təhsil səviyyələrində təhsil alacaqlar.

Qeyd edək ki, bu proqrama əsasən, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatına üzv ölkələr, İnkişaf etməkdə olan Kiçik Ada Dövlətləri qrupuna daxil olan ölkələr və xalqımızla etnik, tarixi və mədəni bağlara malik xalqların və milli azlıqların yaşadığı ölkələrin vətəndaşlarının 5 il ərzində Azərbaycanın ali təhsil müəssisələrində müxtəlif təhsil səviyyələri üzrə təhsil almaları nəzərdə tutulub. Proqramın şərtlərinə əsasən, illik əsasda 100, ümumilikdə 500 nəfər xarici ölkə vətəndaşları üçün təhsil qrantının ayrılması nəzərdə tutulur.

***XQ***

# Əhsən yanğınsöndürənlər!

## *Fəlakət ocağı sürətlə söndürülüb*

**Sentyabrın 22-də Fövqəladə Hallar Nazirliyinin "112" qaynar telefon xəttinə Bakı şəhərinin Yasamal rayonu ərazisində yerləşən çoxmərtəbəli yaşayış binasında yanğın baş verməsi barədə məlumat daxil olub. Dərhal əraziyə FHN-in Dövlət Yanğından Mühafizə və Xüsusi Riskli Xilasetmə xidmətlərinin qüvvələri cəlb olunub.**

Nazirlikdən verilən məlumata görə, yanğınsöndürənlərin çevik müdaxiləsi sayəsində 16 mərtəbəli yaşayış binasının doqquzuncu mərtəbəsində yerləşən mənzildə baş vermiş yanğın genişlənməsinə, o cümlədən digər mənzillərə keçməsnə imkan verilmədən qısa müddətdə söndürülüb.

Yanğın nəticəsində ümumi sahəsi 50 kvadratmetr olan ikiotaqlı mənzilin yanar konstruksiyaları, onuncu mərtəbədə yerləşən mənzilin eyvanında kombi aparatının boruları, 1 kvadratmetr sahədə məişət tullantıları, həmçinin onbirinci mərtəbədə yerləşən mənzilin eyvanında 1 $m^2$ sahədə məişət tullantıları yanıb.




Yaşayış binasında yerləşən digər mənzillər yanğından mühafizə olunub. Təhlükəsizlik tədbirləri çərçivəsində 25 nəfər bina sakini təxliyə olunub. Xəsarət alan yoxdur.

***XQ***

*Konstitusiya və Suverenlik İli*

# Prokurorluq orqanları da dövlət suverenliyinin keşikçiləridir

*“Suverenliyin keşiyində: Konstitusiyada Prokurorluğun statusu” mövzusunda beynəlxalq konfransdan qeydlər*

**Sentyabrın 22-də Bakıda “Konstitusiya və Suverenlik İli” çərçivəsində, eləcə də Azərbaycan Prokurorluğunun peşə bayramı və 107 illik yubileyi ərəfəsində Azərbaycan Respublikası Baş Prokurorluğunun təşkilatçılığı ilə “Suverenliyin keşiyində: Konstitusiyada Prokurorluğun statusu” mövzusunda dəyirmi masa formatında beynəlxalq konfrans öz işinə başlayıb. Konfransda Uqanda, Laos, Tanzaniya, Keniya Baş prokurorları və Türkiyə Baş Prokurorluğunun nümayəndələri iştirak edirdilər.**



Qonaqlar konfransın rəsmi hissəsinə keçməzdən əvvəl Azərbaycan Respublikası Prokurorluğunun 107 ildə keçdiyi şərəfli yolu əks etdirən “Baş prokurorluq –107 il” qısametrajlı sənədli filminə tamaşa etdilər. Sonra Baş prokuror Kamran Əliyev tribunaya qalxıb Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin beynəlxalq konfrans iştirakçılarına müraciətini səsləndirdi.

Dövlət başçısının qəzetimizin bugünkü sayında da dərc edilən müraciətində qeyd edilir ki, dost ölkələrin milli prokurorluq xidmətlərinin rəhbər şəxslərinin də daxil olduğu nümayəndə heyətlərinin bu tədbirə qatılması dövlətlərarası əməkdaşlığın inkişaf etdirilməsinə verdikləri önəmin təzahürüdür.

Azərbaycan Prezidenti müraciətdə prokurorluq orqanlarının fəaliyyətinə yüksək qiymət verərək deyir: “Milli prokurorluq orqanları cinayətkarlığın bütün təzahürlərinə, o cümlədən dövlətin konstitusiya quruluşunun əsaslarına qəsd edən cinayətlərə qarşı mübarizənin ön sırasında dayanırlar. Bununla da onlar təkcə qanunçuluğun təmin edilməsi vəzifəsini yerinə yetirmir, eyni zamanda, konstitusion nizamın və suverenliyin qorunmasına xidmət edirlər. Bu baxımdan prokurorluq orqanları da dövlət suverenliyinin keşikçiləri hesab olunurlar.

Sonra Baş prokuror konfransın işini açıq elan edərək məruzə ilə çıxış etdi. Kamran Əliyev dəyirmi masa iştirakçılarına bildirdi ki, müasir Azərbaycan Konstitusiyası 1995-ci ildə ümummilli lider Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanmış və ümumxalq müzakirəsindən sonra 1995-ci il noyabrın 12-də referendumda Azərbaycan xalqının səs çoxluğu ilə qəbul olunmuş ilk milli Konstitusiyamızdır və bu Əsas Qanun bu gün də dövlətçiliyimizin əsas dayağı olaraq qalır.

Natiq həmçinin vurğuladı ki, konstitusiya Əsas Qanun olaraq hər bir dövlətin təməl sütününu təşkil edir. “Bizim hazırda 30 illiyini qeyd etdiyimiz bu Konstitusiya da suverenliyimizin və ərazi bütövlüyümüzün qorunmasının, hüquqi və dünyəvi dövlətin möhkəmləndirilməsinin, vətəndaşların layiqli həyat şəraitinin təmin edilməsinin, beynəlxalq müstəvidə dostluq və əməkdaşlıq əlaqələrinin inkişafının möhkəm hüquqi əsasıdır”.

Baş prokuror Ermənistanın Azərbaycana təcavüzü və torpaqlarımızı işğal altında saxladığı 30 il ərzində törətdiyi vəhşilikləri də qonaq həmkarlarının diqqətinə çatdırdı və bildirdi ki, Ermənistan tərəfindən torpaqlarımızın işğalı nəticəsində minlərlə insan həlak olmuş, iqtisadiyyata, ətraf mühitə, tarixi və mədəniyyət abidələrinə külli miqdarda ziyan vurulmuşdur.

Bu faktların istintaqının aparıldığı və hazırda məhkəmə baxışında olan erməni əsilli şəxslərin təqsirləndirilməsinə dair cinayət işində əksini tapdığı diqqətə çatdırıldı.

Kamran Əliyev məruzəsində daha sonra dedi: “Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında 2020-ci ildə rəşadətli Azərbaycan Ordusunun Ermənistan Respublikasının silahlı qüvvələrinə qarşı əks-hücum həmləsi ilə başlanan 44 günlük Vətən müharibəsində əldə edilmiş tarixi qələbə, eləcə də müharibədən sonra əzəli Azərbaycan torpağı olan Qarabağda fəaliyyət göstərən separatçı rejimə qarşı 19-20 sentyabr 2023-cü il tarixdə Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən həyata keçirilən antiterror əməliyyatları nəticəsində 30 ilə yaxın işğal altında olan torpaqlarımız azad edilmiş və Azərbaycan dövlətinin suverenliyi tam bərpa edilməklə Konstitusiyamızın qüvvəsi bütün ölkə ərazisinə şamil edilmişdir.

Bunun tarixi əhəmiyyəti nəzərə alınaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 19 sentyabr 2024-cü il tarixli Sərəncamı ilə hər il sentyabrın 20-si Dövlət Suverenliyi Günü kimi qeyd olunmaqdadır”.

Baş prokuror məruzəsində həmçinin torpaqlarımız işğaldan azad edildikdən dərhal sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bilavasitə rəhbərliyi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yaxından iştirakı ilə həmin ərazilərdə genişmiqyaslı bərpa və quruculuq işlərinin həyata keçirilməyə başlanmasından, sürətlə ağıllı kəndlər və şəhərlər salınmasından, yeni iş yerləri, istehsalat, habelə təhsil müəssisələri, o cümlədən Xankəndi şəhərində Qarabağ Universitetinin təsis edilməsindən danışdı.

Natiq xüsusi qeyd etdi ki, Azərbaycan həmişə olduğu kimi bu gün də sülhün tərəfdarıdır. Bu il avqustun 8-də ABŞ-ın paytaxtı Vaşinqtonda, Ağ Evdə Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsinin paraflanması məhz bunun bariz nümunəsidir. Bu sənəd təkcə iki dövlət arasında münasibətlərin yeni səhifəsi deyil, həm də Cənubi Qafqazda dayanıqlı sülhün və təhlükəsizliyin, habelə iqtisadiyyatın daha da inkişaf etdirilməsinin təmin olunması baxımından tarixi dönüş nöqtəsidir. Sənədin tarixi dəyəri bir də ondadır ki, orada Azərbaycanın suverenliyinin dünya miqyasında tanınması təsdiqini tapır.

Kamran Əliyev Azərbaycan Prokurorluğunun yüz ildən artıq bir tarixə malik olduğunu, çətin və mürəkkəb sınaqlarla zəngin şərəfli və məsuliyyətli yol keçdiyini, bir neçə inkişaf mərhələsindən keçərək kamil bir quruma çevrildiyini faktlarla qeyd etdi. Sonra o, müstəqil Azərbaycanın ilk Konstitusiyasının milli prokurorluq orqanlarının dövlətin və cəmiyyətin həyatında yeri və roluna yeni baxış gətirdiyini açıqladı. Qeyd edildi ki, Konstitusiyada prokurorluq məhkəmə hakimiyyətinə aid edilsə də, Əsas Qanun prokurorluğun müstəqilliyini təsbit edir. “Konstitusiya və sahəvi qanunlarla prokurorluq dövlətin və cəmiyyətin mənafeyini müdafiə edən ali orqan kimi müəyyən edilir. Prokurorluğun Azərbaycan Konstitusiyasında müəyyən edilmiş statusu qanunun aliliyinin təmin olunması, insan və vətəndaş hüquqlarının müdafiəsi, dövlətin və cəmiyyətin maraqlarının qorunması sahəsində müstəqil və obyektiv fəaliyyət göstərməsinə təminat verir”, – deyə Baş prokuror vurğuladı.

Kamran Əliyev çıxışının sonunda Azərbaycanın dəvətini qəbul edib Bakıya gəldiklərinə və konfransda iştirak etdiklərinə görə qonaq həmkarlarına təşəkkür etdi və bu konfransın qarşılıqlı əlaqələrin daha da inkişaf etdirilməsinə xidmət edəcəyini qeyd etdi.

Konfransda çıxış edən **Keniyanın Baş prokuroru Renson İnqonqa** vurğuladı ki, bu gün Azərbaycan və Keniyanı birləşdirən ortaq dəyərlər– ədalət, hüququn aliliyi və insan hüquqlarına hörmətdir.

Qonaq Azərbaycan Konstitusiyası ilə bağlı fikirlərini açıqlayaraq qeyd etdi ki, bu Konstitusiya Azərbaycanın suverenliyinin, birliyinin və hüququn aliliyi əsasında demokratik dövlət qurmaq əzm və iradəsinin canlı ifadəsidir. "O, bərabərlik, insan ləyaqəti və sosial ədalət prinsiplərini təsbit edir və bununla da hər bir vətəndaşın hüquq və azadlıqlarının təmin edildiyi möhkəm bünövrə yaradır. Konstitusiyanın ən mühüm xüsusiyyətlərindən biri dövlət hakimiyyətinin mənbəyi kimi xalqı tanımasıdır. Bu fundamental prinsip idarəetmənin xalqın iradəsindən qaynaqlandığını və onların rifahı naminə həyata keçirildiyini təmin edir. Prokurorlar olaraq bizim vəzifəmiz bu hüquqların yalnız mətnlərdə qalmamasını, vətəndaşların gündəlik həyatında real şəkildə hiss olunmasını təmin etməkdir. Hər bir cinayət işində təqsirsizlik prezumpsiyasını qorumaq, ədalətli məhkəmə təminatını və qurbanların ləyaqətini müdafiə etmək məsuliyyətimizdir”, – deyə Keniyanın Baş prokuroru xüsusi vurğuladı.

**Laos Xalq Demokratik Respublikasının Ali Xalq Prokurorluğunun Baş prokuroru Saysana Kotputan** isə çıxışına Beynəlxalq Bakı konfransının əhəmiyyətini diqqət çəkməklə başladı. Natiq qeyd etdi ki, Bakıda keçirilən beynəlxalq konfrans əməkdaşlığın genişlənməsi üçün yeni imkanlar açır. Bu elə bir platformadır ki, burada öz təcrübəmizi bölüşə bilərik.

Öz ölkəsinin Ali Xalq Prokurorluğunun fəaliyyətindən bəhs edən qonaq bildirdi ki, Laosda Konstitusiya 1992-ci ildə qəbul olunub və mühüm milli sənədləri özündə əks etdirir: “Laosun Ali Xalq Prokurorluğu Konstitusiyada qanunların düzgün icrasına nəzarət edən, təqsirləndirilən şəxslərin məhkəməyə verilməsi səlahiyyətinə malik olan orqan kimi təsbit edilib. Prokurorluq Konstitusiya ilə verilən səlahiyyətləri lazımı şəkildə həyata keçirir və müstəqilliyini qorumaq məqsədilə güclü daxili nəzarət mexanizmi mövcuddur. Laos Ali Xalq Prokurorluğu hüququn aliliyini möhkəmləndirmək məsuliyyətini öz üzərində daşıyır”.

Konfransda çıxış edən **Türkiyə Respublikasının Ali Məhkəməsinin prokuroru Tayfun Gün** Türkiyədə konstitusiya prosesinin müxtəlif mərhələləri barədə məlumat verdi. O, 1921-ci il Konstitusiyasında prokurorluq institutuna yer verilmədiyini, lakin sonrakı konstitusiyalarda məhkəmələrin müstəqilliyi, hakim və prokurorların təminatı ilə bağlı müddəaların təsbit olunduğunu diqqətə çatdırdı. Tayfun Gün qeyd etdi ki, prokurorluq dövlətin suverenliyinin qorunmasında, ictimai qaydaların təmin olunmasında və cinayətlərin qarşısının alınmasında mühüm institut kimi çıxış edir.

Azərbaycan Konstitusiyası ilə bağlı düşüncələrini bölüşən **Tanzaniya Birləşmiş Respublikasının Dövlət Prokurorluğunun direktoru Silvester Antoni Mvakitalu** qeyd etdi ki, bu çərçivə sənədi əsasında qanunun aliliyi qorunur: “Tanzaniya və Azərbaycan suverenliyə, qanunun aliliyinə və sülh şəraitində dinc yaşamaq prinsiplərinə sadiqdir. Azərbaycan bunun üçün uzun bir yol keçib. İnkişafın təmin edilməsi naminə bu çərçivə sahəsində addımlar atılıb. Azərbaycan davamlı şəkildə öz ideyalarını nümayiş etdirir. Məhkəmə hakimiyyətinə gəldikdə, Konstitusiya onun təməl daşıdır. Konstitusiya fundamental şəkildə vətəndaş, insan hüquq və azadlıqlarının qorunmasının təməlidir. Tanzaniya da eyni mövqedən çıxış edir”.

**Uqanda Respublikasının Dövlət Prokurorluğunun direktoru Odumbi Ceyms Over** isə çıxışında Bakı konfransına yüksək qiymət verərək bildirdi ki, “bugünkü dəyirmi masa ölkələrimizin prokurorluq institutlarını birləşdirən ortaq dəyərlərin nümayişidir. Konstitusiya çərçivələrimizlə bağlı fikir mübadiləsi etməklə prokurorluğun müstəqilliyinin müxtəlif istiqamətlərdə necə möhkəmləndirilə biləcəyimiz barədə anlayışımızı dərinləşdirə, konstitusiyanın inkişafı və qanunun aliliyi ilə bağlı dəyərli perspektivlərə töhfə verə bilərik”.

Uqandalı qonaq onu da vurğuladı ki, qarşılaşdığımız çağırışlar qlobal xarakter daşıyır, korrupsiya, mütəşəkkil cinayətkarlıq və demokratik təsisatlar üçün təhlükələr sərhədləri aşır. Beləliklə, biz bu görüşdən konstitusiya mandatlarımızın xalqlarımızın suverenliyini qorumaqla bu çağırışlara necə uyğunlaşa biləcəyini müzakirə etmək üçün platforma kimi istifadə edə bilərik”.

Çıxışlardan sonra konfrans iştirakçıları mövzu ətrafında müzakirələr apardılar. Geniş fikir mübadiləsi zamanı prokurorluq orqanlarının konstitusion statusunun möhkəmləndirilməsinin, onların fəaliyyətinin şəffaf, effektiv və hüquqi dövlət prinsiplərinə uyğun təşkil olunmasının əhəmiyyətini xüsusi vurğuladılar.

Bunun la da konfrans öz işinə yekun vurdu.

***İlqar RÜSTƏMOV***
***XQ***

# Konstitusiya legitimliyi və suveren dövlət idarəçiliyi

**Ölkə başçımız İlham Əliyevin 2024-cü il 28 dekabr tarixli sərəncamı ilə cari ilin ölkəmizdə “Konstitusiya və Suverenlik İli” elan edilməsi milli dövlətçiliyimizin inkişaf mərhələsində strateji məna daşıyan hadisədir. Prezidentin Konstitusiyanın 109-cu maddəsinin 32-ci bəndinə əsaslanaraq qəbul etdiyi bu qərar həm tarixi keçmişin dərindən dəyərləndirilməsi, həm də gələcəyə yönəlmiş siyasi mesajdır. Bu barədə sərəncamda qeyd edilir: “Bu gün Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir”.**

Konstitusiya hər bir müasir dövlətin hüquqi-siyasi sütunudur. Bu baxımdan 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyası da müstəqil dövlətçiliyimizin hüquqi bünövrəsini formalaşdırır. Sənəd azərbaycançılıq ideologiyasının, milli birliyin və müstəqil dövlətin inkişaf fəlsəfəsinin daşıyıcısıdır. 1991-ci il oktyabrın 18-də Azərbaycanın müstəqilliyi bərpa edildikdən sonra konstitusiyada, insan haqları və digər məsələlər barədə insanların rifahı və gələcəyi naminə, həm də etik norma və dəyərlərə daha çox yer verildi. Ulu öndər Konstitusiyanın yaranmasında tarixi keçmişimizlə yanaşı, həm də dünya dövlətlərinin demokratik və hüquqi prinsiplərinə diqqətlə yanaşmağı, yeri gələndə ondan bəhrələnməyi təkidlə bildirirdi: "Azərbaycanın tarixi keçmişi, bugünkü reallıqlarını və gələcək perspektivlərini əks etdirməsi, ümumbəşəri və milli dəyərlərə söykənməsi Konstitusiyamızı səciyyələndirən əsas cəhətlərdir. Konstitusiya yaratmaq üçün şübhəsiz ki, tarixi keçmişimizə nəzər salmalıyıq, amma eyni zamanda, ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin əldə etdiyi naliyyətlərdən, təcrübədən istifadə etməliyik, bəhrələnməliyik".

Dövlət başçısı İlham Əliyevin təşəbbüsü ilə hər il sentyabrın 20-nin Dövlət Suverenliyi Günü, həmçinin Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhər günləri kimi qeyd olunması isə suverenliyin yalnız hüquqi deyil, həm də milli yaddaş və coğrafi bütövlüklə bağlılığını vurğulayır. Ötən il sentyabrın 19-da imzalanan Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamında qeyd edilir: “Hər bir xalq üçün öz taleyinə sahib olmaq, müstəqil dövlətini yaradaraq inkişaf etdirmək onun ən böyük nailiyyətidir. Tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqillik, dövlətçilik əzmini sarsıda bilməmişdir. Azərbaycan xalqı bu gün öz müstəqil dövlətinə sahibdir, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına əldə edilmiş ərazi bütövlüyümüz, suverenliyimiz xalqımızın milli sərvətidir”.

Azərbaycan xalqı XX əsrdə iki dəfə müstəqillik qazanmış, 1991-ci ildən etibarən bu azadlığı qoruyub saxlamağı bacarmışdır. 1991–1993-cü illərdəki mürəkkəb siyasi böhran, hakimiyyət boşluqları və xarici təsirlər dövlət suverenliyimizi təhlükə altına salmışdı. Ancaq Ulu öndər Heydər Əliyevin siyasi iradəsi nəticəsində ölkəmiz müstəqilliyini möhkəmləndirdi, konstitusion dövlət quruculuğu yoluna qədəm qoydu. Bu kursun davamı olaraq Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 ildə Azərbaycan dövləti beynəlxalq aləmdə bərabərhüquqlu tərəfdaş kimi mövqeyini möhkəmləndirdi.

2020-ci ilin 44 günlük Vətən müharibəsi Azərbaycanın tarixi inkişafında dönüş nöqtəsi oldu. Bu qələbə nəticəsində ölkəmiz beynəlxalq hüquqa əsaslanan ərazi bütövlüyünü təmin etdi və dövlət suverenliyini faktiki olaraq tam şəkildə bərpa etdi. Cari ildə Şanlı Zəfərin 5 illiyi qeyd olunacaq.




Tarixə nəzər salsaq, 1990-cı illərin əvvəllərində Ermənistanın hərbi təcavüzü nəticəsində Dağlıq Qarabağ və ətraf rayonlarımız işğal altına düşmüş, bir milyondan çox soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə salınmışdı. 30 ilə yaxın davam edən işğal beynəlxalq hüququn prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə və regionda sülhün əsas şərtlərinə zidd idi.

Azərbaycan Ordusunun 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək davam edən Vətən müharibəsində qazandığı tarixi qələbə bu ədalətsiz vəziyyətə son qoydu. Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli rəhbərliyi, xalqın dəmir iradəsi və ordumuzun yüksək döyüş qabiliyyəti sayəsində torpaqlarımız azad edildi. Bu müharibə Azərbaycan tarixində yalnız hərbi əməliyyat deyil, həm də milli birliyin, dövlətçilik ideyalarının və müasir idarəetmə modelinin təntənəsi oldu.

2023-cü ilin sentyabrında həyata keçirilən lokal antiterror tədbirləri Azərbaycanın suverenliyini tam şəkildə bərpa etməsinə gətirib çıxardı. Separatçı qurumun qalıqları məhv edildi, qanunsuz silahlı birləşmələr təslim oldu. Xankəndi, Əsgəran, Ağdərə və Xocavənd şəhərlərinin nəzarətə götürülməsi ilə Qarabağda dövlət hakimiyyəti bərpa edildi.

Əli Azərbaycan xalqının qanına batmış separatçı və terrorçu “liderlər”in məhkəmə qarşısına çıxarılması həm hüquqi, həm də siyasi baxımdan mühüm əhəmiyyət daşıyır. Bu, göstərir ki, Azərbaycan yalnız hərbi gücü ilə deyil, həm də hüquqi dövlət prinsipləri əsasında ədaləti təmin edir.

2023-cü il oktyabrın 15-də Prezident İlham Əliyevin işğaldan azad edilmiş Ağdərə, Xocalı, Xocavənd və Xankəndiyə səfəri Azərbaycan dövlətçiliyinin rəmzi qələbəsi kimi tarixə düşdü. Dövlət bayrağının bu şəhərlərdə ucaldılması milli suverenliyin faktiki təcəssümü idi. Bu hadisə həm də Azərbaycanın gələcək inkişafında Qarabağın mərkəzi rolunu təsdiqlədi. Xankəndi şəhərinin mərkəzi meydanında Azərbaycan bayrağını ucaltdıqdan sonra dövlət başçımız xalqa müraciətində demişdir: "Bu gün tarixi bir gündür. Bu gün Xankəndi şəhərinin mərkəzi meydanında Azərbaycan bayrağı qaldırıldı. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm".

Bütün bunların nəticəsində Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa və yenidənqurma işlərinin aparılması Azərbaycanın strateji hədəflərinin bir hissəsidir. Prezident İlham Əliyevin təşəbbüsü ilə bu bölgələrdə “Böyük Qayıdış” proqramı həyata keçirilir, müasir infrastruktur qurulur, şəhərlər və kəndlər yenidən salınır.

Bu proses iqtisadi inkişaf, milli suverenliyin sosial və mədəni müstəvidə bərpasıdır. Qarabağ artıq yalnız azad edilmiş torpaq deyil, həm də gələcək nəsillər üçün güc, birlik və müstəqillik simvoludur.

Beləliklə, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı tarixdə qələbə qazanan, gələcəyini azad, müstəqil və qüdrətli şəkildə quran xalq kimi özünü təsdiqlədi. Qalib Lider və Qalib Sərkərdə anlayışı Azərbaycan dövlətçilik ənənələrinin ayrılmaz parçasına çevrildi.

***Rəşad MƏMMƏDOV,***
***Xaçmaz rayon prokuroru,***
***baş ədliyyə müşaviri***

# Sərnişindaşımada müasir çağırışlar

**(əvvəli 1-ci səhifədə)**

Fərmana əsasən Bakı, Sumqayıt, Gəncə, Naxçıvan, Xankəndi şəhərlərinin və Abşeron, Ağdam, Şuşa, Laçın rayonlarının inzibati ərazilərində də nağdsız ödəniş sisteminə keçirilən nəqliyyat vasitələri ilə müntəzəm sərnişin daşınmalarını gerçəkləşdirən hüquqi şəxslərə və ya fərdi sahibkarlara sıxılmış təbii qaz və elektrikli avtobuslara görə subsidiya ödənilməsi qərara alınıb.

Sənəddə yuxarıda qeyd edilənlərlə bərabər, Nazirlər Kabinetinə Bakı şəhərinin inzibati ərazisində ödənişli hərəkət zonaları və nəqliyyat vasitələrinin həmin ərazilərə daxil olmasına görə haqqın məbləği ilə bağlı təkliflərini 3 ay müddətində hazırlayıb Azərbaycan Prezidentinə təqdim etmək tapşırılıb. Eyni zamanda Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə nəzərdə tutulan inzibati ərazilərdə müntəzəm sərnişin daşınmalarına ehtiyacın və əlçatanlığın gerçəkləşdirilməsi, sərnişin axınının intensivliyi, eləcə də avtomobil nəqliyyatı xidmətinin davamlılığı nəzərə alınmaqla, Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) müəyyənləşdirdiyi marşrutlar üzrə daşıyıcıların avtomobil nəqliyyatı ilə müntəzəm sərnişindaşıma xidmətləri göstərməsi nəticəsində yaranan xərclərinin kompensasiya olunmasını nəzərdə tutan məsafə əsaslı avtomobil nəqliyyatı xidmətinin tətbiqinə başlanılması və bu prosesin 2028-ci il yanvarın 1-dək başa çatdırılması qərara alınıb.



Ekspertlər tərəfindən dövlət başçısının bu fərmanı son illərdə sürətlə artan nəqliyyat problemlərinin həlli istiqamətində atılan mühüm addımlardan biri kimi dəyərləndirilir. Bildirilir ki, Bakı şəhərində avtomobil sıxlığı artıq təkcə paytaxt sakinlərinin gündəlik rahatlığına, eləcə də ölkənin sosial-iqtisadi və ekoloji təhlükəsizliyinə mənfi təsir göstərir.

Sözügedən fərmana əsasən yaxın perspektivdə ölkənin nəqliyyat sahəsində yeni qaydalar tətbiq edilməklə məsafə əsaslı avtomobil nəqliyyatı xidməti işə düşəcək, Bakıda isə ödənişli hərəkət zonaları yaradılacaq. Bu dəyişikliklər həm yol hərəkətinin idarə olunmasına, həm də paytaxtda sıxlığın azaldılmasına xidmət edəcək.

Bakı kimi iri şəhərlərdə nəqliyyat vasitələrinin sayının sürətlə artması atmosferə buraxılan zərərli qazların həcmini kəskin şəkildə yüksəldib. Xüsusilə karbon dioksid ($CO_2$) emissiyalarının çoxalması qlobal iqlim dəyişikliyi ilə mübarizədə əlavə çətinliklər yaradıb. Bundan əlavə, nəqliyyat sıxlığında mühərriklərin səmərəsiz işləməsi nəticəsində havaya buraxılan digər toksik maddələr – karbonmonoksid, azot oksidləri və hissəciklər insanların sağlamlığına birbaşa təsir göstərməyə başlayıb. Bu amillər tənəffüs yolları xəstəliklərinin, ürək – damar problemlərinin artmasına gətirib çıxarıb. Eyni zamanda, sıx nəqliyyat axınında yaranan yüksək səviyyəli səs-küy insanlarda əsəb gərginliyi, stres və yuxu problemlərii yaradır. Bu isə həm əmək məhsuldarlığını azaldır, həm də psixoloji gərginliyi artırır.

Avtomobil sıxlığının digər mənfi tərəfi onun iqtisadiyyata vurduğu ziyandır. Belə ki, nəqliyyat vasitələrinin hərəkət sürətinin aşağı düşməsi yanacaq sərfiyyatını artırır, əlavə xərc yaradır və nəticədə həm vətəndaşların, həm də dövlətin maliyyə yükü ağırlaşır. Bundan başqa, tıxaclarda saatlarla vaxt itirən hər bir şəxs iş və şəxsi fəaliyyətində geriləmələrlə üzləşir.

Dünya Bankının araşdırmalarına görə, iri şəhərlərdə yol tıxaclarının iqtisadiyyata vurduğu zərər ÜDM-in 2-4 faizinə qədər yüksəlir. Bakı şəhərində də vəziyyət fərqli deyil. Burada avtomobil nəqliyyatının optimal idarə olunmaması həm yanacaq itkilərinə, həm də məhsuldarlığın azalmasına gətirib çıxarır.

Prezidentin imzaladığı Fərman məhz bu problemlərin qarşısını almağa yönəlib. Burada əsas hədəf müntəzəm sərnişin daşınmasının daha səmərəli şəkildə təşkili, ictimai nəqliyyatın əlçatanlığının artırılması və mərkəzi küçələrdə avtomobil axınının azaldılmasıdır.

Ekspertlər tərəfindən adı çəkilən Fərmanın həyata keçirilməsi nəticəsində bir neçə mühüm nəticə əldə olunacağının gözlənildiyi bildirilir:

– ictimai nəqliyyatın inkişafı şəxsi avtomobillərə alternativ yaradacaq və bu da yol yükünün aşağı düşməsinə – tıxacların azalmasına səbəb olacaq;

– zərərli qaz emissiyalarının azalması paytaxtın ekoloji mühitinin yaxşılaşdırılmasına müsbət təsir göstərəcək;

– sıxlığın azalması nəticəsində qəzaların sayı aşağı düşəcək, yol təhlükəsizliyi artacaq;

– nəhayət, daha sürətli, rahat və qənaətcil ictimai nəqliyyat vətəndaşların gündəlik həyat keyfiyyətini yüksəldəcək, əhalinin rahatlığı təmin olunacaq.

Avropa və Asiyanın bir çox ölkələrində oxşar yanaşmalar artıq tətbiq olunub. Məsələn, Sinqapurda mərkəzi küçələrə avtomobil girişinə ciddi məhdudiyyətlər qoyulub, ictimai nəqliyyat və velosiped istifadəsi təşviq edilib. Londonda isə “congestion charge” adlanan sistem vasitəsilə mərkəzi ərazilərə daxil olan avtomobillərdən əlavə ödənişlərin alınmasına başlanıb. Bununla da həm yol sıxlığı aradan qaldırılıb, həm də ictimai nəqliyyatın inkişafına əlavə maliyyə mənbəyi yaradılıb.

Avropa şəhərlərində tramvay və metro kimi ictimai nəqliyyat vasitələrinin inkişafına da böyük önəm verilir. Bu ictimai nəqliyyatlardan istifadənin diqqətdə saxlanılması ilə ekoloji davamlılıq, iqtisadi səmərəlilik və sosial rahatlığın təmin olunması gerçəkləşdirilir.

Ekspertlər tərəfindən Prezident İlham Əliyevin imzaladığı sözügedən fərman isə Azərbaycanda nəqliyyat siyasətinin yeni mərhələsinə keçidin başlanğıcı kimi qiymətləndirilir. Bu addım şəhər həyatında ekoloji balansın qorunması, iqtisadi itkilərin minimuma endirilməsi və əhalinin rahatlığının təmin olunması məqsədi daşıyır.

Bakı kimi dinamik inkişaf edən bir metropol üçün nəqliyyat infrastrukturunun düzgün idarə olunması, müntəzəm sərnişin daşımalarının təkmilləşdirilməsi gələcəkdə həm şəhərsalma, həm də sosial rifah baxımından mühüm əhəmiyyətə malikdir. Yeni fərmanın uğurlu icrası ilə yaxın perspektivdə Azərbaycan paytaxtının regionun ən müasir, ekoloji baxımdan təmiz və iqtisadi cəhətdən səmərəli şəhərlərindən birinə çevriləcəyi gözlənilir.

“Avtomobil nəqliyyatı ilə müntəzəm sərnişin daşınması sahəsinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” fərmanın önəmindən danışan ekspertlər onu da bildirirlər ki, bu sahədə əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin, eləcə də təhlükəsizliyinin reallaşdırılması, qabaqcıl beynəlxalq tələblər və təcrübə nəzərə alınmaqla ictimai nəqliyyat daşıyıcılarının fəaliyyətinin səmərəli təşkili məqsədilə bir sıra mühüm önəm daşıyan layihələrin reallaşdırılması da planlaşdırılır. Məsələn, nəqliyyat vasitələrinin müəyyənləşdirilən zonalara daxil olduqda ödəniş ediləcəyi bildirilir. Bu zaman ekoloji cəhətdən təmiz nəqliyyat vasitələri (elektromobillər) üçün girişin pulsuz olacağı da vurğulanır. Bundan başqa, ödənişin məbləği və üsullarının da fərqli ola biləcəyi, məsələn, ödənişin mobil tətbiq vasitəsilə, terminallar və ya digər ödəmə kanalları vasitəsilə reallaşdırılacağı qeyd edilir.

Nəqliyyat problemləri üzrə ekspert Eldəniz Cəfərovun sözlərinə görə, həyata keçiriləcək layihələrdə əsas məqsəd ictimai nəqliyyatdan istifadə edən vətəndaşların yollarda qalmamalarına, vaxtında ünvana çatmalarına nail olmaqdır. Bunun üçün özəl daşıyıcılara müəyyən subsidiyaların verilməsi də nəzərdə tutulur. Bu subsidiyalar isə ödənişli zonalara daxil olan sürücülərdən alınan rüsumlar və digər ödənişlər hesabına formalaşacaq İctimai Nəqliyyat Fondu vasitəsilə ödəniləcək. Artıq özəl daşıyıcılar dövlət tərəfindən birbaşa subsidiya aldıqdan sonra keyfiyyətli və təhlükəsiz xidmət göstərməyə borclu olacaqlar. Bu halda nə marşrut, nə də saat məsələsi problem yaratmayacaq.

*Vaqif BAYRAMOV*
*XQ*

## *Ekspert rəyi*

**Elməddin MURADLI,**
**nəqliyyat eksperti**



Prezident İlham Əliyevin avtomobil nəqliyyatı ilə müntəzəm sərnişin daşınması sahəsinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında imzaladığı fərmana əsasən, dövlət büdcəsinin tərkibində “İctimai nəqliyyat” Məqsədli Büdcə Fondu yaradılır. Bundan başqa, Bakıda ödənişli hərəkət zonalarının təşkili də nəzərdə tutulur.

Dövlətimiz tərəfindən ictimai nəqliyyata dəstək olan bu fərman respublikada ilk dəfə tətbiq ediləcək bir mexanizmin icrasını gerçəkləşdirmək məqsədi daşıyır. Bu məsələ illərdir ki, müzakirə olunurdu. Burada daşıyıcılar sadəcə olaraq avtobus sahəsində inkişafı planlaşdırır və buna görə onlara dövlət tərəfindən müəyyən subsidiyaların ödənilməsi nəzərdə tutulur.

Sənəddə göstərilir ki, hər kilometrə görə daşıyıcıya dövlət tərəfindən haqq veriləcək. Daşıyıcını avtobusa nə qədər sərnişinin minməsi, nə qədər sərnişinin düşməsi kimi sualların cavabı artıq maraqlandırmayacaq. Nağdsız ödəniş prosesində bu, baş verirsə, həmin daşıyıcı dövlətdən dəstək ala biləcək. Amma belə bir məsələdə müəyyən şərtlər də var. Belə ki, marşrut xətlərində elektrikli, sıxılmış qazla işləyən avtobuslar fəaliyyət göstərməlidir. Dizel mühərrikli ictimai nəqliyyat vasitələri isə bu sıraya şamil edilmir. Nağdsız ödəniş məsələsi təbii ki, burada diqqət mərkəzində saxlanılır.

Fərmandan həm də görünür ki, Bakı şəhərində də ödənişli yollar yaradılacaq. Bu ödənişli hərəkət zonaları adlanır. Müəyyən bir məsafədə insanlar həmin yollardan yalnız ödənişlə istifadə edə biləcəklər. Bu dünya təcrübəsində var, Azərbaycanda da 2027-ci ildən tətbiq edilə bilər. Hələlik paytaxtda hansı yolların ödənişli olacağı dəqiq bilinmir. Amma bu fərmanın icrasının 2027-ci ilin yanvar ayına təsadüf edəcəyi vurğulanır. Fərmanın aid edildiyi bölgələr də müəyyənləşdirilib. Bunlar Bakı, Sumqayıt, Gəncə, Naxçıvan, Xankəndi şəhərləri, eləcə də Abşeron, Ağdam, Şuşa və Laçın rayonlarıdır.

Beləliklə, bu qərar Bakı şəhərinin mərkəzində getdikcə dərinləşən tıxac probleminin müəyyən qədər həll olunmasına böyük töhfə verəcək. Çünki bu gün paytaxtın mərkəzi küçələrində avtomobillərlə hərəkət etmək çətinləşib. Ödənişli ərazilər yaranandan sonra həmin ərazilərə daxil olan avtomobillərin sayının kifayət qədər azalacağı və insanların ictimai nəqliyyat vasitəsilə daha rahat hərəkət edəcəyi gözlənilir.

Sonda bildirmək istərdim ki, son illər nəqliyyat sektorunda genişmiqyası islahatlar aparılıb, müəyyən addımlar atılıb və strateji yol xəritəsi formalaşdırılıb. Bakı şəhəri və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi ilə bağlı Dövlət Proqramı da uğurla icra olunub.

# Türkmənistanla birgə tranzit daşımalar genişlənir



**Bu günlərdə Türkmənistanın Avaza şəhərində İnvestisiya Forumu keçirilib. Müxtəlif dövlətlərin, xarici qurumların nümayəndələrinin, iş adamlarının iştirakı ilə keçirilən forumda ölkələrin iqtisadi potensialının təqdimatı keçirilib, beynəlxalq tərəfdaşlıq və investisiya əməkdaşlığının inkişaf etdirilməsi imkanları müzakirə olunub. Məclisdə ölkəmizi iqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov təmsil edib.**

Forum çərçivəsində təşkil edilən “Türkmənistanın investisiya cəlbediciliyi strateji səmərəlilik amili kimi” plenar sessiyasında çıxış edən S. Ələkbərov bildirib ki, Azərbaycan və Türkmənistanın dövlət başçıları arasında yüksək səviyyəli etimad və qarşılıqlı anlaşma ölkələrimizin əməkdaşlığının gücləndirilməsində xüsusi əhəmiyyət kəsb edir. Türkmənistan və Azərbaycan mühüm birgə layihə və təşəbbüslər həyata keçirdiklərini vurğulayan nazir müavininin sözlərinə görə, ölkələrimiz arasında əməkdaşlıq Orta Dəhlizin səmərəliliyinin artırılmasında önəmli rol oynayır: “Azərbaycan – Türkmənistan tranzit daşımaları istiqamətində son illər artım müşahidə olunur. 2025-ci ilin ilk yeddi ayında tranzit daşımalarının həcmi 1,28 milyon tona çatıb ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 13 faiz çoxdur. Bu nəticələr nəqliyyat və logistika sektorunda işbirliyinin gücləndiyini əyani şəkildə nümayiş etdirir”.

Forumda Azərbaycanın əlverişli işgüzar mühiti, azad edilmiş ərazilərdə aparılan böyük tikinti-quruculuq işləri və investorlar üçün yaradılan imkanlar, tətbiq edilən güzəştlər, ölkənin strateji nəqliyyat və logistika infrastrukturu, Zəngəzur dəhlizinin (TRIPP) perspektivləri, Ələt Azad İqtisadi Zonasının və sənaye zonalarının investisiya potensialı barədə məlumat verilib. Nazir müavini enerji, ticarət, qarşılıqlı investisiyaların təşviqi, nəqliyyat, kənd təsərrüfatı və s. sahələrdə birgə fəaliyyətin genişləndirilməsi imkanlarını qeyd edib.

# Dünya İqtisadi Forumu ilə tərəfdaşlıq qurulur

**İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO) ilə Dünya İqtisadi Forumu (WEF) arasında Assosiativ Mərkəz Tərəfdaşlığı (Üzvlük) Sazişi imzalanıb.**

azpromo
Azerbaijan Export & Investment Promotion Foundation

Bu, Bakıda keçirilən I Azərbaycan Beynəlxalq İnvestisiya Forumu (AIIF-2025) çərçivəsində baş tutub. Sənədi AZPROMO-nun İcraçı direktoru Yusif Abdullayevlə WEF-in Beynəlxalq Ticarət və İnvestisiyalar üzrə Siyasət və İcma rəhbəri Metyu Stefenson imzalayıb.

Saziş beynəlxalq ticarət və investisiya sahəsində əlaqələrin genişləndirilməsini və strateji əməkdaşlıq imkanlarının artırılmasını nəzərdə tutur.

# Çinlə ortaq “Yaşıl Enerji Sənaye Parkı” yaradılacaq

**İqtisadiyyat Nazirliyi yanında İqtisadi Zonaların İnkişafı Agentliyi və “China Datang Overseas Investment Co.” şirkəti arasında ölkədə “Yaşıl Enerji Sənaye Parkı”nın yaradılması üzrə Anlaşma Memorandumu imzalanıb.**

Bakıda keçirilən I Azərbaycan Beynəlxalq İnvestisiya Forumu çərçivəsində imzalanmış memorandumu agentliyin İdarə Heyətinin sədri Seymur Adıgözəlov və Çin şirkətinin baş meneceri Yuanlong Zhou imzalayıb.



Qeyd edək ki, “Yaşıl Enerji Sənaye Parkı”nın əsas məqsədi bərpaolunan enerji və ekoloji texnologiyaların inkişafına töhfə verməkdir.

# Azərbaycan Ümumdünya Kosmos Həftəsinə hazırlaşır

**Oktyabrın 4, 10-da Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Kosmik Agentliyin (“Azərkosmos”) təşkilatçılığı ilə Azərbaycanda Ümumdünya Kosmos Həftəsi keçiriləcək.**




“Azərkosmos”dan verilən məəlumata görə, Birləşmiş Millətlər Təşkilatının qərarı ilə hər il dünyanın 90-dan çox ölkəsində qeyd olunan Ümumdünya Kosmos Həftəsi artıq 4-cü ildir ki, Azərbaycanda keçirilir. Builki toplantının mövzusu “Kosmosda Həyat” olacaq. Ümumdünya Kosmos Həftəsinin məqsədi gəncləri kosmos sahəsinə həvəsləndirmək, onların biliklərini artırmaq və ölkədə innovativ kosmik ekosistemin formalaşmasına dəstək verməkdir.

Həftə çərçivəsində keçiriləcək tədbirlərdə iştirakçılar kosmik qida üzrə vörkşop, kosmos mövzusuna həsr olunmuş kinofestival, orta məktəb şagirdləri üçün Rumıniyanın tanınmış astronavtı Dumitru-Dorin Prunariu ilə “Astronavta sual ver” adlı vebinar, müəllimlər üçün “STEAM Təhsili: Çətinliklər və Gələcək İmkanlar” adlı seminar, APRSAF Beynəlxalq Kosmik Poster Müsabiqəsinin Milli Mərhələsinin sərgisi və digər tədbirlər gözləyir.

*XQ*

# Bakı Türk Anadolu Liseyi yeni binaya köçüb




**Sentyabrın 22-də elm və təhsil naziri Emin Əmrullayev ilə Türkiyənin milli təhsil naziri Yusuf Tekin Bakı Türk Anadolu Liseyinin yeni binasının açılış mərasimində iştirak ediblər.**



Türkiyənin ölkəmizdəki səfiri Birol Akgün çıxışında iki ölkə arasında təhsil sahəsində əməkdaşlığın uzunmüddətli perspektivdə regionun intellektual inkişafına mühüm töhfə verdiyini qeyd edib. Türkiyənin milli təhsil naziri Yusuf Tekin təhsilin xalqlar arasında birliyi gücləndirən ən vacib amillərdən biri olduğunu bildirərək Azərbaycan və Türkiyənin birgə təhsil layihələrinin davamlı şəkildə genişləndiyini diqqətə çatdırıb.

Azərbaycanın elm və təhsil naziri Emin Əmrullayev isə iki ölkə arasında təhsil sahəsində qarşılıqlı etimad və dəstəyin ildən-ilə gücləndiyini qeyd edib, Bakı Türk Anadolu Liseyinin yeni binasının bu əməkdaşlığın davamlı xarakter daşıdığını göstərən mühüm bir addım olduğunu bildirib.

**XQ**

Xuntaçıların məhkəməsi

# Xocalı soyqırımı, Qarakənd faciəsi cinayətlərinə məhkəmə baxışı



**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası sentyabrın 22-də davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə prosesi sənədlərin tədqiqi ilə davam etdirilib.

1991-ci il avqustun 23-də Əsgəran rayonunun Cəmilli kəndində N.F.Salahov, V.İ. Sadıxov və M.S.Abdullayeva həlak olub, çoxlu sayda sərnişin yaralanıb.1992-ci ilin fevralında Şuşa rayonunun kəndinə hücum zamanı çox sayda insan öldürülüb, bir neçə nəfər itkin düşüb. Quşçular kəndində isə bir neçə nəfər öldürülüb, çoxlu sayda şəxs girov götürülüb.

1991-ci il sentyabrın 8-də Xocavənd rayonunda avtobusa açılan atəş nəticəsində bir neçə nəfər hadisə yerində ölüb, onlarla şəxs yaralanıb. 1991-ci il noyabrın 4-5-də Qazax rayonunun Xeyrimli kəndinin silahlılarınhücumu zamanı çoxlu sayda şəxs həlak olub və müxtəlif dərəcəli bədən xəsarətləri alıblar.

Təqsirləndirilən şəxs David Manukyan söz alaraq - “Ermənistan Respublikasının vətəndaşı Nikol Vova oğlu Paşinyanın (Baş nazir Nikol Paşinyan nəzərdə tutulur – red.) şahid qismində çağırılmasını, yaxud videokonfrans vasitəsilə məhkəmə prosesinə qoşulmasını” məhkəmədən xahiş edib. Təqsirləndirilən şəxs David Babayan isə “ATƏT-in Minsk qrupunun həmsədrləri”nin, xüsusilə də səfir Anjey Kaspşikin, habelə Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın məhkəməyə şahid qismində cəlb olunmasını hakimdən xahiş edib: “O adamlar bizi tanıyırlar və birbaşa əlaqədə olmuşuq. Onlar çox yaxşı şahid olarlar.

Təqsirləndirilən şəxs Davit İşxanyan vaxtilə Azərbaycan ərazilərində olmuş Rusiya sülhməramlılarının 6 generalının - general Muradov, general Kosabokov, general Anaşkin, general Volkov, general Lentsov və general Kulakovun şahid qismində cəlb olunmasını məhkəmədən xahiş edib.



Məhkəmə prosesi sənədlərin tədqiqi ilə davam etdirilib.

1991-ci il noyabrın 20-də hərbi vertolyotun vurulması faktı üzrə elan olunan sənəddə bildirilib ki, hadisə zamanı aralarında Azərbaycanın Baş prokuroru, III dərəcəli dövlət ədliyyə müşaviri İsmət Qayıbov, müdafiə və dövlət təhlükəsizliyi məsələləri üzrə dövlət müşaviri, milis general-mayoru Məhəmməd Əsədov, Dövlət katibi Tofiq İsmayılov, Baş nazirin müavini Zülfü Hacıyev, Milli Məclisin deputatları Vaqif Cəfərov və Vəli Məmmədov, Prezident Aparatının şöbə müdiri, jurnalist Osman Mirzəyev, Qazaxıstan daxili işlər nazirinin müavini, general-mayor Saylal Serikov Dosumoviç, Azərbaycan Jurnalistlər Birliyinin üzvü, telejurnalist Alı Mustafayev və digərlərinin də olduğu 22 nəfər həlak olub. Xocavənd rayonunun Qarakənd kəndində hadisə yerinə baxış keçirilib, vertolyotun aparıcı vintinin qurtaracaq hissəsinin güllə deşmiş qırığı, vertolyotun güllə deşmiş qırıqları və s. aşkar edilib.

Daha bir sənəd Əsgərova Salatın Əziz qızı və digərlərinin öldürülməsi faktı üzrə olub.

1992-ci il yanvarın 28-də sərnişin helikopteri ilə bağlı sənəddə göstərilir ki, vertolyot Ermənistan silahlı qüvvələri tərəfindən raketlə vurulub. Nəticədə vertolyot torpaq yola çırpılaraq partlayıb, 42 nəfər ölüb.

Xocalı soyqırımı ilə bağlı cinayət işinin sənədləri də diqqətə çatdırılıb. Bildirilib ki, hadisə yerinə baxış vertolyotla ərazinin üzərindən hərəkət etməklə keçirilib, bu zaman Xocalı şəhərində evlərin alovlar içərisində yandığı, şəhərin küçələrində təxminən 500-dək şəxsin meyiti, zədələnmiş və yandırılmış müxtəlif markalı avtomaşın və avtobuslar, küçələrdə Ermənistan silahlı qüvvələrinin hərbçilərinin piyada hərəkət etdikləri müşahidə edilib. Bu zaman həmin Ermənistan silahlı qüvvələri istintaq-əməliyyat qrupunun olduğu vertolyotu da avtomat silahlardan atəşə tutub.

Sənədlərin tədqiqi cinayət işlərinə aid fotolarla müşayiət olunub.

Dövlət ittihamçısı Fuad Musayev vəsatətlə çıxış edərək, məhkəmə iclasında 1991-1992-ci illərdə baş verən cinayət hadisələri tədqiq edildiyinə görə, Ermənistanın müdafiə nazirinin sabiq müavini Manvel Qriqoryanın mətbuata müsahibəsinin sübut kimi tədqiq olunmasını xahiş edib.

Konfidensial görüşdən sonra təqdim olunan videomüsahibədə M.Qriqoryan Azərbaycan dövlətinə və xalqına qarşı törədilmiş cinayətlərdə iştirak etdiyini söyləyir.

Məhkəmə prosesi sentyabrın 25-də davam etdiriləcək.

**XQ**

# İqtisadiyyat naziri Çin şirkəti prezidenti ilə görüşüb




**İqtisadiyyat naziri Mikayıl Cabbarov Birinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu çərçivəsində Çinin “Datang Overseas Investment Co” şirkətinin prezidenti Yuanlong Jou ilə görüşüb.**

Görüşdə Azərbaycanın Çinlə iqtisadi-ticarət tərəfdaşlığına böyük önəm verdiyi vurğulanıb. Ölkəmizin əlverişli işgüzar mühiti, qarşılıqlı faydalı tərəfdaşlığın inkişafı istiqamətləri haqqında məlumat verilib, birgə fəaliyyət üçün geniş potensial diqqətə çatdırılıb.

Tərəflər yaşıl enerji, infrastruktur və sənaye sahələrində əməkdaşlığın gücləndirilməsini müzakirə ediblər.

# IDEA maralları da xilas etdi

**IDEA İctimai Birliyinə daxil olan vətəndaş müraciəti əsasında Daxili İşlər Nazirliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə növbəti təcili araşdırma tədbirləri həyata keçirilib.**





IDEA-nın təşəbbüsü ilə aparılan araşdırma nəticəsində Qax rayonunda yerləşən “Eden” restoranının ərazisində 10 baş xallı Sibir maralının qanunsuz olaraq qeyri-sərbəst şəkildə saxlanıldığı faktı aşkarlanıb.

Xilas edilən marallar Bakı Zooloji Parkının baytar mütəxəssisləri tərəfindən ərazidən götürülərək müayinə və reabilitasiya mərhələsindən keçiblər. Daha sonra əvvəlki tədbirlər nəticəsində xilas edilən 8 maral da daxil olmaqla ümumilikdə 18 baş maral sərbəst yaşam tərzi üçün zəruri olan bütün imkanlara və geniş əraziyə sahib Şamaxı Safari Parkı ekoloji qoruğunda təbiətə buraxılıb.

IDEA İctimai Birliyi vətəndaşları təbiəti qorumağa bir daha çağırır və vəhşi heyvanların qanunsuz olaraq saxlanması hallarına yol verilməməsini, bu kimi hallarla rastlaşdıqda isə IDEA İctimai Birliyinin 1113 “Təbiətə Təcili Yardım” qaynar xəttinə və ya rəsmi sosial media kanallarına məlumat vermələrini xahiş edir.

**XQ**

# Azad Qarabağda daha bir rahat yol

**Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi Suqovuşan–Sərsəng su anbarı–Qozlukörpü–Kəlbəcər avtomobil yolunun tikintisini davam etdirir. Agentliyin məlumatına əsasən, layihənin başlanğıc nöqtəsi Ağdərə rayonu ərazisində yerləşən Suqovuşan qəsəbəsi, son nöqtəsi isə Kəlbəcər rayonu ərazisində yerləşən və Kəlbəcər–Laçın avtomobil yolu ilə kəsişən “Vəng dairəsi”dir. Ümumi uzunluğu 77,6 kilometr olan avtomobil yolu II texniki dərəcəyə uyğun olaraq iki hərəkət zolaqlı olmaqla inşa edilir. Yol yatağının eni 15 metr təşkil edir.**



Layihə üzrə torpaq işləri çərçivəsində yolun ilk 24 kilometrlik hissəsində yararsız qrunt qazılaraq çıxarılıb, torpaq yatağı isə yolun alt və üst yamacları hesabına genişləndirilib. Eyni zamanda, bu hissədə yol əsasının və ilk 20 kilometrlik sahədə asfalt-beton örtüyün alt laylarının tikintisi başa çatdırılıb. Yolun 21-25 kilometr hissəsində isə mövcud qaya süxurları mexanizmlərlə parçalanaraq ərazidən kənarlaşdırılıb.

Bundan əlavə, 63-78 kilometrlik hissədə, xüsusilə sərt relyefə malik qayalıq ərazilərdə torpaq yatağının genişləndirilməsi və təhlükəsizlik üçün lazım olan görünmə məsafələrinin təmin olunması məqsədilə mexaniki qazma və partlayış işləri aparılır. Yolun 68-78 kilometrlik sahələrdə isə bu işlər intensiv şəkildə həyata keçirilir. Eyni zamanda, yolun təhlükəli yamac hissələrində sürüşmə və uçqunların qarşısının alınması üçün daş istinad divarlarının tikintisi aparılır. Layihə çərçivəsində müxtəlif ölçüdə suötürücü boruların, su keçidlərinin və körpülərin tikintisi və əsaslı təmiri işləri də icra olunur.

Suqovuşan–Sərsəng su anbarı–Qozlukörpü–Kəlbəcər avtomobil yolu Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında icra olunan və işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq əsas infrastruktur layihələrindən biridir.

**XQ**

# Tarixdə silinməz izlər qoymuş Xəzər İmperiyası

## *4 əsr Şimaldan Cənuba, Şərqdən Qərbə hökm etmiş bu Türk birliyini din ayrılığı çökdürüb*

**Xəzərlərin müasiri olan ərəb səyyah və coğrafiyaşünası əl-İstəxri xəzərləri ağ xəzərlər və qara xəzərlər kimi iki hissəyə ayırıb. O, ağ xəzərlərin mavi gözlü və qırmızı saçlı olduğunu bildirib, qara xəzərləri isə qarayanız olduqları üçün hindlilərə oxşadıb. Bir sıra mənbələrdə ağ xəzərlərin hökmdar sinfinə, qara xəzərlərin aşağı təbəqəyə aid olduğu iddia edilib.**

İbn Rəbbihi xəzərlər qara saçlı, mavi gözlü və açıq dərili, İbn Səd əl-Məğribi isə onları ağ rəngli, mavi gözlü, qırmızı saçlı və böyük bədənli kimi xarakterizə edib.

Yunan tarixçisi Teofanis xəzərləri "Şərqdən gələn türklər" adlandırıb, fransız tədqiqatçı Renye Qroset göytürklərin Jujan xaqanlığında hakimiyyəti ələ keçirməsi zamanı xəzərlərin qərbə köçən türk xalqlarından biri olduğunu iddia edib.

Qədim türk adətinə görə, xaqan olacaq adamın boynuna bir neçə yerdən kəmənd atıldıqdan sonra onu sıxmağa başlayır və neçə il hökmranlıq edə biləcəyini soruşurdular. Əgər xaqan bu mərasim zamanı söylədiyi vaxtdan çox hakimiyyətdə qalmaq fikrinə düşərdisə, onu hakimiyyətdən uzaqlaşdırırdılar.

Britaniya tarixçisi, yazıçı və jurnalist Saymon Sebaq Montefiore məşhur "Yerusəlim" kitabında yazır: – 1948-ci ildə qurulan İsrail dövlətindən əvvəl yəhudi dövlətini tarixdə IX əsrdə xəzərlər yaradıb. Yəni xəzərlər yəhudilərə qucaq açmaqla yanaşı, eyni zamanda, yəhudilərin Qüdsdə dövlət qurmalarına da kömək ediblər.

"Bütün tarixçilərin imamı" adlandırılan ərəb tarixçisi və səyyahı İbn Xəldun Məsudi yazır ki, Xəzər Xaqanlığının yeddi baş hakimi olub, onların ikisi müsəlmanların, ikisi xristianların, ikisi yəhudilərin və biri isə qədim türk dininə – tanrıçılığa etiqad edənlərin və rusların məhkəmə işlərinə baxıb.

Mənbələrdə Xəzər xaqanlarının ölkəni ədalətlə idarə etdikləri xüsusi vurğulanıb, dini işlərə müdaxilə olmayıb, Xəzər şəhərlərində bütün dinlərin ayin və mərasimləri sərbəst keçirilib. Məhz bunun nəticəsidir ki, mövcud olduğu təxminən dörd əsr ərzində xaqanlıq dini tolerantlıq şəraitində yaşayıb.

Xəzərlər haqqında Azərbaycan yazıçısı Elxan Zal Qaraxanın rus dilində çap olunan "Хазарский простор" ("Xəzər məkanı") adlı tədqiqat əsəri son dövrlərdə yazılan sanballı əsər kimi diqqəti cəlb edir və bu haqda tədqiqatçılar KİV-də müsbət fikirlər yazıblar.

Millət vəkili, fəlsəfə doktoru Cavanşir Feyziyevin "modern.az" portalında "Xəzərlər kimdir, Elxan Zal Qaraxanlının araşdırması" sərlövhəli məqaləsi bu baxımdan maraq kəsb edir.

Cavanşir Feyziyevin məqaləsində deyilir: "Əsərdəki maraqlı epizodlardan biri də Ktesiy və Herodotun Midiya ilə bağlı nəql etdikləri bir-biri ilə uzlaşmayan tarixi hadisələrin müqayisəsidir. Müəllif sadəcə mətnləri müqayisə etmir, mətnlərdə istifadə olunmuş müxtəlif terminlərin, etnonimlərin, toponimlərin, hidronimlərin linqvistik-fonetik müqayisəsini aparır, fiziki-coğrafi koordinatları dəqiqləşdirir, həmin tarixi dövrlər üçün xarakterik olan siyasi təsisatların iyerarxiyasını araşdırır, oxşar və fərqli, bəzən də eynilik təşkil edən elementləri ayırd edir. İskitlərlə göytürklərin və xəzərlərin qarşılaşdırılması nəticəsində digər qövmlərlə bərabər xəzərlərin də Azərbaycan etnogenezinin formalaşmasında mühüm rol oynadığını ortaya qoyur və Azərbaycan toponiminin "Atropatkan", "Atropatetena" kimi təhrif olunmuş adlardan deyil, qədim Avesta dilindəki "Xazarvayja" (Xəzər məkanı) termininindən yaranması mülahizəsini irəli sürür".

Akademik Şahin Mustafayev "Azərbaycan tarixində xəzərlər haqqında dəyərli əsər" ("Ədəbiyyat qəzeti" 2019.- 25 may) adlı məqaləsində şərqşünas alim – tarix üzrə fəlsəfə doktoru Fərda Əsədovun xəzərlərə bağlı monoqrafiyasına müsbət qiymət verməklə yanaşı, Xəzər Xaqanlığı haqqında öz fikir və mülahizələrinə də yer ayırıb.

Şahin Mustafayev öz məqaləsində yazır: "İlk növbədə vurğulamaq gərəkdir ki, xəzərlərin qurduğu və müasir tarixşünaslıqda "Xəzər xaqanlığı" adı ilə bilinən dövlət İslamdan öncəki qədim cahanşümul türk dövlətçilik ənənəsini qoruyub saxlamaqla Avrasiyanın əngin çöllərini birləşdirib və bununla da tarixdə özündən əvvəlki Türk xaqanlıqlarının sonuncu və təbii varisi olub. Təsadüfi deyil ki, 551-ci ildə indiki Monqolustanın ərazisində Orxon çayı sahilində ilk "Türk xaqanı" adını qazanan Bumın xaqan Aşina nəslinə mənsub olduğu halda, bu sülalənin tarixdə sonuncu hökmdar nümayəndələri də məhz Xəzər xaqanları olmuşlar. Xəzər xaqanlığının X yüzillikdə süqutu ilə Aşina sülaləsi də tarix səhnəsindən silinmişdir".

Azərbaycan türklərinin etnogenezində və Azərbaycan dilinin (Azərbaycan türkcəsinin) formalaşmasında xəzərlərin böyük rolu olub. Təsadüfi deyil ki, Azərbaycan dilçisi, dialektoloq, türkoloq Elbrus Əzizov (Visiontv.az) müasir Azərbaycan dilinin bəzi dialektlərinin yaranmasını xəzərlərlə bağlayır. R.Əzizov yazır: "Eramızın ilk əsrlərindən başlayaraq xəzərlər Şimali Qafqazdan mütəmadi olaraq Qafqaz Albaniyası ərazisinə yürüşlər edirlər. VIII-IX əsrlərdə xəzər-ərəb müharibələrinin əksəriyyəti də məhz Azərbaycan ərazisində baş vermişdi. Bunların nəticəsində xəzərlərin bir hissəsi tədricən Azərbaycan ərazisində məskunlaşmışdır".

Yazar Aqşin Yenisey "Yəhudilərlə azərbaycanlıların dostluğu - Xəzərlərin tarixi mirası" (Oxu.az) materialında Saymon Sebaq Montefiorenin "...yəhudi dövlətini tarixdə IX əsrdə xəzərlər yaradıb" fikrini davam etdirir: "Üç dinə sitayiş xəzərlərin çöküşündən sonra fərqli bir mənzərə yaratdı; xristian xəzərlər rus boyarlarına çevrildilər, müsəlman xəzərlər xarəzimlər kimi tarixdə yerlərini aldılar. Yəhudi xəzərlər isə əsasən Şərqi Avropaya köç etdilər. Hətta bu gün Eran Əlxayk kimi genetiklər aşkinazi yəhudilərinin (Şərqi və Mərkəzi Avropa yəhudiləri) əcdadlarının Xəzər bölgəsində yaşayan türk tayfaları olduğunu iddia edirlər. Bütün bu tarixi faktlar onu göstərir ki, bu gün yəhudilər bizi Qafqazda xəzərlərin varisləri kimi qəbul edirlər".



Xəzər imperiyasının bayrağı

Naməlum müəllifin Qəznəvi hökmdarı Sultan Məhəmmədə həsr etdiyi "Hüdud əl-aləm" əsərində göstərilir ki, Xəzər imperiyasının hökmdarları Ansa sülaləsinə mənsubdur və bu sülalə Türküstandan buraya gəlib.

### Bütpərəstlik, iudaizm, islam və xristianlıq ölkəsi

Xəzər Xaqanlığı adlı türk dövləti 618-ci ildən formalaşmağa başlayıb, 651-ci ildən Xəzər İmperiyasına çevrilib, 969-cu ilədək fəaliyyət göstərib. (Bəzi mənbələrdə bu rəqəm 1048-ci göstərilir). Paytaxtı 723-cü ilə kimi Dağıstanın Səməndər, sonra isə Xanbalıq, Bilənсər, Sarkel və İdil şəhərləri olub. Xaqanlığın dili Xəzər dili, dini ayrı-ayrı vaxtlarda bütpərəstlik, iudaizm, islam, xristianlıq, tanrıçılıq idi. Mənbələrdə xəzərlərin bir hissəsinin şaman olmaları ilə bağlı faktlar da var.

VII-X əsrlərdə Xaqanlığın ərazisi Azərbaycandan Ural dağlarına, Xəzər dənizinin şimal-qərb sahillərinə, Aşağı İdil (Volqa) boyuna, Aral gölündən Macarıstana, Van gölündən Qara dənizə və Kiyevə qədər uzanıb. Xaqanlığın ərazisi 850-ci ildə 3 milyon kvadratkilometr, 900-cu ildə 1 milyon kvadratkilometr olub. Xəzərlər Xəzər dənizi ilə Qara dənizin şimal hissəsində, həmçinin Krım, Qafqaz, Dnepr, Don və İdil (Volqa) çaylarının arasında müstəqil bir imperiya qura biliblər.

582-ci ildə Göytürk xaqanlığı iki yerə – Qərbi Göytürk Xaqanlığı və Şərqi Göytürk Xaqanlığına bölündükdən sonra nisbi müstəqillik əldə edən xəzərlər bundan istifadə edərək Kuban çayı və Azov dənizi arasındakı ərazilərdə məskən salıblar, VII–X əsrlərdə Aşina nəslinin Qərbi Göytürk xaqanlığını idarə edən xaqanları bu ərazilərdə yaşayan türk tayfalarını da özlərinə birləşdirib Xəzər dənizi ilə Qara dənizin şimalında böyük dövlət qurublar. Dövlətin ərazisində türklər, slavyanlar, Qafqaz xalqları, hunlar və digər etnoslar yaşayıb. Bununla belə türklər zaman-zaman xaqanlıqda artmağa başlayıb. Bunu da demək lazımdır ki, Azərbaycan türklərinin, qumuqların, qaraçayların, balkarların, həmçinin Krım tatarlarının formalaşmasında xəzərlərin rolu danılmazdır.

Hələ müstəqillikdən əvvəl xəzərlər Bizansa qarşı, sonra isə Bizansla birləşərək Sasanilərə qarşı vuruşublar. 558-ci ildən başlayaraq Sasani-Xəzər müharibələri daha da güclənib, Sasani hökmdarı Xosrov Ənuşirəvan müdafiə məqsədi ilə Dərbənd və Qafqazın mühüm strateji məntəqələrində qalalar və səddlər inşa etdirir. Bununla belə xəzərlərə qalib gələ bilməyəcəyini anlayan Ənuşirəvan xəzərlərlə dostlaşmağı qərara alır. Bu dostluqdan onun məqsədi şimaldan gələn təhlükələrin qarşısını almaq idi. Bununla belə dostluq münasibətləri uzun sürməyib. 626–627-ci illərdə xəzərlər bizanslılarla danışığa gedərək Araz çayına qədər bütün Şimali Azərbaycanı, Ərməniyyəni, 629-cu ildə isə Tiflisi tuturlar.

Mənbələrin məlumatına görə, VI əsrin son rübündən başlayaraq Xosrov Ənuşirəvan 10 min xəzər ailəsini Azərbaycana köçürüb. VII əsrin 20-ci illərinin sonunda İran-Bizans müharibələrində Bizansın müttəfiqi kimi Cənubi Qafqaza yürüş etmiş türk qoşununun əsas hərbi qüvvəsini xəzərlər təşkil edib.



Xəzər imperiyasının xəritəsi

### 630-cu ildən başlanan yüksəliş

630-cu ildən Xəzər Xaqanlığı siyasi və hərbi cəhətdən daha da güclənir. Qonşu dövlətlər xəzərlərlə hesablaşmağa başlayır. Bununla belə xəzərlərin 651–652-ci illərdə ərəblərlə müharibələri baş verib. Xəlifə Ömərin dövründə İlk və böyük vuruşma olub, Xilafət ordusu Xəzəryanı əraziləri, Dərbəndi və Xəzər Xaqanlığının paytaxtı Bilənсəri tutur. Bundan sonra xəzərlər İdili özlərinə paytaxt seçib.

Xilafətin Şimali Qafqaza gedən bütün yollarını bağlayır. Xəlifə Osman öldürüldükdən sonra 652–656-cı illərdə Xilafətin daxilində qarışıqdurma yaranır və xəzərlər bu imkandan faydalanaraq Arrana qədər olan əraziləri işğal edirlər.

717–718-ci illərdə xəzərlər Şirvanı, sonra isə Azərbaycanın bir hissəsini tutur, Mosula qədər olan əraziləri öz torpaqlarına qatır.

Xəzərlərin ayrı-ayrı vaxtlarda qonşu Bizans, Sasani, Ərəb imperiyaları ilə sıx əlaqələri olub, maraqlar toqquşduqda yenidən münasibətlər pisləşib. Bu əməkdaşlığın nəticəsidir ki, VII əsrdə Bizans imperatoru Herakleios xəzərlərlə müttəfiqlik müqaviləsi imzalayıb. Bundan sonra Xəzər Xaqanlığında hakim zadəganların bir hissəsi bizanslılara və ərəblərə qarşı sülalə siyasəti kimi yəhudiliyi qəbul edib.

VII əsrdə xəzərlərlə ərəblər arasında münasibətlər pisləşib, 737-ci ildə Xəzər xaqanı ərəblərlə sülh imzalayıb və bundan sonra xəzərlər arasında İslam dini yayılmağa başlayıb.

VII əsrdə Xəzər xaqanlığı Krımı işğal edir. Qara dənizin şimal hissəsi və Krımın Xəzər Xaqanlığı tərəfindən işğalı imperiyanı daha da gücləndirir, əsrin sonlarında Dneprə qədər olan ərazilər tutulur. Bu dövrdə xəzərlərlə Bizans arasında əlaqələr yaxşılaşsa da bir müddətdən sonra yenidən pisləşir. Səbəbi Bizans imperatoru I Romanosun yəhudilərə olan pis münasibəti idi. Bundan sonra Bizansdan qovulan yəhudilər Xəzər Xaqanlığının ərazilərinə köç edir. Buna cavab olaraq xəzərlər xristianları təqib edir. Bundan sonra Bizans imperatoru Kiyev knyazlığı ilə müttəfiqlik münasibətləri yaradır, sonra isə uzlar, peçeneqlər və alanlarla ittifaq münasibətləri qurur, Xəzər xaqanlığına hücum edir və uduzurlar.

Xəzərlər uzun müddət Zaqafqaziya bölgəsində hökmranlıq uğrunda mübarizədə Ərəb xilafəti ilə rəqabət aparıb. Bir sıra Şərqi Slavyan qəbilə birliyi siyasi cəhətdən xəzərlərdən asılı olub.

Məhz bunun nəticəsidir ki, 733-cü ildə Bizans imperatoru III Leon oğlu Konstantini Xəzər xaqanının qızıyla evləndirib.



Xəzər imperiyasının sikkəsi – IX əsr

790-cı ildə Xəzər xaqanı Obadi iudaizmi xaqanlığın rəsmi dini elan etdikdən sonra xaqan və oğlanlarını öldürür. Obadinin qardaşı hakimiyyəti ələ keçirir. Həm xaricdən ölkəyə hücumlar, həm də daxili çəkişmələr Xaqanlığın get-gedə zəifləməsinə gətirib çıxarır. O biri yandan da Kiyev knyazı Svyatoslav 965-ci ildə Xaqanlığa hücum edir, Səməndər və Sarkel şəhərlərini viran qoyur. Svyatoslav Sarkel şəhərinin ərazisində Belaya Veca adlı qala tikdirir. Xəzərlərin bir hissəsi Krıma, bir hissəsi isə Şimali Qafqaza köç edir. Şimali Qafqaza gedən xəzərlər Qaraçay türklərinin ulu babaları sayılır.

### Xəzərlərlə rus-slavyanlar

Mənbələrdə Xəzər xaqanlığının 859-cu ildən sonra polyan, severyan, radimiç və vyatiç kimi rus-slavyan tayfalarını özlərinə tabe etməsi və onlardan bac alması ilə bağlı kifayət qədər məlumat var.



Rusların xəzərlərə xərac verməsi, Radzivil salnaməsi

884-cü ildə rus-slavyan tayfaları xəzərlərə qarşı birləşir və bac verməkdən imtina edirlər. Bac üstündə xəzərlərlə slavyanlar arasında münaqişə illərlə davam edir, ruslar bac verməkdən imtina etdikdə problem müharibə ilə yoluna qoyulur.

939-cu ildə Kiyev knyazı I İqor yenidən Xəzər xaqanlığının paytaxtı Tmutarakan şəhərinə hücum edir. I İqorun qoşunları geri oturdulsa da fürsətdən istifadə edən Bizans hərbçiləri xəzərlərə hücum edir, hücumun qarşısı alınsa da yaranmış qarışıqlıqdan istifadə edən Bizans qüvvələri onlara qoşulur və Krım yarımadasının bir hissəsini ələ keçirirlər. 939-cu ildə Xəzər xaqanı II Aaron Krıma hücum edir və Bizans qüvvələrini Krımdan qovur.

944-cü ildə ruslar, xəzərlərin ərazisindən keçərək o dövrdə Qafqazın mərkəzi sayılan Bərdə şəhərinə hücuma keçir, kütləvi qırğınlar və qarətlər törədirlər.

### Xəzər imperiyası zəifləyir

IX əsrdən başlayaraq Xəzər Xaqanlığı zəifləməyə başlayır. IX əsrdə qıpçaq və uzların xaqanlığa hücumları zamanı xəzərlər uduzur. 854-cü ildə kəbərlər, macarlar və bulqarlar xəzərlərin hakimiyyətindən çıxır. 860–880-ci illərdə peçeneqlər uzlara qalib gəlir və Xəzər xaqanlığının torpaqlarına – Don və Kuban çaylarının sahillərinə köç edirlər. Kuman qıpçaqlarının Qərbi Sibirdən Volqa sahillərinə köç etməsi xəzərlərin Xarəzm və Türkistanla ticarət əlaqələrinin qarşısını alır.

Xəzərlərin yaşadıqları ərazilər ticarət üçün əhəmiyyətli olub. IX yüzilliyin ortalarında peçeneqlərin İdil-Xarəzm ticarət yolunu ələ keçirməsindən sonra Xəzər xaqanlığı gəlir mənbələrini itirir və dövlətin daha da zəifləməsinə səbəb olur. Bundan istifadə edən rus knyazları Xəzər xaqanlığının paytaxtı İdilə və Qafqaz üzərinə yürüş edirlər. 1016–1019-cu illərdə Bizans və Kiyev knyazlığı xəzərlərə qarşı ittifaq yaradır, xaqanlığın Tmutarakan şəhəri və ətraf əraziləri işğal olunur.

Xəzərlər Aşağı İdil, Azov və Krımda kiçik xanlıqlar kimi fəaliyyətlərini davam etdirirlər. Xəzərlərə son zərbəni 1030-cu ildə peçeneqlər vurub. Bir yandan türk tayfaları, o biri tərəfdən Bizans və Kiyev-rus knyazlığı ilə müharibələr və daxili münaqişələr xaqanlığı çökdürür. Beləliklə, Xəzər Xaqanlığı Bizans imperatorluğunun da yaxından köməyi ilə XI əsrdə süqut edib. bununla belə xəzərlərin adı XII əsrə aid mənbələrdə də çəkilir.

### Türk dünyasında Xəzərlə bağlı toponimlər

Azərbaycanda və Türkiyədə, Özbəkistanda və digər ölkələrdə Xəzər toponimi ilə bağlı xeyli məkan var. Azərbaycan tarixçisi, etnoqrafı, tarix elmləri doktoru, professor Qiyasəddin Qeybullayev qeyd edir ki, Azərbaycandakı Tərnəvit, Ulaşlı, Kəbirli, Qaraçorlu və b. toponimlər xəzərlərin tərnə, kulas, kəbər və karaçor tayfalarının adı ilə bağlıdır. Azərbaycanda Xəzərdağ (Füzuli rayonu), Xəzəryurd (Ordubad rayonu), Xəzər-yaylaq (Lerik rayonu), Xəzəllər (Laçın rayonu) toponimləri Xəzər etnonimini saxlayıb.

Vanda – Xazara (Qaraboyun), Xazar (Kırkcalı), Trabzonda-Xəzərqrad (İki dərə), Qarsda – Kiçik Xəzriyan (Kiçik Sütlücə), Kayseri və Bingöldə-Xəzər-şah, Elazığda-Xazar (Plyajköy), Xazar gölü... Bunlar Xəzər toponimi ilə bağlı adların tam siyahısı deyil.

Özbəkistanın ən qədim şəhərlərindən biri də Xarəzm vilayətində Xazarasp adlı şəhər tipli qəsəbədir. X əsr fars coğrafiyaşünası əl-İstəxri Xarəzmin suvarma sistemlərini təsvir edərkən böyük gəmilərin üzdüyü böyük Xazarasp kanalı, eləcə də Amudəryaya yaxın düzənlikdə yerləşən Xazarasp şəhəri haqqında yazır.

Əl-Maqdisiyə görə, Xazarasp çoxlu bazarları olan böyük ticarət şəhəri idi. Xazarasp XIII əsrin əvvəllərinə, yəni monqol istilasına qədər 300 il ərzində çiçəklənən iri ticarət şəhərlərindən biri olub.

XVIII-XIX əsrlərdə əcnəbi səyyahlar Tomson, Efremov, Rukavkin və başqalarının yazdıqlarına görə, Xivədən sonra xanlığın ikinci böyük və əhəmiyyətli şəhəri məhz Xazarasp olub. Arxeoloqlar Xazarasp şəhərində müxtəlif tikililərin qalıqlarını aşkar ediblər: qalalar, saraylar, məbədlər, karvansaraylar, bazarlar, sənətkarlıq emalatxanaları, hamamlar və s. Məhz buna görə də Xazarasp şəhəri UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib.

Onu da deyək ki, keçmiş Sovet dövründə arxeoloqlar Şimali Qafqazda, həmçinin Kuban və Don çaylarının hövzələrində qədim şəhərlərin xarabalıqlarından Göytürk və Xəzər Xaqanlığına aid türk maddi mədəniyyət nümunələri – üzərində türk yazıları olan saxsı əşyalar və metal məmulatlar, daş heykəllər, qızıl və gümüşdən hazırlanan müxtəlif sənət əsərləri aşkar ediblər.

Müxtəlif illərdə hökmdarlıq edən Xəzər xaqanları:

Monqolustan ərazisindəki iki qədim türk kitabəsində VI əsrdə xəzərlərin hökmdarı kimi tanınan Kalut Kasardan bəhs edilir. Bunula belə müxtəlif mənbələrdə Xəzər xaqanlarının bəzilərinin adları verilib:

*Cebu xaqan
*Tonq Yabqu, VII əsrdə İran-Bizans müharibəsi zamanı xəzərlərin lideri, 618-628-ci illər...
*İbuzir Qlyavan, 704–711…
*Bardjil və ya Bardcil, 722-731…
*Parsbit və ya Prisbit, 730-cu il, xaqanlığın ilk qadın hökmdarı, hakimiyyətə gətirilərkən uşaq olub.
*Virxor, 732-750… qızı Çiçəyi gələcək Bizans imperatoru V Konstantinə ərə verib
*Bahadur, 759–763…
*Zəkəriyyə, 860–861...
*Obadiya, (786-809) ərəb xəlifəsi Harun ər-Rəşidin müasiri
*Ezekiya
* I Manassiya IX əsr
*Bulan IX əsr
* Xanukka
* İshaq
*Zavulon
*II Manassiya (Musa)
*Nissi
*I Aaron
*Menaxem
*Benjamin 880-900…
*II Aaron 900-930…
* İosif-Yusif 932-960...
*David X əsr

Tarixin keçməkeşli bir dövründə dörd əsrə yaxın bir dövrdə yaşayan Xəzər xaqanları haqqında mənbələrdə məlumatlar o qədər də çox deyil. Bəzən fakt və rəqəmlər üst-üstə düşmür. Yazıda hökmdarların adları ingilis və slavyan mənbələrində olduğu kimi verilib.

*Qulu KƏNGƏRLİ,*
*XQ-nin Türküstan müxbiri*

*Yusif Səmədoğlu – 90*

# Səməd Vurğun ocağının nasir oğlu

**Məlum olduğu kimi, Prezident İlham Əliyev 4 sentyabr 2025-ci ildə Xalq yazıçısı Yusif Səmədoğlunun 90 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb. Sənədin preambula hissəsində qeyd edilib ki, Yusif Səmədoğlu XX əsr Azərbaycan nəsrinin yetirdiyi nadir istedada malik böyük simalardandır. Dərin ictimai-mənəvi məzmunlu əsərləri – hekayə, roman və film ssenariləri ilə ədəbi prosesdə iz qoymuş yazıçıdır.**

Yusif Səmədoğlu məşhur Vəkilovlar nəslinin layiqli nümayəndəsi, unudulmaz Xalq şairimiz Səməd Vurğunun böyük oğlu idi. Ötən əsrin 60-70-ci illərində milli nəsrin keyfiyyətcə yeni mərhələyə keçməsində xüsusi xidmətləri olub. Parlaq mədəniyyət hadisəsinə çevrilmiş məşhur "Qətl günü" romanı ədibə Azərbaycanın hüdudlarından kənarda da şöhrət qazandırıb. Yusif Səmədoğlu rəhbəri olduğu mühüm ədəbi-bədii məcmuələrdən milli düşüncə və ideyanın daha geniş yayılması üçün tribuna kimi istifadə edib, ölkədə azadlıq hərəkatının və müstəqillik uğrunda mübarizənin ön sıralarında dayanıb, xalqın taleyüklü məsələlərinə münasibətdə həmişə vətəndaş-ziyalı mövqeyi ilə seçilib.



Hələ Səməd Vurğun sağ ikən (1953) Moskvadakı M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutuna daxil olan gənc Yusif atası vəfat edəndən sonra həmin institutun 4-cü kursundan Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə keçirilərək, ali təhsilini burada bitirib. "Azərbaycan" jurnalı redaksiyasında, kinostudiyada, "Ulduz" dərgisində sıravi işçidən rəhbər vəzifələrə qədər məhsuldar fəaliyyət göstərib. 1960-cı ildə onun Nəmidə xanımla toyunda böyük türk şairi Nazim Hikmət də iştirak edib, sağdış deyib…

Gözəl bədii dili olan ədibin psixoloji və ictimai siqləti ilə seçilən "220 saylı otaq", "Qalaktika", "Qətl günü" kimi kitabları ədəbi tənqidin və geniş oxucu kütləsinin diqqətini cəlb edib. Onun "Saat işləyir", "Simurq quşu", "Bayatı-Şiraz", "İncə dərəsində yaz çağı" və sair hekayələri dəyərli əsərlər kimi yadda qalıb.

İstedadlı qələm sahibi hələ 60-cı illərdə Cəlil Məmmədquluzadə və Səməd Vurğun haqqında sənədli filmlərin ssenarisini yazıb. "Yeddi oğul istərəm", "Səmt küləyi", "Qətl günü" adlı bədii filmlərin ekran uğurunda Yusif Səmədoğlunun zəhməti payı böyük olub.

Son əsəri – "Deyilənlər gəldi başa" romanı yarımçıq qalıb. Yaxın dostu – AYB-nin sədri, Xalq yazıçısı Anarın dediyinə görə, əsərin 85 səhifəlik mətnini oxuyub və təəssüratlarını onun "Seçilmiş əsərləri"nə yazdığı ön sözdə belə ifadə edib: "Yusif istedadına xas olan təfərrüat dəqiqliyi, sanki öz gözünlə görürsənmiş kimi təsvir olunmuş və danışıqları öz qulağınla eşidirsənmiş kimi canlandırılmış personajlar, 85-ci ildə başlamış və sonrası görünməmiş sarsıntılarla, ictimai zəlzələlərlə, siyasi tufanlarla, faciələrlə, qanla, göz yaşlarıyla nəticələnmiş hadisələrin ilk hənirtisi, ilk işartıları. Sanki aləmi tarmar edəcək, silib-süpürəcək güclü bir selin hələ çox uzaqlardan eşidilən uğultusudur bu...

Yusifin son əsərlərindəki mistik motivlər, ümumən yazıçının mistisizmə, irrealizmə meyli "Deyilənlər gəldi başa" romanının ilk səhifələrindən açıq-aşkar sezilir… Təbii ki, roman ilk növbədə müəllifin bədii fantaziyasından, təxəyyülündən doğur, amma yazıçının real həyatda gördüklərinin, yaşadıqlarının, duyduqlarının, təəssüratlarının da bu yaradıcılıq prosesində çox önəmli payı var. "Deyilənlər gəldi başa" romanını oxuduqca Yusiflə keçirdiyimiz bəzi günlərin, saatların xatirələri canlanırdı gözlərim qarşısında: Moskva günlərimiz, Dərbənd səfərimiz, Misirə getməyimiz... Nə yazıq ki, amansız ölüm Yusifi bizdən ayırdı, ədəbiyyatımızın başlanğıcı belə maraqlı şəkildə yazılmış dəyərli bir romandan məhrum oldu".

Bu yerdə ədibin qızı Humay Vəkilovanın xatirələrindən bəzi qeydlərə də istinad edək: "Atam 1990-cı ildə müstəqil Azərbaycanın ilk parlament üzvlərindən biri olub. Çox vətənsevər və millətsevər idi. Onun ən böyük üstünlüyü demokratik insan olmağında idi. Bu yaxınlarda rəhmətlik əmim Vaqif Səmədoğlunun köhnə müsahibəsinə qulaq asırdım. Səməd Vurğun haqqında ona sual verdilər. O da eynən bu sözü dedi.

Atam evdə necə idisə, kollektivdə də, dostlarla da elə olurdu. Gözəlliyi çox sevirdi. Gözəl də geyinirdi, özünə fikir verirdi. Zövqlü insan idi. Onun, həmçinin gözəl qəlyan kolleksiyası var idi... Atam həm də olduqca cəsarətli insan idi. 20 Yanvar hadisələri zamanı çox sarsılmışdı. Canlı yayımda bütün dünyaya baş verənlər haqqında car çəkmək böyük cəsarət tələb edirdi. Çox adamlar gizlənsə də, atam və Bəxtiyar Vahabzadə heç nədən qorxmadan insanları qırğından qorumağa çalışırdılar (Y.Səmədoğlunun "Azadlıq" radiosuna məlum müsahibəsi nəzərdə tutulur)".

Sonda əlavə edək ki, görkəmli yazıçı təyyarəyə minməkdən qorxurmuş. Bu fobiya onda 1960-cı ildə İL–18-lə Moskvaya bal ayına gedərkən təyyarənin az qala qəzaya uğramasından sonra yaranmışdı. O zaman pilotların cəsarəti sayəsində təhlükə sovuşmuşdu. 1973-cü ildə isə Moskvadan qalxan təyyarə Praqaya enərkən qəzaya uğrayıb və göyərtədəkilərin çoxu həlak olub. Sən demə, həmin reyslə Yusif Səmədoğlu və Eldar Quliyev də uçacaqlarmış. Sadəcə yazıçı əvvəlki axşam Praqaya uçmaq istəmədiyini deyibmiş. Bəlkə də o, bilərəkdən səhər gec oyanıb və reysə gecikiblər.

Təəssüf ki, təyyarə qəzalarından qurtulan Yusif Səmədoğlu sağalmaz xəstəliyin cəngindən qopa bilməyib və 1998-ci ildə, 62 yaşında dünyasını dəyişib. Təsəlli budur ki, o, mənalı, dolğun və xalqımız, ədəbiyyatımız üçün son dərəcə faydalı bir ömür sürüb, "Şöhrət" ordeninə layiq görülüb və "Səmədoğlu" imzasına şərəf gətirib.

**Ruhu şad olsun!**

***Ə.DOSTƏLİ***
***XQ***

# Alimlərimizin gözləri daha nurlu olsun!




**Dünən Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin Səyyar Klinikasının peşəkar həkim-oftalmoloqları AMEA Rəyasət Heyəti aparatının əməkdaşları üçün ödənişsiz göz müayinəsi həyata keçiriblər.**

Göz müayinəsi prosesini AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli və akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin direktoru, AMEA-nın müxbir üzvü Elmar Qasımov da müşahidə ediblər. Mərasimdə AMEA prezidenti bir sıra nəşrləri Mərkəzin direktoruna hədiyyə edib.

Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin Səyyar Klinikasının peşəkar həkim-oftalmoloq heyəti tərəfindən əməkdaşların görmə qabiliyyətinin zəifləməsinin qarşısının alınması məqsədilə onların göz təzyiqi və refraksiya (miopiya, hipermetropiya, astiqmatizm) anomaliyaları yoxlanılıb, zəruri məsləhətlər və tövsiyələr verilib, ehtiyacı olanlar müvafiq istiqamətdə yönləndiriliblər.

Bu gün isə AMEA-nın Əsas binasının önündə akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin Səyyar Klinikası tərəfindən AMEA-nın elmi müəssisə və təşkilatlarında çalışan əməkdaşlar üçün növbəti ödənişsiz göz müayinəsi həyata keçiriləcək.

***Qabil YUSİFOĞLU***
***XQ***

# Estoniyada Azərbaycanın "Aşıq və muğam" musiqisi




**Estoniyanın paytaxtı Tallin şəhərində Azərbaycan Mədəniyyəti Günləri çərçivəsində "Mere" Mədəniyyət Mərkəzində görkəmli bəstəkar Üzeyir Hacıbəylinin 140 illik yubileyinə həsr olunmuş "Aşıq və muğam" adlı konsert keçirilib.**

Azərbaycan Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə keçirilən mədəniyyət günlərinin təşkilatçısı rəssam Rövşən Nurun rəhbərlik etdiyi "Buta" Azərbaycan Mədəniyyət Mərkəzidir. Konsertə Estoniya parlamentinin, Mədəniyyət Nazirliyinin, İnteqrasiya Fondunun, diplomatik missiyaların nümayəndələri qatılıblar. Konsertin qonaqları arasında Azərbaycan Milli Konservatoriyasının dosenti, sənətşünaslıq üzrə fəlsəfə doktoru Mübariz Əliyev də iştirak edib.

Konsertdə muğam triosu - Asim Pirimov (tar), Hüseyn Nağıyev (kamança) və xanəndə Rəvanə Vəliyeva ifa ediblər. Tallinin məşhur "Grace" rəqs truppası da səhnəyə çıxıb və Azərbaycan milli rəqsləri sərgiləyib. Muğam və Xalq mahnıları səsləndirilib. Azərbaycan milli musiqisi və rəqsi tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb. Estoniyalı tamaşaçılar belə tədbirlərin tez-tez keçirilməsinin xalqlar arasında mədəni əlaqələrin və dostluğun möhkəmlənməsinə xidmət etdiyini bildiriblər.

***XQ***

*Sağlamlıq*

# Payız xəstəliklərindən necə qorunaq?

**Payızda havaların nisbətən soyuması ilə bədənin müqaviməti azalır. Orqanizm zəiflədiyi üçün mövsümi xəstəliklərə yoluxma halları da artır. Bu fəsildə daha çox rast gəlinən xəstəliklərə qrip (influenza), respirator virus infeksiyaları, bronxit, tonzillit kimi tənəffüs yolları infeksiyaları daxildir.**

Xəstəliklərin artmasının əsas səbəbi isə infeksiyaların yayılması üçün əlverişli mühitin yaranması və insanların qapalı məkanlarda daha çox vaxt keçirməsidir. Viruslar qapalı məkanlarda daha sürətlə yayıldığı üçün yoluxma riski artır. Qripə yoluxma bütün fəsillərdə olsa da, payız-qış aylarında daha geniş forma alır. Hər mövsümdə bu xəstəliyin mutasiyaya uğramış yeni versiyası peyda olur.

**Mövzu ilə bağlı Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, həkim-infeksionist Təyyar Eyvazov XQ-yə** açıqlamasında



bildirdi ki, yoluxmaların məhz payız-qış mövsümündə artmasına havaların soyuması, insanların daha çox qapalı məkanlarda (məktəb, universitetlər, iş yerləri və s.) toplanması, iş və dərs otaqlarının daha az havalandırılması, yaxın təmaslar, dəyişkən havada geyim seçiminin çətinləşməsi və immunitetin təbii ritmik zəifləməsi və s. səbəb olur. Mütəxəssis qeyd etdi ki, soyuq havalarda ən çox rast gəlinən hava-damcı və təmas yolu ilə ötürülən kəskin respirator virus infeksiyalarıdır:

– Bu infeksiyalardan qeyri-spesifik qorunmaq yolları respirator və əl gigiyenasından ibarətdir. İctimaiyyət bu haqda səhiyyə qurumlarının mütəxəssisləri tərəfindən kifayət qədər maarifləndirilir. Qorunmağın spesifik yolu isə vaksinasiyadır. Hazırda qripin aktivləşməsi ərəfəsindəyik və bu xəstəliyə yoluxma hallarının qışa doğru artması qanunauyğun bir prosesdir, hər il təkrar olunur. Buna görə, qripə qarşı vaksinasiya, xüsusən risk qruplarına daxil olan insanlar üçün vacib sayılır.

Təyyar Eyvazov daha sonra söylədi ki, kəskin respirator virus infeksiyaları sağlam insanlarda əsasən qısamüddətli xəstəlik halları törədir, fəsadsız ötüşür. Lakin həssas qruplarda, yəni 5 yaşın altında olan uşaqlarda, hamilələrdə, 65 yaş üstü şəxslərdə, ağır xroniki xəstəlikləri olanlarda və immundefisitli insanlarda müəyyən fəsadların inkişafına yol aça bilər. Bu fəsadlara pnevmaniyalar, orta qulağın iltihabı, meningit və ensefslitlər və s. aiddir. Yoluxmalara bütün yaş qruplarında rast gəlinir. Ən çox yoluxma halları böyük kollektivlərdə və qapalı məkanlarda keçirilən kütləvi tədbirlərdən sonra təsadüf olunur.

**ATU-nun Tədris Terapevtik Klinikasının Uşaq sağlamlığı və xəstəlikləri şöbəsinin rəhbəri, II Uşaq xəstəlikləri kafedrasının assistenti, pediatr Qoşqar İsmayılovun** sözlərinə görə isə hər il payız



mövsümündə virus xəstəliklərin artması ilk növbədə yay aylarında istirahətdə olan, açıq havada daha çox zaman keçirən məktəbli uşaqların, tələbələrin payız aylarında qapalı məkanlara qayıtması ilə əlaqədardır:

– Qapalı yerlərdə uşaqlardan biri xəstə olanda xəstəlik digərlərinə də sürətlə yayılır: Bu səbəbdən avqust ayında az rast gəlinən xəstəliklər sentyabrın ortalarında, oktyabrda özünü daha çox bürüzə verməyə başlayır. Bunun bir səbəbi də payız mövsümündə virusların aktivləşməsi, eyni zamanda immun sistemi zəif olan uşaqların yay mövsümündə yaxşı qidalanmamasıdır. Vitaminli meyvələrdən az istifadə edənlər də asanlıqla infeksion xəstəliklərə yoluxur və başqalarını yoluxdururlar.

Payız aylarında ən çox görünən virus infeksiyalarının qrip və paraqrip virusları olduğunu deyən həkim-pediatr vurğulayır ki, bu viruslar adından da göründüyü kimi, uşaqlarda kəskin respirator xəstəliklər yaradır. Bu xəstəliklər özünü burun axıntısı, burunda qaşınma, tək-tək quru öskürəkdən bəlğəmli öskürəyə keçməklə göstərir. Əgər nəsildə, ailədə, uşağın özündə allergiya varsa, o zaman allergik bronxit formasında da ortaya çıxa bilər. Gedişatdan asılı olaraq yüksək hərarət müşahidə edilərsə, mütləq şəkildə həkimə, xüsusilə poliklinika pediatrlarına müraciət etmək lazımdır.

Müayinə zamanı virus problemi ortaya çıxarsa, ilk növbədə bunun qarşısını almaq üçün simptomatik antivirus preparatlarından istifadə olunmalıdır. Xəstənin immun sistemi zəifdirsə və üstəlik, vaxtında üzərinə düşülməzsə, bakterial prosesin işə qoşulması ilə vəziyyət daha da ağırlaşar. Xəstəlik bakterial bronxit, pnevmoniya mərhələsinə keçə bilər ki, bu da sətəlcəm olan uşağın xəstəxanaya düşməsi ilə nəticələnər.

Pediatr açıqlamasının davamında dedi ki, belə halların qarşısını almaq üçün vaxtında həkim-pediatra müraciət etmək vacibdir:

– İlk növbədə, profilaktik tədbir görmək lazımdır. Mən hər zaman sosial şəbəkələrdə, maarifləndirici televiziya verilişlərində bütün valideynlərə üzümü tutub deyirəm ki, profilaktika çox önəmlidir. Körpə uşaqlarda profilaktik peyvəndlərin aparılması ilə yanaşı, yuxu rejiminin normal olması və düzgün qidalanma xüsusi önəm daşıyır. Daha kiçik uşaqlar 10-12 saat, məktəblilər isə 8-10 saat yatmalıdır. Yuxu rejimi normaldırsa, immun sistemi də normaldır. İmmun sistemi normaldırsa, uşaq sağlamdır.

Qidalanmada isə təbii qidalara üstünlük verilməlidir. Yay mövsümündə olan meyvələr, təbii vitaminli qidalar çox faydalıdır. Hər bir meyvə və tərəvəzdə müxtəlif vitaminlər və minerallar var. Çalışıb ev yeməklərindən istifadə etmək, "fast-food" və ya "əlüstü yemək"lərdən uzaq durmaq lazımdır. Belə olduqda təbii ki, uşaqlar sağlam böyüyəcək, xəstələnməyəcək, həkimə yalnız profilaktik məqsədlə müraciət ediləcək. Unutmayaq ki, sağlam övladlar cəmiyyətimizin sağlam gələcəyidir.

***Elenora HƏSƏNOVA***
***XQ***

# Praqada soydaşımızın rənglər aləmi



**Praqadakı Azərbaycan Mədəniyyət Evində rəssam Heyran Mustafazadənin "Köklər" sərgisinin açılışı olub.**

Mərasim rəmzi "sülh zəngi"nin çalınması ilə başlayıb. Mədəniyyət evinin direktoru və layihənin kuratoru Leyla Begim bildirib ki, "köklər" mövzusu birbaşa sülh anlayışı ilə bağlıdır: məkan təkcə torpaq deyil, həm də yaddaşın və kimliyin qoruyucusudur. Köklərin qorunması isə sabitlik və dialoq üçün seçimə çevrilir.

Rəssam bildirib ki, sərginin ideyası bir neçə ay əvvəl kuratorla söhbətdə ortaya çıxıb. Belə ki, 44 günlük Qarabağ müharibəsi hadisələrinin təsiri ilə Bakıda başlanan və Praqada tamamlanan silsilə ağrı və ümid arasında körpünü simvollaşdırır.

Sərgidə tamaşaçılara "Yeni" silsiləsi – insan varlığının yeddi mərhələsini əks etdirən əsərlər təqdim edilib. Klassik rəngkarlıq və abstraksiyanın vəhdəti üslubunda yaradılmış rəsm əsərləri Əzizə Mustafazadənin caz kompozisiyaları ilə müşayiət olunub.

Açılışda Çexiyanın bədii və akademik ictimaiyyətinin nümayəndələri, diplomatlar, eləcə də Azərbaycan diasporunun üzvləri iştirak ediblər. Sərgi incəsənətin müxtəlif mədəni təbəqələri necə birləşdirəcəyinə və dialoq üçün məkan yarada biləcəyinə nümunə olub.

***XQ***

# Cənnət Qarabağ indidən turistlərə gəl-gəl deyir

**Qarabağ torpaqları bu gün müasir Azərbaycanın dirçəliş-yüksəliş meydanına çevrilib. Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri regionun həyatına yeni nəfəs verir. Yollar, hava limanları, enerji və rabitə infrastrukturu sürətlə qurulur, şəhər və kəndlər yenidən salınır. Qarabağ təkcə fiziki deyil, mənəvi və sosial baxımdan da boy atır, xalqımızın əzmini, birliyini və gələcəyə inamını ifadə edən rəmzə çevrilir.**

***Quruculuq prosesinin tərkib hissəsi kimi turizm sahəsinin inkişafı da xüsusi diqqət mərkəzindədir. Bölgənin əlverişli coğrafiyası, füsunkar təbiəti, kənd təsərrüfatı ənənələri aqroturizm üçün böyük imkanlar yaradır. Kənd Yaşıl Turizminə Dəstək İctimai Birliyinin sədri, Qarabağ Universitetinin müəllimi Qəhrəman Yusupovun "Xalq qəzeti"nə verdiyi açıqlamada bildirir:***



**– Aqroturizm, sadəcə, istirahət növü deyil, həm də öyrənmək, kənd həyatını yaxından yaşamaq, təbiətlə birbaşa təmasda olmaq fürsətidir.**

– Müasir insanın kəndə üz tutmasının səbəbi yalnız təbiətlə təmas arzusu deyil, eyni zamanda sadə, təbii həyat tərzinə qayıdış ehtiyacıdır. Aqroturizm bu baxımdan kənd həyatını şəhər sakinlərinə daha yaxın edir. Turistlər kənd ailələrinin evlərində qalmaqla yerli mətbəxi dadır, təbii qidalarla qidalanır, əkinçilik, maldarlıq, bağçılıq və arıçılıq sahələrində könüllü iştirak edirlər. Bu proses onları kənd həyatının fəal iştirakçısına çevirir.

Turistlər məqsədlərinə görə 2 qrupa ayrılır. Birinci qrup təbiətlə ünsiyyət, sakitlik və istirahət axtaranlardır. Onlar kənd evlərində yerləşərək gündəlik kənd həyatını izləyir, yerli məhsullarla qidalanır, sərbəst şəkildə kənd ətrafında gəzintilərə çıxır və sadəcə atmosferdən zövq alırlar. İkinci qrup isə kənd təsərrüfatına daha dərindən maraq göstərənlərdir. Bu kateqoriyaya aid olan turistlər kənddəki fəaliyyətlərə qoşularaq bilik və bacarıqlar əldə etməyə can atırlar. Səhərlər quş səsləri ilə oyanmaq, bostandan məhsul toplamaq, arı pətəklərindən bal süzmək, təzə südün dadına baxmaq istəyirlər.

Bütün bunlar şəhər sakinləri üçün əlçatmaz xəyallar kimi görünsə də, Qarabağda reallığa çevrilir. Bu fəaliyyətlər həm şəxsi inkişaf baxımından əhəmiyyətlidir, həm də yerli icmalarla mədəni mübadiləni təşviq edir. Beləliklə, aqroturizm həm öyrədir, həm də birbaşa kənd həyatını yaşamaq imkanı yaradır.

**Qəhrəman Yusupovun fikrincə, bu sahədə Qarabağ böyük potensiala malikdir:**

– Füzuli və Xocavənd rayonlarında həyata keçirilən layihələr, yaradılan marşrutlar və müasir infrastruktur bu rayonları Cənubi Qafqazın aparıcı aqroturizm mərkəzlərinə çevirir. Xüsusilə Füzulidəki beynəlxalq hava limanı, inkişaf edən logistika sistemi və Zəngəzur dəhlizinin buradan keçməsi bölgənin strateji əhəmiyyətini daha da artırır.

Qarabağda aqroturizm istiqamətində seçilən məkanlardan biri də Tuğ kəndidir. Tarixən üzümçülük və şərabçılıqla tanınan bu kənddə müasir turizm komplekslərinin yaradılması nəzərdə tutulur. Turistlər bu komplekslərdə yalnız məhsulların dadına baxmaqla kifayətlənməyəcək, həm də istehsal prosesində iştirak edərək yerli həyat tərzini yaxından tanıyacaqlar. Keçiriləcək festivallar və təqdimatlar isə regionun turizm cəlbediciliyini daha da artıracaq.

Hadrut qəsəbəsi də aqroturizm üçün əlverişli məkandır. Meşəlik dağların ətəyində yerləşən bu yaşayış məntəqəsi kənd həyatının orijinallığını qoruyur. Burada bağçılıq, arıçılıq, heyvandarlıq kimi sahələrdə interaktiv turların təşkili üçün geniş imkanlar mövcuddur. Eyni zamanda, Laçın, Kəlbəcər, Zəngilan və Ağdam kimi dağlıq və dağətəyi rayonlar da aqroturizm baxımından geniş potensiala malikdir. Bu bölgələrdə formalaşmış kənd təsərrüfatı ənənələri və füsunkar təbiət resursları aqroturizmin dayanıqlı inkişafı üçün möhkəm zəmin yaradır.



Laçının sərin yaylaqları, təmiz havası və gözəl təbiəti burada həm ekoloji istirahət, həm də kənd həyatına inteqrasiya üçün əlverişlidir. Maldarlıq və arıçılıq təsərrüfatlarında iştirak, yerli süd məhsullarının hazırlanması prosesinin izlənilməsi, kənd evlərində istirahət, təbii bal, təndir çörəyi və yerli mətbəx nümunələri turistlər üçün unudulmaz təəssüratlar yaradacaq. Eyni zamanda, burada yaradılacaq ailəvi istirahət zonaları və yaylaq məskənləri kənd həyatını dolğun təqdim edəcək.

Kəlbəcər isə mineral bulaqları, geniş otlaq sahələri və füsunkar mənzərələri ilə fərqlənir. Burada dağ turizmi ilə aqroturizmin vəhdəti yaradılaraq turistlərə həm kənd həyatını, həm də təbiətlə baş-başa istirahəti yaşamaq imkanı veriləcək. Saf təbiət, qonaqpərvər yerli əhali bu bölgəni daha da cəlbedici edir.

Zəngilan meyvə bağları ilə tanınır. Bu bağlar istirahət və öyrənmə yönümlü marşrutların formalaşmasına əlverişli zəmin yaradır. Ağdamda isə nar bağları və zəngin mətbəx nümunələri aqroturizmə xüsusi rəng qatacaq. Turistlər burada məhsul yığımında iştirak edəcək, həm də yeməklərin hazırlanması prosesini yaxından izləyə biləcəklər.

**– Müsahibimiz sonda bir məsələyə də toxundu və bildirdi ki, bu sahədə beynəlxalq təcrübədən də istifadə olunmalıdır:**

– İtaliya, Almaniya, Fransa, Avstraliya və Böyük Britaniya kimi ölkələrdə aqroturizm inkişaf etmiş sahə kimi formalaşıb. Onların təcrübəsi Azərbaycanda sahənin inkişafına faydalı töhfə verə bilər. Aqroturizm təkcə şəhər mühitindən kənd mühitinə keçid deyil, həm də unikal həyat tərzinin yaşanması, yeni bacarıqların əldə olunması və fermer həyatının bir hissəsinə çevrilmək fürsətidir.

Hazırda ölkədə bəzi tur operatorları tərəfindən təşkil olunan "aqrar turlar" adətən fermalara qısa səfərlər və məhsul yığımında simvolik iştirakla məhdudlaşır. Turistlər meyvə bağlarında 1–2 saat məhsul yığımında iştirak edib, yığdıqları məhsulun pulunu ödəyərək oradan ayrılırlar. Bu isə əsl aqroturizmdən çox ekskursiyalara bənzəyir. Artıq ekskursiyalara deyil, aqroturizmə önəm verməyin vaxtıdır. İnanıram ki, Qarabağda bu sahəyə dövlət tərəfindən göstərilən dəstək aqroturizmi yeni mərhələyə daşıyacaq. Prezident İlham Əliyevin tapşırığı ilə kənd təsərrüfatı, yerli sənətkarlıq və turizm infrastrukturunun inkişafına yönəlik kompleks tədbirlər tezliklə nəticəsini verəcək.

**– Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun şöbə müdiri Mahir Zeynalov isə "Xalq qəzeti"nə verdiyi açıqlamasında bildirdi:**

– Qarabağ bölgəsi Azərbaycanın həm tarixi kökləri, həm də strateji əhəmiyyəti baxımından ölkəmizin ən mühüm ərazilərindən biridir. Onun sözlərinə görə, Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş torpaqlarımızda həyata keçirilən məqsədyönlü siyasət bu ərazilərin bərpası və dirçəldilməsi istiqamətində mühüm dönüş nöqtəsi olub.

Bu prosesdə iqtisadi və sosial inkişaf başlıca prioritet kimi müəyyən olunub və bu yanaşma Dövlət proqramlarında da öz əksini tapır. Belə proqramlardan biri də ölkə başçısının 2022-ci il 16 noyabr tarixli sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"dır. Proqramda qarşıya qoyulan əsas hədəflərdən biri kimi aqroturizmin inkişafı xüsusi qeyd olunur.

Bu istiqamətdə həyata keçirilən tədbirlər Kəlbəcər, Şuşa, Qubadlı, Zəngilan, Laçın, Füzuli və Xocavənd rayonlarında aqroturizm potensialının qiymətləndirilməsi və tətbiqini nəzərdə tutur. Aqroturizmin inkişafı bu bölgələrin kompleks şəkildə inkişafına və dayanıqlı sosial-iqtisadi sistemin qurulmasına xidmət edən mühüm alətə çevrilir.

**– Şöbə müdiri daha sonra qeyd etdi ki, aqroturizm yalnız istirahət və rekreasiya vasitəsi deyil, eyni zamanda kənd yerlərində yaşayan əhali üçün yeni iqtisadi imkanlar, əlavə gəlir mənbəyi və sosial rifah deməkdir:**

– Turistlərin kəndlərə artan marağı nəticəsində yerli sakinlər öz təsərrüfatlarını turizm obyektlərinə çevirməyə başlayır, bu isə kənd həyatının iqtisadi cəhətdən cazibədar olmasına və əhalinin doğma yurdlarına dönüşünə mühüm stimul yaradır.

Dünyada mövcud təcrübələr də göstərir ki, aqroturizm regionların inkişafında effektiv mexanizmdir. Avropa ölkələrində kənd turizminə maraq sürətlə artır. Turistlər yerli məhsulları, o cümlədən pendir, ət, meyvə-tərəvəz kimi nemətləri birbaşa istehsalçının təqdimatında dadmaqdan zövq alırlar. Azərbaycanda da bu sahəyə göstərilən dövlət dəstəyi və sahibkarlıq təşəbbüsləri Qarabağda aqroturizmin inkişafı üçün yeni imkanlar yaradır.

Aqroturizmin inkişafı təkcə iqtisadi deyil, həm də mədəni və ictimai baxımdan əhəmiyyətlidir. Belə ki, turistlərlə yerli əhali arasında yaranan ünsiyyət milli mətbəximizin, adət-ənənələrimizin və yaşayış tərzimizin təbliğinə şərait yaradır. Bu isə həm daxili, həm də beynəlxalq turizm bazarında Qarabağın nüfuzunun artmasına xidmət edir. Post-münaqişə dövründə olan Qarabağ üçün aqroturizm təkcə iqtisadi mexanizm deyil, həm də sosial reinteqrasiya vasitəsidir. Doğma torpaqlara qayıdan vətəndaşlarımız öz ənənəvi təsərrüfatlarını bərpa edərək kənd həyatını yenidən dirçəldəcək və eyni zamanda müasir turizm infrastrukturu ilə inteqrasiya olunmuş şəkildə fəaliyyət göstərəcəklər.

Müsahiblərimizin dediklərini onunla yekunlaşdıraq ki, dövlət bu istiqamətdə sahibkarlara geniş dəstək tədbirləri təqdim edir. Aqroturizmin inkişafı tezliklə Qarabağ və Şərqi Zəngəzurun sosial və iqtisadi dirçəlişində aparıcı rol oynayacaq. Bu sahənin yaxın gələcəkdə ölkə iqtisadiyyatının qeyri-neft sektorunda əsas istiqamətlərdən birinə çevriləcəyi gözlənilir.

Beləliklə, Qarabağda aqroturizmin inkişafı yalnız iqtisadi deyil, həm də milli-mədəni irsin qorunması, kənd həyatının canlandırılması və əhalinin vətənə bağlılıq hissinin gücləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Bu strategiya Azərbaycanın gələcəyinə olan inamı, milli birliyi və əzmi daha da möhkəmləndirir.





***Pünhan Ə.***
***XQ***

# Kim sevməsə yurdunu...

**1948-53-cü illərdə Qərbi Azərbaycandan - öz dədə-baba torpaqlarından didərgin düşənlərdən biri də Firudin Səfərovdur. Hazırda Biləsuvar rayonunun Bağbanlar kəndində yaşayır. Yaşı 90-ı haqlayan Firudin dayı uzun illərdir yurd həsrəti ilə yaşayır, doğulduğu kəndi, el-obanı bir an belə unuda bilmir. Digər soydaşlarımız kimi doğma yurda qayıdacaqları günü həsrətlə gözləyir.**

Firudin dayı deyir: Mən yaşlı adam kimi bir həqiqətə ürəkdən inanıram. Biz Qərbi Azərbaycana – doğma yurdumuza qayıdacağıq və oralarda hər şey əvvəlki qaydasına düşəcək. Biz bunu 44 günlük Zəfər Qələbəsindən sonra Qarabağımızın timsalında aydın gördük. Sevinirik ki, əzəli Qarabağ torpaqlarımız öz əvvəlki şöhrətini bərpa edir. Bütün bu tarixi hadisələrin təməlində isə Prezident İlham Əliyevin müdrik siyasəti dayanır.

Qərbi Azərbaycandan –Vedi rayonunun Cığıngöl kəndindən deportasiya olunanda Firudin dayının 11 yaşı vardı. Bütün kənd sakinləri kimi, onların ailələri də ata-ana, 6 bacı və 1 qardaş öz doğma yurdlarından, isti ocaqlarından didərgin düşərək Azərbaycanın Kür-Araz ovalığına köçürülürlər. Səfərovlar ailəsi də Biləsuvarın Bağbanlar kəndində məskunlaşır.

Mənfur siyasət nəticəsində həyatda min bir əziyyət görmüş Firudin dayı o ağır günləri belə xatırlayır.

...Kəndimiz çox səfalı bir yerdə salınmışdı. 150-dən çox evin hamısı azərbaycanlı ailələri idi. Cəmi bir erməni ailəsi məskunlaşmışdı. Bütün ailələr özlərinə yaxşı gün-güzəran qurmuşdular. Atam həm dərzi, həm də fotoqraf idi. Əlindən çox iş gəldiyindən evimiz, həyət-bacamız səliqəliyi ilə digərlərindən seçilirdi. Yurdumuzu, evimizi tərk etmək bizi çox üzürdü. Uşaq olsam da qonşu Məngün, Kolanı kənd sakinlərinin eyni hissləri yaşadıqlarını görürdüm. Heç kim bağlandığı yuvasını tərk etmək istəmirdi. Amma əlimizdən nə gəlirdi ki... Gül-çiçəyə bürünmüş həyətimiz, yüzlərlə arı pətəklərimiz indi də gözümün önündədir...

Atamın vaxtı az olduğundan arı pətəklərimizə kəndimizdə yaşayan yeganə erməni ailəsindən olan İşxan qulluq edirdi. Biz köçəndə də həmin arı pətəkləri ona qaldı...

Firudin dayı danışır, gözləri yol çəkir, kim bilir, xəyalları harada dolaşır. Bu arada kövrəlir. Araya bir sükut çökür. Əlini "pult"a uzadaraq televizoru yandırır. Elnarə Abdullayevanın ifasında "Kim sevməsə öz yurdunu" mahnısını eşidən kimi, "Lap yerinə düşdü"- deyə xəyallardan ayrılaraq söhbətinə davam edir:

-Ay oğul, bu gün məni yaman yordun. Amma doğma yurdumda keçən illəri yada saldım. Bir daha elimizə qayıtmaq üçün ürəyim lap o torpaqlar üçün darıxdı. Doğru deyiblər ki, kim harada dünyaya göz açıbsa, ora onun üçün Vətəndir.

Köç edəndə bizi burada yaxşı, isti münasibətdə qarşıladılar, müvəqqəti olaraq kənd sakinlərinin evlərində yerləşdirdilər. Kənddə əsasən rus ailələri məskunlaşmışdı. Onlar köçüb getdikcə evlərini alaraq yeni yurd yeri saldıq. Kolxoz təsərrüfatlarında işə cəlb olunduq. Kənd sakinlərinin soydaşlarımıza son dərəcə isti münasibəti, qayğısı ağır dərdlərimizi bir az yumşaltsa da, məcburi tərk etdiyimiz əzəli torpaqlarımızda qalmış babalarımızın, əzizlərimizin ruhu bizi rahat buraxmırdı.

Müsahibim hələ gücdən düşməmiş əlləri ilə uzun saçına sığal çəkir, qarşımızdakı pürrəngi çaydan bir qurtum alır.

-Bəlkə də inanmayacaqsınız. 26 yaşım vardı, dəli-dolu bir cavan idim. Haradansa könlümdən çox güclü bir şəkildə doğma yurd-yuvamıza baş çəkmək istəyi keçdi. Bir gün evdə fikrimi açıqladım. Hamı bir ağızdan, nə danışırsan, olmaz,- dedilər. Amma fikrim qəti idi. Nəhayət, yolçu yolda gərək deyib, yola düşdüm. 15 il idi ki, görmədiyim yerlər, kəndlərimiz demək olar ki, dağıdılmışdı. Kövrələ-kövrələ torpaq yolla üzü kəndə doğru hərəkət edirdim. Qonşu kəndə çatanda bir erməni qadının təndirə çörək yapdığını gördüm. O da məni görcək duruxdu. Gözlərinə inanmadı. Gəlinini də səslədi. Hər ikisi bizlərin kəndi tərk etdiyimizə görə səbəbkarları lənətləyirdilər. Məni ətri hər yana yayılmış isti çörəyə qonaq etdilər. Bir neçə saatdan sonra doğma kəndimiz - Cığıngölə çatdım. İlahi, bu nə mənzərə idi. Hər yeri hamarlanmış gördüm. Əl-ayağım bir anlığa qurudu. Birdən gözüm doğma evimizə sataşdı. Göz yaşlarım sel kimi axırdı. Vaxtilə atamla yaxşı münasibəti olmuş kənddə yaşayan yeganə erməni İşxanı gördüm. Arı pətəklərimizə yenə də o baxırdı. Məni görcək qucaqlayıb kövrəldi, nə yaxşı gəlibsən, dedi. Allah, o daşnaksütyunçulara lənət etsin. Necə də mehriban yaşayırdıq. Bizi də pis günə qoydular. Bütün ev-eşikləri dağıtdılar ki, köçənlər bir daha qayıtmasınlar. Sizin ev bilirsən niyə durur? Rahat, çoxotaqlı olduğu üçün özlərinin bu tərəfə üz tutan qonaqları məhz burada qalır.



İşxan göz yaşlarını silə-silə arı pətəklərinə işarə edərək dedi:

–Sizin pətəklərdir. Eləcə də qoruyub saxlayıram. Nə vaxt qayıtsanız özünüzə qaytaracağam. Qayıdanda Şirazlı kəndinin yanından keçəcəksən, qızım Gerasil orada yaşayır, onlarla da görüşərsən.

Maraqlıdır, biz deportasiya olunanda 11 yaşında idim. Gerasillə uşaqlığımız bir yerdə keçməmişdi. 15 ildən sonra onun qapısını döyüb görüşmək olduqca çətin idi. Şirazlıdan keçəndə onların evinin yerini soruşdum. Bir az tərəddüd içində idim. Qapını döyüm, yoxsa yoluma davam edim. Cəsarətlə iki dəfə qapını astadan vurdum. Qarşımda dayanan özü idi. Bir anlığa fikirləşdim ki, yəqin məni tanımaz. Amma Gerasil məni görcək azərbaycanca "Sən Firudinsən? – dedi. Başımın işarəsi ilə təsdiqlədim. "Necə tanıdın? "Necə tanıdığımı indi sənə göstərəcəm, bura gəl". Evə daxil olduq. Sanki bədənimdən elektrik cərəyanı keçdi. Bir anlığa donub qaldım. Gözqamaşdıran xalçanın üstündən atamla mənim illər əvvəl çəkdirdiyimiz qoşa şəklimiz asılmışdı.

Gerasil gülümsədi: bax, bu fotodan tanıdım, atanız həmişə bizim ailəyə həm dolanışıq, həm də maddi cəhətdən dayaq olub. Bir anlığa fikirləşdim: yəqin ki, biz köçəndən sonra foto işini bacaran atamın əli ilə yaradılmış bu portreti atası evimizdən götürərək qızına bağışlamışdı. Bu hadisənin təsiri altından uzun illər çıxa bilmirəm və ömürlük yaddaşıma həkk olunub.

Firudin dayı gününün çox hissəsini bağ-bağatda, güllü-çiçəkli bağçasında keçirir. Nəvə-nəticələri qonaq gələndə babanın sevinci daha da artır. Övladları – 3 oğul, 3 qızını necə deyərlər, ev-eşik sahibi edib. Qızları Nurxanım, Həqiqət, Pərvanə xoşbəxt ailə həyatı yaşayırlar. Oğlanları Firdovsi, Sərraf, Xəqaninin ev-eşikləri, xoş gün-güzəranları var. 30-a yaxın nəvə və nəticənin sevimli babasıdır Firudun dayı.

Doğma yurd-yuvalarından deportasiya olunmuş bütün soydaşlarımız kimi, Firudin dayı da Qərbi Azərbaycandakı əzəli torpaqlarımızla bağlı hər bir xəbəri diqqətlə izləyir. Biz o yerlərə mütləq qayıdacağıq, - deyir. O gün isə uzaqda deyil... Bəlkə də o yerləri görmək üçün bu yaşa qədər dözüb ömür sürmüşəm. Min şükür ömür verənə.

Nəhayət, maraqlı söhbətimizi yekunlaşdırıram. Sağollaşıb ayrılanda Firudin dayının dodaqaltı zümzüməsi diqqətimi cəlb edir: Kim sevməsə öz yurdunu, bu dünyadan naçar gedər... Yurdunuza qovuşmaq arzusu ilə.

***Müşfiq MİRZƏ***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 203 (30897) 23 sentyabr 2025-ci il, çərşənbə axşamı

# Sürət cəngavərlərinin Bakı savaşı

## *Azərbaycan Qran Prisi uğurla yekunlaşdı*



**Küləklər şəhəri Bakının ilk payız günündə dənizin qoxusu ilə qarışan sərin meh dar küçələrdən əsib keçərkən, şəhərin qəlbi sanki bir başqa ritmlə döyünürdü. Bu döyüntünün adı Formula 1 idi. Səssizliyi yaran gurultulu mühərriklər, dar döngələrdə küləklə əlbəyaxa gedən bolidlər və tribunaların dalğalanan enerjisi Bakını yenidən dünyanın diqqət mərkəzinə çevirmişdi. Bu, sadəcə bir yarış deyildi, həm də ölkənin mədəniyyətini, irsini və qürurunu dünyaya nümayiş etdirən bir bayram idi. Burada yalnız mübarizə yox, həm də Azərbaycanın qonaqpərvərliyi və şəhərin özünəməxsus ruhu hiss olunurdu.**



Formula 1 Qatar Airways Azərbaycan Qran Prisi 2025-in açılış mərasimi Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başladı. Dünya şöhrətli xanəndə, Azərbaycanın Xalq artisti Alim Qasımov və onun qızı Fərqanə Qasımova himni bənzərsiz ifaları ilə səsləndirdilər. Onların səsi muğamın dərin qatlarını xatırladır, tarixi, milli kökləri və xalqın qürurunu bir araya gətirirdi. Bu an səhnədə üçrəngli bayrağımızı simvolizə edən vizual effektlər, səkkizguşəli ulduz və milli ornamentlər gözlər önündə canlanaraq himnin səsinə tamamlayıcı oldu. Milli musiqinin sədaları altında başlayan mərasim həm mədəniyyətimizin gücünü, həm də idmanın universal dilini birləşdirərək yarışa rəsmi start verdi.

Yarışın özü isə şəhərin ritmini daha da gücləndirdi. Bolidlər bir-birinin ardınca Bakı Şəhər Halqasının dar küçələrini titrədərkən tribunalar hər dəqiqə daha da coşurdu. Niderlandlı pilot Maks Ferstappen bu dəfə də öz adını tarixə yazdı. “Red Bull Racing”in sürücüsü poul mövqeyindən başladığı 51 dövrənin hamısına liderlik etdi və finiş xəttini birinci keçdi. Bu, onun Bakıdakı ikinci qələbəsi idi və həmin an tribunaların gurultulu alqışları Xəzərin sahilində əks-səda verdi. Ferstappenin ardınca “Mercedes”in sürücüsü Corc Rassell gərgin mübarizəyə baxmayaraq 14 saniyədən çox fərqlə ikinci oldu. Üçüncü pillədə isə “Williams”ın ispan pilotu Karlos Sayns qərarlaşdı. Bu, onun yeni komandası ilə ilk podiumu idi və Saynsın sevinc dolu reaksiyası tribunaların coşqusu ilə birləşdi.

Qələbə sıralamasında dördüncü yeri gənc istedad Kimi Antonelli tutdu. “Racing Bulls” pilotu Liam Louson karyerasının ən yaxşı nəticəsini göstərərək beşinci oldu. Ferstappenin komanda yoldaşı Yuki Tsunoda isə altıncı pilləyə yüksələrək “Red Bull Racing” üçün mövsümün ən yaxşı nəticələrindən birinə imza atdı. İlk onluğun davamında Lando Norris, Lyuis Hemilton, Şarl Lekler və Ayzek Hadjar yer aldı.

Bu qələbə ilə Oskar Piastri hələ də 324 xalla çempionatda liderliyini qorusa da, Lando Norris 299 xalla ikinci, Ferstappen isə 255 xalla üçüncü yerə yaxınlaşaraq fərqi azaldıb mübarizəni daha da gərginləşdirdi. Yarış sonrası pilotların açıqlamaları isə həyəcanın iç üzünü göstərirdi. Ferstappen belə dedi: “Bizim üçün inanılmaz bir həftəsonu oldu. Moncada da güclü idik, amma Bakıda qələbə qazanmaq sadəcə fantastikadır. Güclü külək maşını çox silkələyirdi, amma hər şey mükəmməl işləyirdi. Bu trasda heç vaxt asan olmur, amma nəticədən çox razıyam”.

Sayns isə duyğularını gizlətmədi: “Bu, ‘Williams’la mənim ilk podiumumdur. Bütün il mübarizə apardıq və bu gün sübut etdik ki, biz doğru yoldayıq. Həyatda uğursuz anlar olur, amma bu gün hər şey bir araya gəldi və komandamla fəxr edirəm”. Corc Rassell də məmnuniyyətini ifadə etdi: “Karlosu və ‘Williams’ı təbrik edirəm. Mənim üçün də podiuma qayıtmaq çox xoşbəxtlikdir. Bu nəticə ilə Konstruktorlar Kubokunda ‘Ferrari’ni geridə qoymaq şansımız artdı”.

Lakin bu möhtəşəm yarış yalnız pilotların bacarığı ilə deyil, həm də səhnəarxası qəhrəmanların – könüllülərin və marşalların əməyinin nəticəsi idi. 31 min nəfərin müraciətindən seçilən 2 min könüllü media, akkreditasiya, protokol, təhlükəsizlik və digər sahələrdə çalışaraq yarışın nizamlı və ahəngdar keçməsini təmin etdilər. Bu, indiyədək rekord göstərici idi. Onların əməyinin nəticəsi olaraq Bakı yalnız sürət deyil, həm də təşkilatçılıq məharəti ilə bir daha diqqət mərkəzinə çevrildi.

Ən çətin sınaq isə sıralanma mərhələsində yaşandı. Bir sessiyada altı dəfə qırmızı bayraq qaldırıldı ki, bu da Formula 1 tarixində ilk idi. Qəzalardan sonra dağıntıları təmizləyən, baryerləri bərpa edən marşallar operativliyi ilə bütün dünyanın diqqətini çəkdi. Oskar Piastrinin qəzasından tutmuş Lekler, Hülkenberq, Qasli, Kolapinto və Albonun insidentlərinə qədər hər müdaxilə onların dəqiqliyini bir daha sübut etdi. Xaos kimi görünən vəziyyətin arxasında böyük bir fədakarlıq və peşəkarlıq dayanırdı.

Bir sözlə, Bakı Şəhər Halqası bu il də öz möhtəşəmliyi ilə yadda qaldı. Küçələrin dar döngələrində əsən külək, mühərriklərin gurultusu, pilotların cəsarəti və marşalların fədakarlığı birləşərək unudulmaz bir tablo yaratdı. Bu tablo yalnız sürətin deyil, həm də mədəniyyətin, əzmkarlığın və qürurun hekayəsi idi. Şübhəsiz, Azərbaycan Qran Prisi 2025 idman tarixində gərginlik və gözlənilməz hadisələrlə dolu ən yaddaqalan yarışlardan biri kimi qalacaq.

***Səbuhi MƏMMƏDOV,***
***Cavid QAÇAYEV (foto)***
***XQ***

## İDMAN

## Yunan-Roma güləşçilərimiz Dünya ikincisi olub



**Xorvatiyanın paytaxtı Zaqrebdə keçirilən güləş üzrə dünya çempionatı başa çatıb.**

Mundialda 1 qızıl, 1 gümüş və 2 bürünc medal qazanan yunan-Roma güləşi üzrə Azərbaycan millisi 89 xalla komanda hesabında dünya ikincisi olub. İran (180 xal) birinci, Özbəkistan (72 xal) isə üçüncü yeri tutub.

Xəbər verdiyimiz kimi, yığmanın tərkibində Ülvü Qənizadə (72 kiloqram) qızıl, Həsrət Cəfərov (67 kiloqram) gümüş, Eldəniz Əzizli (55 kiloqram) və Murad Əhmədiyev (97 kiloqram) bürünc medal qazanıb.

## Premyer Liqada V tur



**Ötən həftənin bazar günü keçirilən iki oyunla Misli Premyer Liqasında V tura yekun vurulub. “Liv Bona Dea Arena”da baş tutan qarşılaşmada “Qarabağ” “Araz-Naxçıvan”ın qapısından 5 cavabsız top keçirib. Ağdam klubundan Toral Bayramov het-trikə imza atıb.**

Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunda baş tutan “Sumqayıt” –“Neftçi” qarşılaşmasında isə sevinən tərəf qonaqlar olub – 0:2. Bununla da paytaxt təmsilçisi cari mövsümdə ilk qələbəsini qazanıb.

Turun əvvəlki görüşlərində “İmişli” “Karvan-Yevlax”ı, “Qəbələ” “Kəpəz”i 3:0, “Sabah” “Turan Tovuz”u 2:0, “Zirə” isə “Şamaxı”nı 2:1 hesabı ilə məğlub edib.

Turnir cədvəlinə 11 xala “Zirə” başçılıq edir. 10 xala malik “Sumqayıt” və “Araz-Naxçıvan” ikinci, üçüncü yerləri bölüşürlər. Liderlərdən 1 oyun az keçirən “Qarabağ” 7 xalla 5-ci pillədə qərarlaşıb.

## Paraüzgüçümüzün qızıl və bürünc medalı



**Milli Paralimpiya Komitəsinin mətbuat xidmətindən verilən məlumata görə, Azərbaycanın üç qat paralimpiya çempionu Raman Salei (S12 kateqoriyası) Sinqapurda keçirilən paraüzgüçülük üzrə dünya çempionatının qalibi olub.**

İdmançımız yarışın ilk günündə 100 metr məsafəyə arxası üstə üzmə üsulunda 1:01.58 nəticə ilə qızıl medal qazanıb. Çempionatın ikinci günündə R.Salei 100 metr məsafəyə “butterfly” (kəpənək) üzmə üsulunda 58.17 nəticə göstərərək bürünc medal qazanıb.

Qeyd edək ki, dördüncü dəfə dünya çempionu olan R. Salei sentyabrın 27-nə qədər davam edəcək yarışda 50 metr məsafəyə sərbəst üzmə üsulunda da mübarizə aparacaq.

***Qabil YUSİFOĞLU***
***XQ***

**“Azərbaycan Skautlar Assosiasiyasının növbəti qurultayı 2025-ci ilin noyabr ayının 23-də Bakı şəhərində keçiriləcəkdir.**
**Email: qurultay@scout.az**

## *Ha a*

## Yağmursuz bir gün

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin səhər bəzi şəhərətrafı ərazilərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək.**

Havanın temperaturu gecə 14-18, gündüz 20-24 dərəcə isti olacaq. Atmosfer təzyiqi 768 millimetr civə sütunu, nisbi rütubət isə gecə 70-80, gündüz 50-60 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin



gecə və səhər bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Arabir duman müşahidə ediləcək. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 11-16, gündüz 20-25, dağlarda gecə 0-4, gündüz 5-9 dərəcə isti olacaq.

***Q.ƏLİYEV***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

“Xalq qəzeti”nin baş redaktoru Əflatun Amaşov və redaksiyanın kollektivi görkəmli yazıçı-publisist, qəzetin çoxillik fəal müəllifi, Prezidentin fərdi təqaüdçüsü

**ŞƏMİSTAN NƏZİRLİNİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid və Ahıl Jurnalistlər Məclisinin üzvləri görkəmli yazıçı-publisist, Prezidentin fərdi təqaüdçüsü

**ŞƏMİSTAN NƏZİRLİNİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

“Xalq qəzeti”nin kollektivi “Azərbaycan” qəzetinin redaktor müavini Amil Novruzluya bacısı

**ZƏMİNƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Agentliyin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin əməkdaşı Alı İsmayılova qardaşı

**VİLAYƏT İSMAYILOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**T E L E F O N L A R:**
**Reklam və elanlar: 493-82-21**
**Qəbul şöbəsi: 493-24-75**
**Məsul katib: 493-61-02**
**Texniki şöbə: 493-59-64**
**Mühasibatlıq: 498-85-29**
**Email: xalqqazeti@gmail.com**
**info@xalqqazeti.az**
**+994(51) 280-16-44**

**“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.**

**Ü N V A N I M I Z:**
**AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.**
**Şəhadətnamə 022273**

**İNDEKS 0282**
**TİRAJ 3543**
**SİFARİŞ 1901**
**QİYMƏTİ 60 qəpik**

**Növbətçi redaktor**
**İmran BƏDİRXANLI**
**Çapa imzalanmışdır 00:00**